# Azad edilmiş rayonlara həyat yenidən qayıdır



**Azərbaycan 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq, torpaqlarımızın azad edilməsi uğrunda böyük savaşa başladı və 44 günlük Vətən müharibəsindən şanlı Qələbə ilə çıxdı. Müzəffər Ordumuzun işğalçı və terrorçu Ermənistanın qorxaq və aciz silahlı qüvvələrinə qarşı əks-hücumu uğurla başa çatdı və ermənilərin nəzarətində olan kəndlərimiz, şəhərlərimiz bir-birinin ardınca düşməndən azad olundu.**

Həmin günlərdə hər bir yaşayış məntəqəmizin ordumuzun nəzarətinə keçməsi xalqımız tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, demək olar ki, hər gün televiziya vasitəsilə xalqa müraciət edir, işğaldan azad olunmuş kəndlərimizn siyahısını xalqa çatdırır, sevincini bölüşürdü. Nəhayət, noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, eləcə də Ermənistanın baş naziri arasında üçtərəfli bəyanat imzalandı. Bununla da, Ermənistan faktiki olaraq kapitulyasiya sənədinə imza atdı.

Sonrakı günlərdə, həmin sənəddə nəzərdə tutulduğu kimi, düşmən üç rayonumuzu – Ağdam, Kəlbəcər və Laçını azad etdi.

*(ardı 3-cü səhifədə)*





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 256 (30660) 21 noyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Fransanın Azərbaycandan şikayəti

*Yaxud həyasızlıqda kulminasiya məqamı*

**Uzun illər əvvəl Azərbaycanda bir qəzet fəaliyyət göstərmişdi. Bu nəşr media azadlığını yanlış anlamış, söyüşlərə, təhqirlərə və digər vulqar ifadələrə üstünlük vermişdi. Daha doğrusu, orada çalışanlar belə yaramazlıqların əksini tapdığı müxtəlif janrlı yazılar, əsasən, hekayələr qələmə almışdılar. Dəfələrlə onlara seçdikləri yolun, yumşaq desək, düzgün olmadığı bildirilsə də, nəticə verməmişdi. Amma günlərin birində durum dəyişdi. Necə dəyişdi, bunu yazımızın son abzasında biləcəksiniz.**



Hələlik isə qeyd edək ki, o zaman bir neçə qolu zorlu şəxs qəzetin redaksiyasına daxil olmuş, qapını arxadan bağlamış və nəşrin əməkdaşlarını möhkəm təhqir etmişdi. Heç şübhəsiz, gələnlər başqa cür də davrana bilərdilər. Ancaq onlar söyüşləri müəlliflərinə qaytarmaqla kifayətlənmiş, bildirmişdilər ki, qəzetdə bu kimi hallar təkrarlanacağı təqdirdə, yenidən qayıdacaqlar və…

Maraqlıdır ki, sözügedən nəşrin əməkdaşları təhqir olunmalarından şikayət etmiş, giley-güzarlarını bildirmiş, hətta durumu söz və ifadə azadlığına basqı kontekstində də dəyərləndirməyə cəhd göstərmişdilər. İndi Fransanın tutduğu yol, təxminən, həmin qəzetlə bağlı durumu xatırladır. Yəni, ölkə şikayət edir. Necə deyərlər, utanmasan, oynamağa nə var...

Kəsəsi, Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva ölkənin Avropa və Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə məlumat dövləq qurumunun yaydığı press-relizdə əksini tapıb. Yəqin, çağrılmanın səbəbini təxmin etdiniz. Məsələ ilə bağlı bir sıra məqamların üzərində dayanacağıq. Bəri başdan deyək ki, Parisin diplomatik həmlə cəhdinin yalnız bir adı var – həyasızlıq.

*(ardı 4-cü səhifədə)*

# Göytürklərin ənənəsini “Yaşıl enerji”lilər davam etdirirlər

*Bakı – Astana – Daşkənd sazişi TDT-ni daha da qüdrətləndirəcək*




Səhifə ⇨ 4

## İqlim və Sağlamlıq üzrə Varislik Koalisiyası yaradılır



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında keçirilən dəyirmi masada “İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası”nın yaradılması haqqında niyyət məktubu imzalanıb. Koalisiyanın tərkibinə Azərbaycan, Böyük Britaniya, Misir, Birləşmiş Ərəb Əmirlikləri və Braziliya daxil olub.**

Səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan iqlim və sağlamlıq arasında əlaqənin təşviqinə sadiqdir. İqlim dəyişikliyinin sağlamlığa təsiri artıq bütün dünyada hiss olunur.

Koalisiyanın beynəlxalq əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirdiyini bildirən nazir deyib: “Bu gün biz bu çağırışlarla mübarizə aparmaq naminə kollektiv öhdəliyimizdə irəliyə doğru mühüm bir addım atırıq.

*(ardı 10-cu səhifədə)*

# İrəvan talançılığına görə cavab verməlidir!

**Otuz ilə yaxın erməni işğalı altında qalan torpaqlarını 2020-ci ildə hərbi yolla azad edən Azərbaycan Ermənistanla hüquqi müstəvidə mübarizəsini davam etdirir. Hazırda Ermənistanın Azərbaycana vurduğu maddi-mənəvi ziyanlarla bağlı BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində bir neçə işə baxılır. Xarici və daxili siyasət sahəsində aydın baxışlara malik ölkəmiz qarşı tərəfdən təzminat almaqda israrlıdır.**

Xarici İşlər Nazirliyinin dünən yaydığı məlumatda bildirilib ki, Azərbaycan hökuməti noyabrın 19-da Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Haaqada yerləşən Daimi Arbitraj Məhkəməsinə Ermənistana qarşı əsas iddia sənədini təqdim edib. Bildirilib ki, əsas iddia sənədində Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatları əks etdirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin göstərişi ilə hələ 2004-cü ildə informasiya müharibəsində və xarici siyasətdə müdafiədən hücum diplomatiyasına keçilməsi vəzifəsi irəli sürülüb. Bu da təsadüfi deyildi. Etiraf etmək lazımdır ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasında qəbul edilən qətnamələr istisna olmaqla, həmin tarixədək Ermənistan bizi beynəlxalq təşkilatlarda üstələyirdi. İşğalçı olmalarına baxmayaraq, onların səsi daha bərkdən çıxırdı. Qərbdəki tərəfdaşlarına arxalanan haylar ilhaq siyasətini legitimləşdirməyə



çalışırdılar. Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasına, 1 milyona yaxın qaçqın və məcburi köçkün problemi ilə üzləşməsinə baxmayaraq, daha çox sıxışdırılırdı. Ölkəmiz, necə deyərlər, haqlı ikən haqsız duruma düşmüşdü. ABŞ Konqresinin 1992-ci ildə Azadlığa Dəstək Aktına əlavə etdiyi 907-ci düzəliş bunun bariz göstəricisi idi. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş bədnam düzəliş Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan etmişdi. Nəticədə bu qadağa Azərbaycanı ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet ölkəsinə çevirmişdir.

Prezident İlham Əliyevin apardığı xarici siyasət isə Azərbaycanın milli maraqlarına uyğun olaraq, beynəlxalq aləmdə ölkənin mövqeyinin möhkəmləndirilməsinə və ərazi bütövlüyünün təmin olunmasına yönəlmişdir. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın dağlıq hissəsinin və ətraf ərazilərin Ermənistan işğalı altında olması xarici siyasətdə çevikliyimizi tələb edirdi.

*(ardı 7-ci səhifədə)*

## Şərəfli missiya

YAP

Səhifə ⇨ 6

## COP konfranslarında ilk Turizm Günü



**Dünən Bakı iqlim konfransı çərçivəsində COP tarixində ilk dəfə olaraq təşkil edilən “Turizm Günü”ndə Turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşü keçirilib.**

*(ardı 9-cu səhifədə)*


COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Əli Əsədovun İran naziri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 20-də İran İslam Respublikasının mədəni irs, turizm və əl işləri sənayesi naziri Reza Salehi Amiri ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə COP29-un Bakıda yüksək səviyyədə təşkil olunduğu məmnunluqla vurğulanıb.

Azərbaycanın COP29 Sədrliyi dövründə müəyyən etdiyi prioritetlərdən birinin də turizm sahəsində iqlim fəaliyyəti olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycan–İran əlaqələrinin hazırkı vəziyyəti, həmçinin qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

**XQ**

# Milli Məclisin sədrinin Rusiyaya işgüzar səfəri



**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) Şura və 57-ci Plenar iclaslarında iştirak etmək üçün noyabrın 20-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Sahibə Qafarovanın MDB PA-nın iclaslarında çıxışı, tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

# Haaqa Məhkəməsində Ermənistana qarşı iddia

**Azərbaycan hökuməti Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Ermənistana qarşı Daimi Arbitraj Məhkəməsinə (Haaqada yerləşən) Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatlarını əks etdirən əsas iddia sənədini təqdim edib.**

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu iddia sənədi, 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana Arbitraj haqqında Bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş bu il yanvarın 12-də keçirilib.

Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib.

Ermənistanın beynəlxalq hüququn normalarını pozma halları arasında xüsusilə, onun onilliklər ərzində Azərbaycanın əhəmiyyətli bərpaolunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini qeyd etmək olar. Bunlara əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng Su Anbarında yerləşən Tərtər Su Elektrik Stansiyası, İranla sərhəddə, Azərbaycanın keçmiş işğal olunmuş Cəbrayıl rayonunda yerləşən Xudafərin və Qız Qalası su elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpaolunan enerji mənbələri, habelə digər resurslar daxildir.

Ermənistan tərəfi işğal dövründə Tərtər Su Elektrik Stansiyasını istismar edən qurumları qanunsuz lisenziyalaşdırıb və tənzimləyib, bu enerji mənbəyini qanunsuz olaraq öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın Xudafərin və Qız Qalası layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və Azərbaycanın bərpaolunan enerji sektorunun inkişafına maneçilik törədib.

Azərbaycan, öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinin Ermənistan tərəfindən qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətini davam edəcəkdir.

**XQ**

# Fransanın Azərbaycandakı səfiri XİN-ə çağırıldı



**Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.

Bu xüsusda, Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırılıb.

Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

# Madaqaskarlı qonaq Fövqəladə Hallar Nazirliyində




**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Madaqaskar Daxili İşlər Nazirliyinin Şəhər dözümlülüyü, davamlılıq və risklərin idarə edilməsi üzrə Milli bürosunun baş direktoru diviziya generalı Olivier Andriakaja Elak ilə görüşüb.**

Qonağı səmimi salamlayan nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla keçirilən qlobal tədbir – COP29-da Madaqaskar DİN-in Şəhər dözümlülüyü, davamlılıq və risklərin idarə edilməsi üzrə Milli bürosunun təmsilçilərinin iştirakının yüksək qiymətləndirildiyini qeyd edib. K. Heydərov FHN-nin strukturu və fəaliyyəti barədə ətraflı məlumat verib, iki ölkənin uyğun qurumları arasında fövqəladə hallarla mübarizə sahəsində əlaqələrin qurulması və inkişafı üçün mövcud potensialı vurğulayıb.

Səmimi görüşə görə təşəkkür edən Olivier Andriakaja Elak COP29-da iştirakdan məmnunluq ifadə edib, mötəbər tədbirin Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunduğunu deyib.

Daha sonra qonaq FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin Böhranların idarə edilməsi zalı və Əməliyyat zalı, İctimaiyyətlə əlaqə idarəsinin Multi-media mərkəzinin fəaliyyəti ilə yerində tanış olub.

**XQ**

# “İtkin düşmüş şəxslər” qətnaməsi BMT-nin humanist aktıdır

**“Qarabağ İtkin Ailələri” İctimai Birliyi BMT Baş Assambleyasının “İtkin düşmüş şəxslər” qətnaməsini qəbul etməsi ilə bağlı bəyanat yayıb.**

Bəyanatda deyilir: “Qarabağ İtkin Ailələri” İctimai Birliyi 2024-cü il 15 noyabr tarixində BMT Baş Assambleyası tərəfindən “İtkin düşmüş şəxslər” qətnaməsinin qəbul edilməsini alqışlayır, sənədin əsas müəllifi olan Azərbaycan dövlətinə və onu dəstəkləmiş digər ölkələrə təşəkkürünü bildirir. Azərbaycanın irəli sürdüyü bu beynəlxalq təşəbbüs, eləcə də son illərdə ölkəmizdə itkin düşmüş şəxslər probleminə dair keçirilmiş beynəlxalq tədbirlər bu problemi beynəlxalq gündəlikdə saxlamaqla onun həllini tapması ilə bağlı ümidlərimizi artırır.

Qətnamədə insanların itkin düşməsinin onların ailələrinin ağır əzablarına və bir çox insan haqları pozuntularına səbəb olmasının vurğulanması bizim üçün çox önəmlidir. İllərlə davam edən bu problem itkinlərin ailələrinin gözünü yolda qoymaqla yanaşı, bizim ailə birliyimizin və doğmalarımızın aqibətini bilmək hüququmuzun pozulmasına səbəb olur.

Qətnamə dövlətləri insanların itkin düşməsinin qarşısını almaq, itkindüşmə səbəblərini düzgün şəkildə araşdırmaq və itkinlərin taleyini aydınlaşdırmaq üçün bütün lazımi tədbirləri görməyə çağırmaqla yanaşı, itkin ailələrinə dəstək verilməsi və onlarla əməkdaşlıq edilməsi kimi vacib məqamlara toxunur.

Məlum olduğu kimi, Birinci Qarabağ müharibəsi zamanı 4 minə yaxın, İkinci Qarabağ müharibəsində isə 6 soydaşımız itkin düşmüşdür, onlar arasında uşaqlar və qadınlar da vardır. Birinci Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşmüş və onlar barədə Ermənistan tərəfindən bu illər ərzində bizə heç bir məlumat verilməmişdir. Bu hal azərbaycanlı itkinlərin ailələrinin böyük bir insanlıq faciəsi ilə üzləşməsinin göstəricisidir.

Torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi Azərbaycan hökumətinə bu ərazilərdə itkin düşmüş şəxslərin axtarışını, insan qalıqlarının aşkar edilməsini və identifikasiyasını həyata keçirməyə imkan yaradıb. Görülən işlər illərlə gözümüzü yolda qoyan xəbərsizliyin bitməsi üçün böyük ümidlər yaratsa da, Ermənistanın ehtimal olunan kütləvi məzar yerləri barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməməsi səbəbindən işğaldan azad edilmiş ərazilərdə ötən müddət ərzində cəmi 22 kütləvi məzarlığın aşkarlanmasının mümkün olması bizi hədsiz dərəcədə məyus etmiş, əzizlərimizin insanlığa sığmayan rəftara məruz qalaraq öldürülməsi və nəşlərinin kütləvi məzarlarda illərlə gizlədilməsi faktı üzləşdiyimiz haqsızlığın nə qədər böyük olduğunu bir daha sübut edib.

Biz itkin-şəhidlərimizin qalıqlarının axtarılması, identifikasiyası və ailələrinə təhvil verilərək, şəhid adına layiq şəkildə dəfn mərasimlərinin təşkilinə görə dövlətimizə minnətdarıq. Artıq bir sıra itkin ailələri otuz ilə yaxın davam edən həsrətə son verərək, xəbərsizlikdən doğan faciələrini öz əzizlərinin məzar daşına sahib olmaq təsəllisi ilə əvəz edə bildikləri üçün bir az da olsa rahatlıq tapa bilmişlər. Lakin bu təsəllini gözləyən minlərlə itkin ailəsinin gözü hələ də yoldadır.

BMT tərəfindən qəbul edilmiş sənəddə, həmçinin mina probleminin itkinlərin taleyinin aydınlaşdırılmasına törətdiyi əngəllərlə bağlı narahatlığın ifadə edilməsi və dövlətlərin insan qalıqlarının təhlükəsiz şəkildə axtarışı üçün əməkdaşlıq etməyə çağırılması bizim üçün önəmlidir. Biz öz təcrübəmizdən bilirik ki, azərbaycanlı köçkünlər torpaqlarımızın artıq dörd ildən çox müddətdir azad olmasına baxmayaraq, mina təhlükəsi səbəbindən hələ də torpaq həsrəti çəkir. Bu amansız tələ dörd il ərzində 400-ə yaxın soydaşımızın ölümünə və yaralanmasına səbəb olmaqla yanaşı, bu ərazilərdə görülən bütün işlərə, o cümlədən itkinlərin qalıqlarının axtarışına mane olur.

Biz “Qarabağ İtkin Ailələri” İctimai Birliyi bir daha Ermənistan tərəfini itkinlərin taleyinin aydınlaşdırılması istiqamətində beynəlxalq öhdəliklərini, eləcə də BMT Baş Assambleyası tərəfindən “İtkin düşmüş şəxslər” qətnaməsinin tələblərini yerinə yetirməyə çağırır, hüquqlarımızın 30 ildən çox davam edən pozuntusuna son verməyi, kütləvi məzarlıqların yerləri barədə məlumat verməyi və bu cinayətləri törədənləri cəzalandırmağı tələb edirik. Hər bir itkin ailəsinin öz doğmasının aqibətini bilmək hüququ vardır!”.

**XQ**

# Mediaya dövlət dəstəyi davamlıdır

**Vergi Məcəlləsinə dəyişiklik Azərbaycanda media sahəsində aparılan islahatların, ümumən, dövlət siyasətinin davamlı xarakter daşıdığının növbəti təsdiqidir. Aydındır ki, başlıca məqsəd media subyektlərinin iqtisadi müstəqilliklərinin gücləndirilməsidir.**



Bunu Azərbacan Mətbuat Şurasının sədri Rəşad Məcid jurnalist fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirlərin 75 faizinin hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad edilməsinə dair Vergi Məcəlləsinə təklif edilən dəyişikliklə bağlı fikirlərini bölüşərkən deyib.

R.Məcid qeyd edib ki, cəmiyyətə informasiya verilməsinə məsul ayrı-ayrı şəxslərlə təmaslar zamanı onlar əldə etdikləri gəlirdən vergi tutulmalarının çox olduğunu bildiriblər. Əlamətdar haldır ki, qanunvericilikdə bu durum nəzərə alınacaq. Bu isə real gəlirlərin artımını şərtləndirəcək və deməli, həmin şəxslərin sosial rifah halı da yaxşılaşacaq.

MŞ sədri ölkəmizdə “Media haqqında” Qanuna əsasən media subyekti və jurnalist kimi fəaliyyət göstərənlərin imtiyazları xüsusunda indiyədək reallaşmış tədbirlərdən də söz açıb. O, bu baxımdan ipoteka qanunvericiliyinə edilən dəyişikliklərin üzərində dayanıb. R.Məcid bildirib ki, sözügedən dəyişiklik jurnalistlərə dövlət təminatlı güzəştli ipoteka kreditindən istifadə hüququnu verib. Bu isə onların sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dəstəkdir.

“Ölkəmizdə media fəaliyyətinin iqtisadi cəhətdən stimullaşdırılması baxımından daha bir mühüm addım kitablar və dərsliklərlə yanaşı, kütləvi informasiya məhsullarının ərsəyə gəlməsi üçün kağızın idxalının və satışının ƏDV-dən azad edilməsidir. Bu 2022-ci ildə gerçəkləşdi. 2023-cü ildə isə media fəaliyyətinin, demək olar, bütün komponentlərinin 3 il müddətinə ƏDV-dən azad olunduğunu gördük”, – deyən R.Məcid gerçəkləşdirilməkdə olan qanunvericilik tədbirlərinin cəmiyyətə informasiya verilməsinə məsul daha çox şəxsi əhatə etməsinin vacibliyindən söz açıb.

Şura sədri vurğulayıb ki, bunun üçün həmin şəxslərin özləri də qanunun əhatə dairəsində təmsilçiliyə maraq göstərməlidirlər. Yəni, hər kəs dərk etməlidir ki, qanunlar çərçivəsində həyata keçirilən jurnalist fəaliyyəti üstünlüklər qazandırır.

R.Məcid onu da bildirib ki, qanunla müəyyən edilən imtiyazlar jurnalistikanı stimullaşdıracaq və nəticədə, peşəyə marağı gücləndirəcək.

**XQ**

(əvvəli 1-ci səhifədə)

# Azad edilmiş rayonlara həyat yenidən qayıdır

Bu rayonların Azərbaycana qaytarılması bir güllə belə atılmadan, qurbanlar verilmədən baş tutdu. Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu noyabrın 15-dək, Ağdam rayonu noyabrın 20-dək və Laçın rayonu dekabrın 1-dək Azərbaycana təhvil verilməli idi. Lakin Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirdiyi brifinqdə elan etdi ki, Kəlbəcər rayonunun təhvil verilməsi prosesi 10 gün sonraya - noyabrın 25-nə keçirilir: “Ermənistan Kəlbəcərin təhvil verilməsi üçün noyabrın 25-nə kimi vaxt istəyib. Kəlbəcər rayonu coğrafi baxımdan böyük bir ərazini əhatə edir. Onların gedəcəyi yol Kəlbəcər–Zod–Vardenis yoludur. Ərazinin coğrafiyası və relyefi də çətindir. Yolda sıxlıq əsaslı şəkildə artıb… Kəlbəcərdə yerləşdirilən mülki əhalinin çıxması ilə bağlı Azərbaycan humanist addım atıb və noyabrın 25-dək onlar ərazini tərk edəcəklər”.

Beləliklə, noyabrın 20-də Ağdam, 25-də isə Kəlbəcər rayonları Ermənistanın işğalından azad olundu. Azərbaycanın üçrəngli bayrağı bu qədim şəhərlərimizin üzərində qaldırıldı. Sonradan Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə 20 Noyabr Ağdamın, 25 Noyabr isə Kəlbəcərin şəhər günləri kimi qeyd edilməyə başlandı.

Prezident İlham Əliyev Ağdamın azad edilməsi münasibətilə Azərbaycan xalqına müraciət etdi. Bildirdi ki, Azərbaycanın işğaldan azad olunmuş bütün əraziləri, o cümlədən Ağdam rayonu tamamilə bərpa ediləcək. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 23-də Ağdam şəhərində olarkən də bəyan edildi ki, bərpa proseslərinə – Şuşaya avtomobil yolunun çəkilişinə artıq başlanılıb və bu barədə sərəncam da verilib.

Üçtərəfli bəyanata əsasən, Ermənistan 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonunu Azərbaycana qaytardı. Həmin gün Prezident İlham Əliyev xalq müraciət edərək dedi: “Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur”.

Prezident bəyan etdi ki, Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bir çox çayımızın mənbəyi bu rayondadır. Bunlardan ən uzun çay Tərtər çayıdır ki, onun uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay da mənbəyini Kəlbəcərdən götürür. 200 kilometrə yaxın uzunluğu olan bu çaylar da böyük ərazini su ilə təmin edir. Eyni zamanda, Kəlbəcərdə 24 min hektara yaxın böyük meşə əraziləri var: “Bunlar böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb.



Son günlər … evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üzüzə idik!.. Bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik”.

Prezident həm də bəyan etdi ki, digər rayonlar kimi, Kəlbəcər də bərpa ediləcək, bu cənnət məkana həyat yenidən qayıdacaq. Kənd təsərrüfatı, xüsusilə heyvandarlıq inkişaf edəcək. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları, böyük otlaq sahələri var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunub. Vaxtilə ora böyük kurort zonası olub. Nəhayət, İstisu da Azərbaycanın nəzarətinə qayıdıb. Mənfur düşmən onu da dağıdıb. (Bu gün Kəlbəcərin “İstisu” mineral suyunun istehsalı yenidən bərpa olunub)

Prezident müraciətində bəyan etdi ki, bütün rayonlar bərpa olunacaq, Kəlbəcər yenidən qurulacaq: “Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır. Biz qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi – Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik. Dəmir yollarını bərpa edəcəyik. O cümlədən, Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar artıq ilkin göstərişlər verilmişdir. Bərdə-Ağdam dəmir yolunun bərpası ilə əlaqədar artıq praktiki addımlar atılmışdır. Ağdam rayonunun bərpası və gələcəkdə orada yaşayacaq insanların rahatlığı üçün bu yol mütləq olmalıdır. Yəni, bütün bu işlər planlı şəkildə aparılacaq. Bütün işləri biz planlı şəkildə etməliyik”.

Budur, sözügedən rayonların azadlığa qovuşmasından keçən dörd il müddətində ölkədə “Böyük Qayıdış” proqramına start verilib. Həmin proqram çərçivəsində həyata keçirilmiş layihələr, abadlıq-quruculuq işləri, iş yerlərinin açılması, yeni müəssisə, kənd və müxtəlif obyektlərin təməlinin qoyulması ilə bu yerlərə həyat qayıdır. Təkcə onu demək kifayətdir ki, İkinci Qarabağ müharibəsindən sonra 2024-cü ilin sonuna qədər Qarabağın bərpası üçün xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edir. Bu vəsaitin böyük hissəsi infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qayıdışı davam edir və hər ay, hər il onların sayı artmaqdadır.

Bu gün azad edilmiş ərazilərdə infrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu çəkilib. Dövlət başçısı bu il sentyabrın 23-də Milli Məclisdə çıxışı zamanı bildirdi ki, ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, - yəni, o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, - 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Prezident dedi ki, mədəni, tarixi irsimizin qorunması üçün də praktiki işlər görülür, tarixi abidələr bərpa edilir. Ermənilər tərəfindən dağılmış yeddi məscid yenidən qurulmuşdur. Səkkiz məscidin inşası davam edir. Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları yaradılır. Bu işlər üçün böyük məbləğdə maliyyə vəsaiti nəzərdə tutulur. Prezident qeyd etdi: “Əlbəttə ki, gələcək illərdə işlər daha sürətlə gedəcək... Mən onu da bildirməliyəm ki, bütün bu işləri biz öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən qardaş dövlətlər Özbəkistan və Qazaxıstan olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub. Bunu görüb və heç bir praktiki iş görməmək bir daha onu göstərir ki, bizə olan münasibət nəzərə alınmalıdır. Bu, bir daha bizə göstərməlidir ki, ancaq öz gücümüzə arxalanmalıyıq, öz potensialımıza güvənməliyik”.

Onu da qeyd etməliyik ki, Prezident İlham Əliyev tarixi Qələbəmizdən ötən 4 il ərzində bütün azad olunmuş ərazilərə səfərlər edib. Bu səfərlər zamanı orada inşası nəzərdə tutulan obyektlərin təməlqoyma mərasimlərində iştirak edib, eyni zamanda, sonralar görülmüş işlərin nəticəsi ilə maraqlanıb, tikintisi tamamlanmış yeni-yeni obyektlərin açılışlarını edib. Sonradan yerli və xarici jurnalistlər həmin rayonlarda olaraq, görülmüş işlər haqda reportajlar hazırlayıblar. Misal üçün, Azərbaycan mediasının “Prezidentin izi ilə” Ağdamdakı məşhur “İmarət kompleksi”ndə aparılmış bərpa-quruculuq işləri ilə bağlı hazırladıqları materiallar geniş ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb. İşğal dövründə xarici qonaqlar tərəfindən “Qarabağın Hirosiması” adlandırılmış Ağdamın dirçəlişi insanlarımızı sevincinə səbəb olub. Təbii ki, Prezidentin açılışını etdiyi Ağdam Sənaye Parkı, digər sənaye obyektləri, bu müəssisələrdə insanların işlə təmin olunması Qarabağa həyatın qayıdışından xəbər verir.

Beləcə, istər Ağdamda, istər Kəlbəcərdə, istərsə də erməni işğalından azad edilmiş digər rayonlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri bu gün də uğurla davam etdirilir. Qarabağ və Şərqi Zəngəzur hazırda böyük tikinti meydançasıdır – desək, səhv etmərik. Bu ərazilərdə, demək olar ki, hər gün yeni yaşayış evləri, infrastruktur və digər obyektlər istifadəyə verilir, eyni zamanda, mütəmadi olaraq yeni köç karvanları bu rayon və kəndlərə yol alır. Bütün bunlar isə, şübhəsiz ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpasından sonra azad edilmiş torpaqlarımızın ölkəmizin iqtisadiyyatına reinteqrasiyası, Azərbaycanın inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlərin açılması deməkdir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# “Saqqal” populizmi

## *Yaxud Paşinyanın bərbad reytinqi*

**Deyilənə görə, baş nazir Nikol Paşinyanın 2018-ci ildən bəri saxladığı saqqalını qırxması xüsusi anlam daşıyır. Nəzərə alaq ki, Ermənistanda hazırda gerçəkləşməkdə olan “kadr soyqırımı”nın miqyası genişlənir. Yəni, Nikol yeni idarəçilik üzünü göstərir. Bunu klassik deyimlə inqilabın öz övladlarını yeməsi kimi qiymətləndirmək mümkündür. Hərçənd, Paşinyanın təmizlənmiş sifəti alt qatdakı bir sıra eybəcərlikləri də üzə çıxarıb. Görünür, saqqal bu eyibləri örtürmüş.**

Ermənistandakı istefa dalğasında nazirlərdən sonra növbə deputatlara çatıb. Özü də hakim partiyanın deputatlarına. Onlardan birincisi Ermənistan Milli Assambleyasının səhiyyə məsələləri üzrə daimi komitəsinin sədri Narek Zeynalyandır. Zeynalyan öz təşəbbüsü ilə deputat mandatından imtina etdiyini bildirib. “Bu gün olduğu kimi, bilik və təcrübəmlə Ermənistana xidmətimə davam edəcəyəm”, - deyən deputat vurğulayıb ki, o, Paşinyanın rəhbəri olduğu “Vətəndaş sazişi”nin komanda üzvü kimi çətin sınaqların öhdəsindən gəlib: “Əminəm ki, həmkarlarım açıqladığımız dəyərləri qoruyub saxlamağa, Ermənistanın qarşısında duran bütün çətinlikləri şərəflə aradan qaldırmağa və arzularımızı reallığa çevirməyə davam edəcəklər”.

Ancaq hakim partiyanın digər deputatı Ovik Ağazaryanla bağlı məsələ Zeynalyanın bəyanatının yalnız populizmə söykəndiyini söyləməyə əsas verir. Məsələ ondadır ki, Ovik Korrupsiyaya qarşı mübarizə komitəsinə çağırılıb. Bu barədə məlumatı “ArmLur.am” saytı ölkənin baş prokurorluğundakı mənbələrinə istinadən yayıb. Məlumata görə, O.Ağazaryanın əleyhinə Aşotik Kamavosyan və Slavik Poqosyan adlı şəxslər ifadə veriblər. “Joxovurd” qəzeti isə məsələ ilə bağlı daha konkret məqamlara toxunub. Nəşr yazıb ki, O.Ağazaryan Ermənistandan Birləşmiş Ərəb Əmirliklərinə xırdabuynuzlu heyvanların maneəsiz ixracı üçün 300 min dollar məbləğində rüşvət istəyib. Daha dəqiq desək, rüşvət sözügedən məsələnin reallaşması üçün məhkəmə qərarının çıxarılmasına alınıb.

Əlbəttə, qeyd etdiklərimiz böyük istefa dalğasındakı kiçik fraqmentlərdir. Yəni, onların üzərində bir o qədər çox dayanmağa ehtiyac yoxdur. Çünki daha böyük məqamlar var. Hər halda, nazirlərin və deputatların birdən-birə kresloları ilə vidalaşmaları adi məsələ sayıla bilməz. Elə İrəvan mətbuat klubunun fəxri sədri, politoloq Boris Navasardyanın bildirdikləri də bunu söyləməyə əsas verir. Politoloq VERELQ informasiya-analitik portalına müsahibəsində Ermənistan hökumətindəki kütləvi istefaların səbəblərindən danışmaqla yanaşı, baş nazirin xarici görünüşündəki son dəyişikliklərin rəmzi mənalarına aydınlıq gətirib.

B.Navasardyan deyib ki, hazırda Ermənistanda yaşanan dəyişikliklər təkcə gələcək parlament seçkilərinə hazırlıqla bağlı deyil, həm də hakim partiyanın reytinqinin aşağı düşməsinə cavabdır, daha doğrusu, cavab vermək cəhdidir. Onun sözlərinə görə, Ermənistanda 2026-cı ildə keçirilməsi nəzərdə tutulan parlament seçkiləri təsəvvür ediləndən çoxqatlı prosesdir.

Birinci məqam budur ki, Ermənistan rəhbərliyindəkilər cəmiyyətin hüquq-mühafizə seqmentinin fəaliyyətindən narazı olduğunu dərk edirlər. Yəni, sadə vətəndaşlara, təxminən, belə bir mesaj verilir: Problemləri bilir və aradan qaldırırıq. Bu, seçicilərin etimadını qazanmaq istəyi, N. Paşinyanın narazılıqlara, bir növ, adekvat cavabıdır.

B.Navasardyan ikinci məqam kimi baş nazirin istefaya gedənlərin fəaliyyətinə verdiyi qiymət amili üzərində dayanıb. Politoloqun fikrincə, hökumət rəhbəri komandasında yer alan həmin şəxslərin daha çox azadlıq əldə etmələrindən ehtiyatlanıb. Habelə, ikincilərin durumdan özünəməxsus şəkildə yararlanmalarından: “Düşünürəm ki, o (Paşinyan – red.), gələcəkdə hüquq-mühafizə orqanlarına, xüsusən, gücə daha yaxşı nəzarət etməyə çalışacaq. Amma idarəetmə metoduna əsasən, Nikol Paşinyanın uğur qazanacağı ehtimalı azdır. O, yenidən güc strukturlarının praktiki rəhbərliyindən uzaqlaşacaq və daha çox ideoloji sahəyə keçəcək”.

Ekspert üçüncü məqam kimi hakim komandanın özündə ziddiyyətlərin, daxi-



li çəkişmələrin yaranmasından söz açıb. Onun sözlərinə görə, mövcud şərtlər qarşıdan gələn parlament seçkiləri öncəsi hakim “Vətəndaş sazişi” partiyası üçün son dərəcə əlverişsiz situasiya formalaşdırıb. N.Paşinyan isə durumu düzəltməyə, ölkə rəhbərliyinin daha çox konsolidasiyasını təmin etməyə çalışır. Belədə sual yaranır: Ermənistanda parlament seçkiləri 2026-cı ildə keçiriləcək, indidən ona fikuslanıb kadr islahatları aparmağın mənası nədir?

Suala cavab verən B.Navasardyan bildirib ki, Paşinyan saqqalını qırxdırmaqla, rəqiblərinə dəyişilmiş Nikolla mübarizə aparılacağının mesajını verir. Bu mesaj, eyni zamanda, cəmiyyətədir. Politoloq fikrini əsaslandırmaq üçün hakim partiyanın və bilavasitə baş nazirin reytinqinin aşağı düşməsi üzərində dayanaraq vurğulayıb ki, mövcud meyil davam edərsə, 2026-cı ilə qədər hakimiyyəti saxlamaq yolunda ciddi təhlükələr yarana bilər: “Ona görə də indi bu tendensiyanın hansısa formada dayandırılması və ya mümkünsə, geri çevrilməsi naminə ciddi tədbirlər görmək lazımdır”.

Qeyd edək ki, B.Navasardyan Ermənistanda növbədənkənar seçkilərin keçirilməsi məsələsindəki söz-söhbətlərə də münasibətini bildirib. O deyib ki, seçkilər problemlərin həlli deyil. Çünki prosesin hakim partiya üçün çox rahat keçəcəyi ehtimalı yoxdur. Ona görə də əsas məsələ reytinqi qaldırmaq və cəmiyyətin gözləntilərinin doğrulacağı görüntüsünü formalaşdırmaqdır. “Cəmiyyətə göstərilməlidir ki, hüquq-mühafizə orqanları daha ardıcıl, daha sərt davranırlar və insanların istədikləri kimi korrupsiyaya, quldurluğa görə cəzalandırılmalı olan hər kəsi, əvvəlki illərdəki kimi, bağışlamırlar. Ona görə hesab edirəm ki, Nikol Paşinyan yeni təyin olunanlardan müəyyən qətiyyətli addımlar gözləyəcək” – deyən politoloq yenidən saqqal məsələsi üzərinə gəlib. O, jurnalistin “dəyişikliklər cəmiyyətə nə kimi təsir edəcək” sualını cavablandırarkən vurğulayıb ki, Nikol siyasi texnoloqlara çox güvənir və təraş epizodunun ictimailəşməsi bundan xəbər verir: “Ancaq təklif olunan texnoloji üsulların nə dərəcədə işləyəcəyi böyük sual altındadır. Əmin deyiləm ki, Nikol Paşinyanın atdığı və atacağı addımlar əhali arasında populyarlıq, inam və dəstək problemlərinin həllinə kömək edəcək”.

***Ə.RÜSTƏMOV***
***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

**Məlum məsələdir ki, Azərbaycan son otuz ildə çoxsaylı beynəlxalq tədbirlərə evsahibliyi etmişdir. Təxminən iki ay əvvəl 30 illiyini qeyd etdiyimiz “Əsrin müqaviləsi”ndən iki həftə sonra – dekabrın 2-də 16 yaşını qeyd edəcəyimiz “Bakı prosesi”ndən bu yana, demək olar ki, hər il paytaxtımızda (son illər isə həm də işğaldan azad edilmiş ərazilərimizdə) bütün beynəlxalq təşkilatların ya özləri, ya da hansısa təsisatı möhtəşəm tədbir keçirib və sonda rəsmi Bakının evsahibliyi yüksək qiymətləndirilib.**

# Göytürklərin ənənəsini “Yaşıl enerji”lilər davam etdirirlər



Ancaq COP29 miqyasca çox ölkələrə əlçatmaz olan, məzmunca tamamilə fərqli, mahiyyətcə daha önəmli tədbir kimi dünya tarixinə yazıldı. Çünki burada iştirak edən və etməyən bütün ölkələrin ən birinci problemi müzakirə edilirdi. Yəni hamı qazanırdı. Burada bir məqamı xatırladaq. Belə ki, “iştirak etməyən ölkələr” ifadəsi bir az qeyri-real səsləndi. Çünki iştirak etməyənlər ancaq Fransa və Ermənistan oldu. Qalan bütün dövlətlər müxtəlif səviyyələrdə təmsil olundular və planetimizin nəbzinin normal şəkildə vurmasına hərə öz gücünə (büdcə və səlahiyyətinə) uyğun kömək etməyə çalışdı.

Etiraf edək ki, bu möhtəşəm tədbirdən daha çox qazanan Azərbaycan oldu. Çünki biz, həm digər ölkələrin hamısı kimi ekoloji problemlərin həllindən bəhrələnəcəyik, həm rəsmi Bakının aləmdəki nüfuzu, reytinqi heç zaman olmayan bir şəkildə artdı (yəni dövlət başçımız BMT Baş katibi ilə üz-üzə duraraq dedi ki, sizin otuz ildə həll edə bilmədiyiniz məlum qətnamələri cəmi otuz yaşı olan müstəqil Azərbaycan dövləti təkbaşına yoluna qoydu.), həm 44 günlük İkinci Qarabağ müharibəsindəki Zəfərimizin yaratdığı yeni reallıqları bütün dünyaya göstərə bildik, həm işğalçı ölkəyə himayədarlıq edən Fransanın tarixindəki qara ləkələrə və iyrənc siyasətinə qarşı BMT rəhbərliyinin gözü qarşısında açıq etiraz etdik, həm də Azərbaycanın Türk dünyası ilə əməkdaşlığının, iş birliyinin yeni üfüqləri açıldı.

Bu qeydləri qələmə almaqda əsas məsədimiz də məhz həmin sıralamadakı sonuncu məqamı daha çox qabartmaqdan ibarətdir. Məlum olduğu kimi, COP29 çərçivəsində keçirilən tədbirlərdən birində – noyabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub. Biz, əslində, bu dövlət başçılarının ikitərəfli, üçtərəfli və ya çoxtərəfli görüşlərinə dəfələrlə şahidlik etmişik. Noyabrın 13-də keçirilən görüşü daha əhəmiyyətli edən məqam isə həmin gün “Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması idi.

Dövlət başçımızın həmin gün dediyi kimi, Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə əldə edilmiş böyük planlar və nəticələr haqqında artıq hamı bilir. Yəni, ölkələrimiz paralel kursla gedirlər və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə bu üç ölkə arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır.

Azərbaycan Prezidenti xatırladı ki, bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik: “Xüsusilə sevindirici haldır ki, bu saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müddətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur”.

**Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və yaşıl enerji sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır.**

***Prezident İlham Əliyevin COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçılarının üçtərəfli görüşündəki çıxışından Bakı, 13 noyabr 2024-cü il***

Həm Azərbaycanın COP29 kimi böyük tədbirə uğurla evsahibliyi etməsindən, həm rəsmi Bakının Türk Dövlətləri Təşkilatındakı səmərəli fəaliyyətindən, həm də gündəlikdəki əsas məsələdən – yenicə imzalanmış sazişdən danışan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi ki, bu gün biz davamlı inkişaf üçün ümumi səylərimizin tarixində yeni səhifə açırıq. Strateji tərəfdaşlıq Sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir: “Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Qazaxıstan bu layihədə tranzit ərazi kimi burada son dərəcə mühüm rol oynayır. Bu sazişin praktiki nəticələri Orta dəhlizin iqtisadiyyatlarımızı birləşdirən yaşıl körpü qisimində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək”.

Daha maraqlı məqamlardan birini Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dilə gətirdi. Onun fikrincə, bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil. Bu, indiki insanların gələcəyə verdiyi töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissinin nəticəsidir: “Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və Günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, yaşıl enerjinin inkişafı üçün böyük proqram qəbul edilib”.

Özbəkistan Prezidenti xatırladı ki, onun ölkəsi 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 gigavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırır. Bundan başqa, cari ilin sonunadək özbəkistanlı mütəxəssislər əlavə olaraq 2,6 gigavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəklər.

Xatırladaq ki, həmin gün Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə daha bir tarixi sənəd də imzalanmışdı. Həmin sənədin isə başqa bir tərəfdaşı da var idi. Bu, Səudiyyə Ərəbistanının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Al-Səud idi. İmzalanan növbəti sənədin məzmunu da birbaşa COP29-un prinsiplərini əhatə edirdi: “Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında icra proqramı”.

Yeri gəlmişkən, Azərbaycanın Energetika naziri Pərviz Şahbazov COP29 çərçivəsində təşkil olunmuş Mərkəzi Asiyada Enerji keçidi üzrə İnvestisiya Forumunda çıxış edərkən ölkələrimiz arasında imzalanmış sazişi strateji tərəfdaşlığın təzahürü adlandırmışdır: “Bu saziş regionda “yaşıl enerji” dəhlizinin yaradılması, inteqrasiya olunmuş elektrik enerjisi bazarlarının inkişafı və bərpa olunan enerjinin digər regionlara ixracının asanlaşdırılması üçün güclü təməl yaradır. Milli enerji şirkətlərinin səhmdarlarının razılaşması, birgə müəssisənin yaradılması bu layihənin uğurla həyata keçirilməsi üçün mühüm mərhələlər olacaq”.

Sonda xatırladaq ki, Türkistanda və Cənubi Qafqaz ərazisində uzun illər boyu mövcud olmuş Göytürklər dövlətinin bugünkü varisləri məhz bu möhtəşəm əməkdaşlıq nümunəsi ortaya qoyurlar. İnanırıq ki, bu format Türkdilli Dövlətlər Təşkilatının daha da qüdrətlənməsinə zəmin yaradacaqdır.

Yeni əməkdaşlıq çərçivəsini əlamətdar edən məqamlardan biri də Türkistan və Cənubi Qafqaz regionları arasındakı işbirliyinə Yaxın Şərq təmsilçisinin – Səudiyyə Ərəbistanının da qoşulması idi. Elə dövlət başçımız da üçtərəfli görüşdə həmin məsələyə xüsusi olaraq toxunmuşdu: “Bu gün burada iştirak edən əziz dostumuz, Səudiyyə Ərəbistanının nazirinə və Səudiyyə Ərəbistanından olan bütün dostlarımıza minnətdarlığımı ifadə edirəm. Dünən haqqında danışdığım “ACWA Power” şirkəti bizim yaxşı tərəfdaşımız, investorumuzdur və həm Azərbaycanda, həm də Mərkəzi Asiyada fəaliyyət göstərir”.

***İttifaq MİRZƏBƏYLİ***

# Fransanın Azərbaycandan şikayəti

**(əvvəli 1-ci səhifədə)**



Deməli, L.Abdullayevanın Fransanın Avropa və Xarici İşlər Nazirliyinə çağırılmasının səbəbi Bakıda keçirilmiş COP29 çərçivəsində bu ölkəyə ünvanlanmış “qəbuledilməz bəyanatlar”dır. Nazirlik açıqlamasında bir qədər də irəli gedərək “avropalılar” ifadəsini işlədib. Guya, COP29-da “Köhnə dünya”nın sakinlərinə qarşı hörmətsizlik olub. Sən demə, buna görə Fransanın yaşıl keçid, enerji və iqlim naziri Agnes Pannier-Runacher COP29-da iştirakını ləğv etmək məcburiyyətində qalıb.

Göründüyü kimi, Fransanın xarici siyasət idarəsi aşkar təxribatla məşğuldur. Axı COP29-da Avropanın sadə vətəndaşlarına toxunan heç bir fikir işlədilməyib. Görəsən, bunu kim uydurub? Qəti fikir bildirmək çətindir. Ancaq aydındır ki, qurumun yaydığı press-relizdə məhz “avropalılar” ifadəsinin işlədilməsi çox qəribədir. Görünür, nazirlik məsələni böyütmək, öz davranışına, belə demək mümkünsə, müqəddəslik obrazı qazandırmaq istəyir. Guya, Fransa, bütövlükdə, qitə sakinlərinin təəssübünü çəkirmiş.

Fransanın Avropanın ictimai rəyində anti-Azərbaycan ovqatı yaratmağa çalışdığı göz önündədir. Təbii ki, ölkə yarımaz fəaliyyəti ilə bütövlükdə “Köhnə dünya”nın nüfuzuna kölgə salır. Çünki düşüncələrdə formalaşmış baxışa görə Fransa dedikdə Avropa yada düşür. Amma rəsmi Parisi məsələ qətiyyən maraqlandırmır. Prezident Emmanuel Makron administrasiyası hansısa təfsilatı düşünməyəcək qədər rəzil və miskin durumdadır. Makron və komandasının üzvləri üçün yalnız öz ambisiyalarını düşünmək amalı var. Onlar daxili idarəçilikdəki səriştəsizliklərini xarici müstəvidə “aktivlik” göstərməklə malalamaq fikrindədirlər. Hədəfləri isə Azərbaycandır.

Qeyd edək ki, COP29-da Fransa əleyhinə işlədilmiş fikirlər tam əsaslıdır, ən başlıcası mövzuya uyğundur. Çünki ölkənin müstəmləkəçilik siyasəti nəticəsində ətraf mühitə ciddi ziyan gəlir və bu amil başəriyyəti düşündürməlidir. Özü də son dərəcə ciddi şəkildə. Belə fikirlər toplantıya qatılmış fransız rəsmilərin xoşuna gəlməyibsə, heç gəlməsin. Onların deməyə sözləri olmadığından, aradan çıxıblar. Arqumentləri var idisə, buyurub deyərdilər, fikirlərini bildirər, ittihamların əksini sübuta yetirərdilər. Şübhəsiz, bunu bacarmazdılar, çünki ortada reallıq var. Reallıq isə budur ki, Fransa neokolonializmi nəinki insanların həyatını dözülməz hala salır, eyni zamanda, ekologiyaya da sağalmaz yaralar vurur.

Səfirimizin Fransanın Avropa və Xarici İşlər Nazirliyinə çağırılması, eyni zamanda, ona görə həyasızlıqdır ki, ölkədən Azərbaycana qarşı ünvanlanmış hədyanların ard-arası kəsilmir. Fransız rəsmilər, senatorlar, rəsmi Parisə bağlı ekspert və mütəxəssislər, politoloqlar, həmçinin media orqanlarının təmsilçiləri əllərinə düşən hər fürsətdə bizi hədəfə alır, Ermənistana dəstək üçün hər cür “metodlardan” yararlanırlar. Azərbaycan bu sayaq hallara münasibətdə təmkinlə yanaşdığı halda, Makron administrasiyası qəzəbə köklənib.

Əslində, Fransa hakimiyyətini narahat edən daha böyük məqam var. Məsələ ondadır ki, COP29 fransız neokolonializminin ifşası platforması oldu. Bütün dünya tədbirin sayəsində ölkənin ətraf mühitə və ekologiyaya mənfi təsir göstərən hərəkətləri, ümumən, mövzuya dair faktlarla tanış oldu. Məsələn, noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammiti keçirildi. Sammitdə çıxış edən Prezident İlham Əliyev bildirdi: “1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın “dəniz əraziləri”ndə törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır”.

BMT-nin Baş katibi Antonio Quterreş isə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq dedi: “Siz – kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya Milli səviyyədə müəyyən olunmuş töhfələr sənədini təqdim edəcək”.

Bəli, qətiyyətlə bildirmək olar ki, diqqətə çatdırdığımız fikirlər, o cümlədən, COP29 çərçivəsində səslənmiş bir sıra başqa təşəbbüslər Fransanı təşvişə salıb. Ölkə özünün müstəmləkə siyasətinin iflasa uğrayacağından əndişələnməyə başlayıb və öz aləmində qabaqlayıcı tədbirlər görməyə girişib. Ən faciəli durum isə rəsmi Parisin COP29 çərçivəsində səslənmiş obyektiv fikirləri və faktları qiymətləndirib nəticə çıxarmaq istəməməsi, məsələni sırf düşmənçilik kimi qiymətləndirməsidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin press-relizində beləcə də yazılıb: “Azərbaycanın düşmənçilik hərəkətləri dayandırılmalıdır”.

Göründüyü kimi, Fransanın xarici siyasətə cavabdeh olan dövlət qurumunun, ümumən rəsmi Parisin baxış bucağı çox dardır. Ölkənin idarəçilik industriyası özünü hər şeydə düşmənçilik görməyə kökləyib. Çünki yanaşma və təfəkkür tərzlərində problem var. Problem eyni zamanda, ondadır ki, Fransanın Azərbaycana münasibəti düşmənçilik üzərində qurulub. Qatı ermənipərəstliyin timsalında nahaqqı haqdan üstün tutmağın başqa adı yoxdur.

Bəli, Fransanın Azərbaycandan şikayətlənməsi gülüncdür. Həm də o səbəbdən ki, ölkə layiq olduğu münasibəti görür. Yeri gəlmişkən, əvvəldə haqqında danışdığımız söyüş tirajlayan qəzet fəaliyyətini tez bir zamanda dayandırmışdır. Görünür, qolu zorluların nəşri yeni söyüşlərə “qonaq etmələrindən” qorxmuşdu. Yaxşı olar ki, rəsmi Paris də Azərbaycana qarşı hədyanlarına son qoysun, öz keçmişindəki ləkəni təmizləməyə çalışsın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

COP29 Baku Azerbaijan | COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 | COP29 Baku Azerbaijan

# Liderin quruculuq kursu

**II MƏQALƏ**

**Lider öz ölkəsini güclə deyil, nümunə olmaqla irəli aparır.**

**Mə SZEDUN**

## Siyasi lider və liderliyin növləri

Dövlət quruculuğunun dinamik proses olması və buna uyğun şəkildə liderliyin də dinamikliyi qəbul edilir. Yeni liderlikdə dinamik dəyişmələrin təbii və zəruri şərt olduğu mübahisə doğurmur. Müstəqil dövlətin uğurlu lideri olmaq məsələsi də bu baxımdan xüsusi politoloji təhlil tələb edir. Nəzəri və praktiki təcrübə göstərir ki, bu məsələ ilk baxışdan sadə görünsə də, praktiki fəaliyyətdə kifayət qədər mürəkkəb fenomen təsiri bağışlayır. O cümlədən, dövlət identikliyi kontekstində uğurlu liderlik asan dərk edilən məsələ deyildir.

Biz birinci məqalədə dövlət identikliyində varisliyin əhəmiyyətini təhlil etməyə çalışdıq. Dövlət identikliyində varisliyi uzun müddət təmin etməyin digər mühüm tərəfi yaradıcı (kreativ) liderliklə bağlıdır. Çünki lider daima konkret situasiyada (liderliyin situativlik təlimi) dəyişən şərtlər daxilində transformasiya etməsi (liderliyin transformasiya təlimi) və bu zaman əhəmiyyətli olan dəyərlərin diqqətə alınması (liderliyin dəyərlər təlimi), sosioloji, psixoloji, kulturoloji, kommunikativ, informasion, ideoloji, gender və s. faktorların qarşılıqlı əlaqəsinin nəzərdə saxlanması kimi mürəkkəb funksiyanı yerinə yetirməlidir. Bu da özlüyündə liderin yüksək yaradıcılıq, kreativlik qabiliyyətinə malik olmasını tələb edir.

Jan Blondelin siyasi lider tərifini xatırlasaq, orada mühüm bir özəlliyin yer aldığını görərik. Lider cəmiyyətin fərdlərini hərəkətə gətirməli, onları fəallaşdırmalıdır. Bu ümumi məqam kfayət qədər yüksək yaradıcı yanaşma tələb edir. Çünki indi bütün miqyaslarda vəziyyət sürətlə dəyişir və meydana əvvəllər müşahidə edilməyən şərtlər çıxır.

Bundan başqa, politoloji və fəlsəfi tədqiqatlar siyasi liderlikdə bir xüsusiyyəti ortaya qoyur. Liderlər fəaliyyətlərinə, şəxsi keyfiyyətlərinə, psixoloji özəlliklərinə, dəyərlərə münasibətlərinə və digər faktorlara görə müxtəlif kateqoriyalara, liderlik tipinə bölünürlər. Onlara qısa nəzər salaq.

M.Veber liderləri ənənəvi, rasional-leqal və xarizmatik kateqoriyalara bölür.

R.Taker siyasi şüurun özəlliyi əsasında islahatçı-lider, inqilabçı-lider və mühafizəkar-liderdən bəhs edir. İslahatçı-lider cəmiyyətin quruluşunu əhəmiyyətli dərəcədə dəyişməyi məqsəd kimi seçəndir. İnqilabçı-lider başqa ictimai sistemə keçməyi hədəfləyəndir. Mühafizəkar-lider cəmiyyəti olduğu kimi saxlamağa çalışandır.

M.Hermannın təsnifinə görə, liderlər "bayraqdar", "xidmətçi", "ticarətçi" və "yanğınsöndürən" kateqoriyalarına bölünürlər. "Bayraqdar" cəmiyyətin siyasi sistemini dəyişməyə can atır. "Xidmətçi" tərəfdarlarının iradəsinə xidmət edir. "Ticarətçi" özünün ideyalarını kütləyə məharətlə təqdim edir və onları həmin ideyalara yiyələnməyə sövq edir. "Yanğınsöndürən" ən aktual və vacib olan məsələlərin təcili həllinə istiqamətlənir.



Liderliyin digər təsnifatları da mövcuddur. Məsələn, dəyərlər nəzəriyyəsində liderlərin yetişdirilməsi məsələsinə də baxılır (K.Hockinson, İ.Adzies).

Ancaq yanaşmaların çoxluğu və təsnifatların fərqliliyi onu göstərir ki, uğurlu liderlik, göründüyü kimi, sadə vəzifə deyildir. Burada bir-biri ilə kəsişən xeyli elementlər vardır. Buna görə də universal uğurlu lider kateqoriyası mövcud deyildir. Məsələyə ancaq konkret tarixi dönəmdə bir ölkədə mövcud olan vəziyyət kontekstində baxmaq lazım gəlir. Hər bir özəl nümunədə xüsusi liderlik kateqoriyasına rast gəlinə bilər. Yəni indi politologiyada və hətta, fəlsəfədə mövcud olan liderlik növlərindən fərqli və ya onların kombinasiyası olaraq uğurlu lider nümunəsi yarana bilər. İlham Əliyevin liderliyinə məhz bu kontekstdə yanaşmaq daha uyğun görünür.

## Varislik və yaradıcılıq

Siyasi varis kimi İlham Əliyev Ulu öndərin bütün baza prinsiplərini saxladı. Burada azərbaycançılıq məfkurəsi aparıcı yer tutur. Siyasi anlamda azərbaycançı olmaq hər bir məsələdə Azərbaycan dövlətinin maraqlarına üstünlük verməyi tələb edir. Maraqlı və əhəmiyyətlidir ki, azərbaycançılığı İlham Əliyev liderliyin bütün aspektlərinə tətbiq edərək faktiki olaraq onun anlamını genişləndirmişdir. Burada müstəqil dövlət quruculuğu, enerji strategiyası, cəmiyyət quruculuğu, təhlükəsizlik və dövlət identikliyinin qlobal miqyasda qəbulu aspektləri konkret sinxronluq təşkil etmişdir.

Müstəqil dövlət quruculuğu davamlı olaraq dəyişən regional və qlobal geosiyasi proseslərin fonunda mərhələli şəkildə inkişaf etdirilmişdir. 2003-cü ildən bu yana onun ilk mərhələsini Azərbaycanın enerji strategiyası çərçivəsində milli təhlükəsizliyin regional və regionlararası miqyasda təminatı təşkil edir. Bu proses, heç şübhəsiz ki, idarəetmə institutlarının səmərəliliyinin artırılması, daxili təhlükəsizliyin tam təmini, sosial-iqtisadi siyasətin düşünülmüş inkişaf prioritetlərinin müəyyən edilməsi, ordu quruculuğu və bütövlükdə müdafiə qüdrətinin yüksəldilməsi kimi vacib faktorları özündə cəmləməlidir.

Sosial-iqtisadi inkişafın prioritetlərinin strateji perspektivi kontekstində müəyyən edilməsinin burada aparıcı rol oynadığını anlamamız gərəkdir. Bununla bağlı hazırlanmış sənəddə həmin prioritetlər dəqiqliklə müəyyən edilmişdir. Onlar aşağıdakılardır:

– Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

– dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;

– rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;

– işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;

– təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bunlar 2030-cu ilədək Sosial-iqtisadi inkişafın Milli Prioritetləridirlər. Bundan başqa, ayrıca 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafın əsas istiqamətləri və onları həyata keçirəcək təşkilatlar müəyyən edilmişdir. Bununla faktiki olaraq strateji inkişaf iki vacib mərhələyə bölünmüşdür.

Aydındır ki, XXI əsrdə liderliyin əsas xüsusiyyətlərindən biri strateji məqsədi dəqiq müəyyən etməkdən ibarətdir. İlham Əliyev dövlət başçısı və lider kimi strateji sənədlərdə bunu nümayiş etdirmişdir. Azərbaycan Respublikasının strateji inkişaf proqramlarında dəqiq vəzifələrin ifadə olunması qarşıya qoyulan məqsədin aydın olduğunu göstərir. Təbii ki, belə bir nəticə liderdən yaradıcı yanaşma tələb edir.

Strateji inkişafa aid sənədlərdən görünür ki, dövlət quruculuğu enerji strategiyası, cəmiyyət quruculuğu, təhlükəsizlik və dövlət identikliyi ilə vəhdətdə inkişaf etdirilir. Məsələn, "yaşıl artım" ölkəsi olmaq mütləq surətdə enerji strategiyasında yeni mərhələyə keçidi nəzərdə tutmalıdır. Hazırda "yaşıl artım" ölkəsi olmaq dünyanın hər bir dövlətinin strateji hədəflərindən birincisidir.

Faktlara baxa bilərik. ABŞ və Avropa İttifaqı (Aİ) inkişafın məhz bu aspektini ön sıraya çıxarmışlar. Ayrıca, Aİ son inkişaf və yeniləşmə sənədlərində "yaşıl iqtisadiyyat" və "yaşıl ölkə" anlayışlarını daha çox qabardırlar. Aydın görünür ki, bütün dünya üçün "yaşıl enerji" alternativsiz perspektivi olan enerji növü kimi qəbul edilmişdir.

## COP29 nümunəsi

Bu baxımdan Bakıda COP29-un keçirilməsinin tarixi bir hadisə olduğunu da anlamamız lazımdır. Sözün həqiqi mənasında, bu hadisə yeni liderliyə yaradıcı yanaşmanın parlaq nümunəsidir. Məsələ ondan ibarətdir ki, dünyanın çox sayda dövləti BMT-nin proqramı olan COP29-da aktual qlobal məsələləri, o cümlədən, "yaşıl enerji" məsələsini müzakirə edirlər.

Prezident İlham Əliyev şəxsi fəaliyyəti ilə bu haqqı qazanmışdır. Nümunə olaraq Azərbaycanın geniş əhatədə Qərblə "yaşıl enerji" sferasında əməkdaşlıq qura bilməsini göstərə bilərik. COP29-u postsovet məkanında başqa bir dövlətə verə bilməzdilər. Çünki onların heç biri "yaşıl ölkə" strateji məqsədini bugünün reallıqları çərçivəsində Azərbaycan səviyyəsində sistemli olaraq həyata keçirilən proqramlara malik deyil. Azərbaycan isə liderinin sayəsində həm indi enerji siyasətini növbəti mərhələdə inkişaf etdirir, həm də özünün, regionun, regionlararası məkanda yerləşən bir sıra dövlətlərin "yaşıl ölkə" ola bilməsi üçün dəqiq vəzifələr müəyyən etmişdir.

COP29 digər məqamlarla yanaşı, bu kontekstdə də Azərbaycan və region üçün tarixi olaydır. Qoşulmama Hərəkatındakı yaradıcı fəaliyyəti ilə yanaşı, İlham Əliyev növbəti dəfə BMT səviyyəsində COP29 proqramı ilə əlaqədar aktiv fəaliyyət göstərərək, yeni liderliyin mühüm cəhətlərini nümayiş etdirmişdir. Sirr deyil ki, Azərbaycan Prezidentinin bu təşəbbüsünü bəziləri ciddi qəbul etmədi, bir başqaları ona qısqanclıqla yanaşdı, digərləri mane olmağa çalışdı. Ancaq onların hamısı noyabrın 11-də bir həqiqəti gördülər və bəlkə də təəccübləndilər – Bakı COP29 kimi geniş tərkibli və çoxlu sayda liderin iştirak etdiyi nəhəng tədbirə tam hazırdır!

Bir zamanlar Azərbaycanı tanımayanlar və tanımaq istəməyənlər indi onun paytaxtı Bakıda aktual ekoloji məsələləri müzakirə edir və şəhərin gözəlliklərindən zövq alırlar. Yəni İlham Əliyev lider kimi həm qlobal miqyasda aktual olan məsələləri Bakıda müzakirə etməyin faydalılığını sübut edir, həm də Azərbaycanın sivil, açıq və dinamik inkişaf edən bir dövlət olduğunu göstərir. Liderlikdə, bu, çox ciddi uğurdur.

Bizə görə, həmin məqam, bütövlükdə yeni liderliyin çox mühüm bir komponentini də ifadə edir. O, liderin ən kritik situasiyada belə varisliklə kreativliyin qarşılıqlı əlaqəsində düzgün strateji qərarlar qəbul etməsidir!

Beləliklə, düzgün strateji qərar qəbul etmə qabiliyyəti yeni liderliyin əsas kriteriyalarından biri kimi təsəvvür edilməlidir. Liderlik haqqındakı təlimlərdə qərar qəbul etmə başlıca keyfiyyətlərdən biri olaraq qiymətləndirilir. Bunun səbəbi kimi müasir dünyanın sürətlə dəyişən və mürəkkəb xarakterli proseslərlə fərqləndiyini göstərirlər.

Ancaq məhz belə bir şəraitdə liderin düzgün və çevik qərar qəbul edə bilməsi yüksək zəka, qətiyyət, inam, əzmkarlıq və situasiyanı tam görə bilmək keyfiyyətlərini tələb edir. Buna görə də müasir siyasi nəzəriyyədə liderin inkişaf etmiş intellektə, siyasi situasiyanı hiss və təhlil etmək bacarığına, xarizmaya, nüfuza, məsuliyyətə, aydın siyasi proqrama və başqa keyfiyyətlərə malik olmasını önə çəkirlər.

Bütün bunlar XXI əsrdə liderin qurucu olmasının geniş anlama və məzmuna malik olduğunu göstərir. Quruculuq, faktiki olaraq, yeni politoloji məna alır və onu izah etməyə ehtiyac yaranır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ağdamın aydın səmalı günləri

**Son illər paytaxt Bakıda, eləcə də regionlarda əhalinin keyfiyyətli içməli su ilə təminatı, suvarma sistemlərinin təkmilləşdirilməsi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Ağdam rayonunda da su təsərrüfatının normal fəaliyyətinin təmin edilməsi, rayon ərazisində suya qənaət mühitinin formalaşdırılması xüsusilə diqqətdə saxlanılır.**

Bu günlərdə Quzanlı qəsəbəsinə səfərimiz zamanı Ağdamda sakinlərin içməli su ilə təminatı və iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən rayonun suvarma sahəsindəki vəziyyətlə maraqlandıq. İlk olaraq Ağdam Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin qızğın iş gedən təmir sexi ilə tanış olduq. Burada çalışan mütəxəssislər subartezian quyularının motorlarının və digər avadanlıqlarının təmiri ilə məşğul idilər.

İdarənin rəisi Hafiz Əzimzadədən öyrəndik ki, rəhbərlik etdiyi qurum 36 min 10 hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarılması ilə yanaşı, 82 min 334 nəfər rayon sakinini içməli və məişət suyu ilə təmin edir.

Bu işlərin görülməsi idarənin balansında olan 999 subartezian quyusu, 11 kəhriz, 4 suyığıcı göl, 4 nasos stansiyası, 365 kilometr uzunluğunda suvarma kanalları və 236 hidrotexniki qurğu vasitəsilə həyata keçirilir.

Cari ilin ilk 3 rübündə subartezian quyuları və kəhrizlər vasitəsilə yerin təkindən 240 milyon 312 min kubmetr su çıxarılıb və 128 min 504 hektar sahə orta hesabla 3,6 dəfə suvarılıb.



**H.Əzimzadə təmir edilən və yeni qazılan quyular barədə də məlumat verdi:**

– Bildiyiniz kimi, Ağdam rayonunda təbii su mənbələri yoxdur, təminat ancaq subartezian quyuları və nasos stansiyaları vasitəsilə həyata keçirilir. Yəni su mexaniki üsulla çıxarılır. Ona görə də, quyuların daimi olaraq işlək vəziyyətdə saxlanılması əsas məqsədimizdir. Bu baxımdan fəaliyyətimizi elə qururuq ki, hər hansı problem yaranmasın.

Tədbirlər planına uyğun olaraq bu il ərzində 16 ədəd istismar müddəti keçmiş subartezian quyularında təmir və qazma işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Onlardan Quzanlı qəsəbəsində, Ergi, Xındırıstan, Eyvazlı, Qərvənd kəndlərində yerləşən 6 ədəd quyu artıq qazılıb, digərləri isə ilin sonunadək istismara tam hazır olacaq.

Bu da 1000 hektardan artıq əlavə əkin sahəsinin suvarılmasına imkan verəcək, həmçinin rayon əhalisinin içməli su təminatını daha da yaxşılaşdırılacaq.

Yeni artezian quyularının qazılması da hər zaman dövlətimizin diqqətindədir. Belə ki, Azərbaycan Prezidentinin Ağdamda 29 ədəd yeni artezian quyusunun qazılması ilə bağlı müvafiq sərəncamlarının icrası tərəfimizdən davam etdirilir. Artıq 7 ədəd quyu qazılaraq istifadəyə verilib, yerləri müəyyənləşdirilmiş daha 22 quyunun qazılması isə növbəti illərdə reallaşdırılacaq.

**İdarə rəisi rayon ərazisində sudan səmərəli istifadənin hər zaman diqqətdə saxlanıldığını, bunun üçün əhali arasında mütəmadi olaraq maarifləndirici söhbətlərin aparıldığını da bildirdi:**

– Təəssüf ki, hər il suyun yerin təkindən çıxarılması səviyyəsi daha da artır. Yəni, məsələn, 20 il əvvəl 40-50 metr dərinlikdən çıxan suyu indi 70-80 metr dərinlikdən çıxarırıq. Bəzi yerlərdə bu göstərici daha da çoxdur.

Fürsətdən istifadə edib Qərvənd kəndində artezian quyusunda aparılan təmirlə və Quzanlı qəsəbəsindəki yeni quyu ilə də tanış olduq. Quyuların yaxınlığında yaşayan sakinlər onların suyla təminatlarının yaxşılaşdırılması məqsədilə görülən işlərdən razılıq etdilər, dövlət başçısının hər zaman ağdamlılara diqqət və qayğı ilə yanaşdığını bildirdilər. Onu da öyrəndik ki, Quzanlıdakı həmin yeni quyu Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun xüsusi təşəbbüsü ilə qazılaraq istifadəyə verilib. Quyunun "qonşuluğunda" yaşayan Sənan Sarıyevin həyətinə baş çəkdik, borudan axan gur su ilə əl-üzümüzü yuduq. Ev sahibi həyətindəki yaşıllığın, bol meyvəli iri ağacların bu suyun hesabına var olduğunu, artezianın işə düşməsindən sonra sudan korluq çəkmədiklərini dedi.

Ağdamın inkişafını, ağdamlıların su kimi aydın günlərini görmək insanda qürur hissi yaradır. Beləcə, Quzanlıdan xoş təəssüratlarla, Ağdamın işğaldan azad edilmiş ərazilərində də həyatın gündən-günə canlanacağına, öz yurdlarına dönən ağdamlıların bərəkətli torpaqları əkib-becərəcəyinə, Qarabağın və Şərqi Zəngəzurun digər yaşayış məntəqələrində olduğu kimi, orada da su infrastrukturunun yenidən, özü də ən müasir formada yenidən qurulması prosesinin tezliklə tam yekunlaşacağına olan hədsiz inamla ayrıldıq. Təbii ki, yenidən qayıtmaq arzusu ilə...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***



COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Şərəfli missiya

## Yeni Azərbaycan Partiyasının yaradılmasından 32 il keçir

**Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin olduqca ağır və təlatümlü mərhələsində, xalqın və ölkənin ciddi sınaqlarla üzləşdiyi məqamda Vətənin milli aydınlarının, görkəmli ziyalılarının təşəbbüsü ilə yarandı. Çağdaş tariximizə "91-lər"in müraciəti kimi düşmüş həmin sənəd, əslində, özündə bütün xalqın istək və arzularının ifadə edirdi. Həmin müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi təşkilata, millətə qurtuluş yolunu göstərəcək partiyaya rəhbərlik etmək xahiş olunurdu. Ondan sonra baş verənlər və arxada qoyduğumuz 32 il xalqın öz liderinə inamında və güvəncində yanılmadığını sübut etdi.**



Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimovla söhbətimizin mövzusu həm partiyanın növbəti ildönümü ilə bağlı keçilən yola qısa nəzər salmaq, həm də uğurlu perspektivin reallaşması yolları barədə oldu.

**– Eldar müəllim, Yeni Azərbaycan Partiyası 32 il bundan əvvəl yaradıldı. Siz "91-lər"dən biri kimi həmin prosesin iştirakçısı və canlı şahidisiniz. Təşəbbüsün rüşeymi harada qoyulmuşdu, onun ideya müəllifləri kimlər idi?**

– Belə bir partiyanın yaranmasına ehtiyac vardı. O vaxt Azərbaycan üçün də, Naxçıvan üçün də çox ağır dövr idi. Yaxşı xatırlayıram, 1992-ci il mayın 18-də Bakıda öz iradəmlə, ürəyimin hökmü ilə Heydər Əliyevin Azərbaycan prezidentliyinə namizədliyini irəli sürdüm. Parlamentdə Ziyad Səmədzadənin kabinetindən Naxçıvana zəng vurub Heydər Əliyevin fikrini öyrənmək istədik. Amma çox təəssüflər olsun ki, hansısa səbəbdən, bu, baş tutmadı. Hətta məni verdiyim təklifi geri götürməyə məcbur etmək istəyirdilər. Dedim xeyir, kişi dediyi sözünü geri götürməz. Yaş senzini bəhanə gətirirdilər.

Həmin gərginlikdən sonra Naxçıvana qayıtdım və Heydər Əliyevlə görüşdüm. Hər ikimiz Naxçıvan Ali Məclisinin deputatları idik, yaxın və səmimi münasibətlərimiz vardı. Ona xalqın acınacaqlı vəziyyətindən, hakimiyyətdəkilərin başıpozuqluğundan, özbaşınalıqlarından danışdım. Cavabında mənə dedi ki, bir qədər gözləmək lazımdır, zaman hər şeyi yerinə qoyacaq. Vəziyyəti belə görəndə mən Heydər Əliyevə partiya yaratmağı təklif etdim. Seçkiyə getmək, xalqın inamını doğrultmaqdan ötrü partiyaya ehtiyac var dedim...

Beləliklə, siyasi təşkilatlanmaya hazırlıq prosesi başlandı. Murtuz Ələsgərov, Fərəməz Maqsudov Naxçıvana gəlirdilər və onlarla görüşlərimizdə partiya yaratmağın zəruriliyindən danışırdıq. Oktyabrın 16-da "91-lər"in müraciəti mətbuatda dərc olundu. Ondan sonra nələr baş verdi? Oktyabrın 24-də Naxçıvana qayıdanda gördüm ki, Bakıdan göndərilən hökumət emissarları Daxili İşlər Nazirliyini, televiziyanı, başqa idarələri tutublar. Belə gərgin məqamda Heydər Əliyevin cəsarətinin, qorxmazlığının şahidi oldum. Bakı ilə elə tonda danışdı ki... O, sakitliyi və qanunçuluğu xalqın ona olan sevgisi hesabına bərpa elədi. Sonradan partiya təsis etmək təşəbbüsünə qoşulanların sayı təsadüfən 91 alındı. O günlərdə Heydər Əliyev "91-lər"in müraciətinə cavab hazırladı. Vədə yetişdi və biz Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirmək qərarına gəldik. Heydər Əliyev istəyirdi ki, konfransda Azərbaycanın bütün bölgələri təmsil olunsun. Elə də oldu. 1992-ci il noyabrın 21-də Bakıdan, Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş 550-yə yaxın nümayəndənin iştirakı ilə YAP-ın təməlini qoyduq. Heydər Əliyevdən başqa Azərbaycanda bu partiyaya rəhbərlik etməyə qadir, yetkin siyasətçi yox idi. YAP-ın Naxçıvan Muxtar Respublikası üzrə sədri kimi partiyamızın yerli təşkilatlarının yaradılması ilə məşğul olurdum və qısa müddətdə prosesi başa çatdırdıq.

**– Etiraf edək ki, artıq SSRİ dağılsa da, Moskva Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıtmasına qarşı idi. Bu zaman söhbət təkcə diplomatik yox, həm də fiziki təzyiqlərdən gedirdi. Və Kremlin bu "velikorus şovinizminə" söykənən siyasətinə daxildə dəstək verənlər də az deyildi. Siz bu təzyiqləri üzərinizdə hiss edirdinizmi?**

– Bəli, bunu daim hiss edirdik. Birincisi, SSRİ DTK-sının sonuncu şefi Kryuçkov tez-tez zəng vurur və maraqlanırdı. Harada olduğunu, nə iş gördüyünü, səhhətini soruşurdu. Sanki Heydər Əliyevi güdürdülər. Hətta konfransdan sonra çöldəki adamlarımızdan xəbər gəldi ki, hələlik Heydər Əliyev binadan bayıra çıxmasın. Eyni hadisə Bakıda mənim də başıma gəlmişdi. Məlum təklifi irəli sürəndən sonra real təhlükə ilə üzləşmişdim. Rəhmətlik Kamran Rəhimov (Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi (1975–1983) vəzifəsində işləyib – red.) məni qoruyurdu. O, məni parlamentin binasının arxa qapısından çıxardı, yaşıl "Moskviç"ində "İnturist"ə apardı. Doğrudan da, bizi öldürə bilərdilər. Allahın lütfü üstümüzdə imiş... Ondan sonra bir qədər ehtiyatlı davranmağa başladım.

**– Əslində, YAP, belə demək mümkünsə, o zaman Azərbaycanda hakimiyyətdə olan AXC–Müsavat cütlüyünə qarşı müxalif partiya kimi yaradıldı. Bu fikirlə razısınızmı?**

– Heydər Əliyev deyirdi ki, bizim partiyamızın hakimiyyətə qarşı çıxmaq, radikal addımlar atmaq kimi bir missiyası yoxdur. Yeni Azərbaycan Partiyasının özünün siyasi xətti var. Biz müxalifətçilik etmirdik. Amma xalq kimin kim olduğunu görürdü axı. Yəni, camaat başa düşdü ki, artıq Heydər Əliyevin arxasında YAP kimi böyük qüvvə dayanır. Gəncədə 4 İyun hadisələrindən sonra insanlar ayağa qalxdılar. Məlum olduğu kimi, o vaxtki hakimiyyət özü Heydər Əliyevə müraciət etdi, arxasınca təyyarə göndərdi. Ulu öndərin Bakıya gəlişinin, onun Gəncə səfərinin, apardığı danışıqların təfsilatını hamı bilir. Yadınızdadır, Heydər Əliyev Gəncə hadisələri ilə bağlı Milli Məclisdə çıxış etdi və jurnalistlərlə birgə Gəncəyə gedəcəyini bildirdi. Onda mən Cəlal müəllimin evində idim. (Ulu öndərin qardaşı, akademik Cəlal Əliyev nəzərdə tutulur – red.) Gəncəyə səfərində onu müşayiət etməyimi istədiyimi bildirəndə dedi ki, yox, sən gəlmə, burada qal. Sanki, məni qoruyurdu...

**– 1993-cü ildə Heydər Əliyevin Prezident seçilməsi, 1995-ci ildə parlament seçkilərində qalib gəlməsi ilə YAP iqtidar partiyasına çevrildi. Artıq 32 ildir partiyanız hakimiyyətdədir. Bu dövrün 25 ili Qarabağın işğal altında olduğu və səmərəsiz sülh danışıqlarına təsadüf edir. Sizin fikrinizcə, Qarabağ məsələsində iqtidar partiyası üçün 25 ilin ən kritik anı hansı idi?**

– Xalq özü yaxşı bilirdi ki, Qarabağ problemi daxil olmaqla, üzləşdiyi çətinliklərin öhdəsindən kim gələ bilər. Heydər Əliyevin Prezident seçilməsi Azərbaycan xalqının arzu və istəyinin reallaşması idi. Hamı bilirdi ki, məhz təcrübəli dövlət xadimi olan Heydər Əliyev ölkəni bürümüş böhrandan, anarxiyadan, dövlətçiliyi itirmək təhlükəsindən, vətəndaş qarşıdurmasından xilas edə və cəbhədə baş verən uğursuzluqların qarşısını ala bilər.

Xalq öz müdrik oğluna inanır və onu dəstəkləyirdi. Bütün dünya, o cümlədən ermənilər də Heydər Əliyevi çox yaxşı tanıyırdılar. Hələ Ter-Petrosyan Ermənistanın rəhbəri olarkən Zəngilandan müharibədə övladları ermənilər tərəfindən əsir götürülmüş yaşlı valideynlər Heydər Əliyevin yanına xahişə gəlmişdilər. Götürüb telefonu birbaşa Ter-Petrosyanla danışdı və nəticədə Ermənistan rəhbəri həmin uşaqları azad elədi. Bu hadisə geniş rezonans doğurdu və partiyamızın liderinin siyasi nüfuzunun, beynəlxalq miqyasda çəkisinin göstəricisi idi.

Onu demək istəyirəm ki, Ümummilli liderin uzaqgörənliyi və siyasi qətiyyəti sayəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və xalqın üzləşdiyi çətinlikləri həll etməyin yollarını aramağa başladı. Heydər Əliyevin Gəncə səfərindən sonra baş verənlərə qısa nəzər salmaq istərdim. Tariximizə Qurtuluş Günü kimi düşən iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Üstündən bir il keçməmiş müharibədə atəşkəsə nail oldu, 1994-cü il sentyabrın 20-də isə "Əsrin müqaviləsi" imzalandı. Ümummilli lider 2020, 2023-cü illərdəki tarixi uğurları sanki 1994-cü ildə görürdü və bu barədə deyirdi: "Sizi əmin edirəm ki, biz qüdrətli Azərbaycan dövləti yaradacağıq. O dövləti ki, xalqımızın bütün problemlərini həll edə bilsin. Mən buna inanıram".

**– Ermənistanla müharibədə atəşkəsə nail olunması, Azərbaycan üçün, bəlkə də, ölüm-qalım məsələsi sayılacaq "Əsrin müqaviləsi"nin imzalanması, yeni Konstitusiyanın qəbulu. Bu hadisələrin hər birini xalqın və dövlətin həyatında dönüş nöqtəsi hesab etmək olar...**

– Tamamilə haqlısınız. Açıq demək lazımdır ki, o vaxta qədər dünya Azərbaycanı tanımırdı. Heydər Əliyevin adı, nüfuzu, onun şəxsiyyətinə verilən dəyər sayəsində 13 xarici dövləti təmsil edən transmilli şirkətlər konsorsium yaratdılar və Xəzərdə neftin birgə hasilatı üzrə Azərbaycanla müqavilə bağladılar. Etiraf etməliyik ki, Qarabağ probleminin həllində bu amilin də müəyyən qədər rolu vardır.

Bəli, bəlkə də Qarabağ münaqişəsinin ən kritik, həlledici məqamlarından biri Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistanın o zamankı rəhbəri Robert Koçaryanla Sədərəkdə görüşü oldu. Doğrudur, mən o görüşün iştirakçısı olmamışam, amma hər şeydən xəbərim vardı. Naxçıvanda partiyamızın lideri ilə tez-tez görüşür və dərdləşirdik. Komsomolun yetirməsi, Bakıda "partşkolada" oxumuş Koçaryan Heydər Əliyevin kim olduğunu çox gözəl bilirdi. Məgər Ulu öndərin qarşısında kimsə söz danışa bilərdi, o ki ola Koçaryan kimilər. Təbii ki, həmin görüşdə, o, özünü dikbaş, saymazyana aparmışdı, amma sonra bunun bədəlini artıqlaması ilə ödəməli oldu. Onunla müqayisədə Ter-Petrosyan daha praqmatik siyasətçi idi. Erməni də olsa, o, qarşısında dahi şəxsiyyətin, böyük siyasətçinin durduğunu anlayırdı.

Heydər Əliyev həm də lider kimi Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində yorulmadan çalışırdı. Sonrakı dövrlərdə YAP-ın xarici əlaqələri artdı, Çinin, Rusiyanın, ərəb ölkələrinin aparıcı partiyaları ilə yaxından əməkdaşlıq mərhələsi başladı. Türkiyədə hakimiyyətə gəlmiş AKP (Ədalət və İnkişaf Partiyası -red.) ilə çox yaxın münasibətlər quruldu. Bütün bu prosesləri şərtləndirən əsas cəhət Azərbaycanda dövlət quruculuğunun möhkəmlənməsi idi. 1995-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi bu yolda atılmış ən vacib addımlardan biri sayılır. Orada Naxçıvan dövləti ifadəsi yazılıb. Bunun da səbəbi var. Çünki muxtar respublika ilə bağlı məsələlər Qars müqaviləsinin şərtlərinin gündəmə gətirilməsi ilə aktuallaşdı. 1921-ci il oktyabrın 13-də 5 dövlətin imzaladığı Qars müavələsində Türkiyənin Naxçıvanın təhlükəsizliyinə təminatı məsələsi öz əksini tapıb. Heydər Əliyev 1993-cü ildə Prezident Süleyman Dəmirəlin dəvətilə Türkiyəyə rəsmi səfərində həmin müqavilənin məlum bəndlərini yenidən xatırlatdı və o tarixi missiyanı Ankaranın boynuna qoydu.

Sizə maraqlı bir detalı danışmaq istəyirəm. Türkiyə səfərindən sonra Heydər Əliyev dedi ki, bundan sonra üzümüzü Türkiyəyə tutmalıyıq... Sədərəkdən Türkiyəyə "Ümid körpüsü"nün salınması məhz YAP-ın və Ümummilli liderin xidməti idi. Yəni, o, bu yolla Naxçıvanı Türkiyə ilə birləşdirdi. "Bir milət, iki dövlət" tezisi məhz onun strateji fəhminin, uzaqgörənliyinin, millətinə sevgisinin təzahürü oldu. İki qardaşı birləşdirən həmin "Ümid körpüsü"nün açılışına Süleyman Dəmirəl gəlmişdi və qırmızı lenti ikisi kəsdi.

**– 2024-cü ilin may ayına olan məlumata əsasən, Yeni Azərbaycan Partiyasının 730 mindən çox üzvü var... Üzvlərin sosial tərkibi və bu sayda gənclərin çəkisi barədə məlumatınız oxucularımız üçün maraqlı olardı.**

– YAP-ın yaranmasına təşkilati işlərin gedişində Heydər Əliyev gənclərə üstünlük verirdi. Əlbəttə, başladığımız işi, missiyanı gənclər davam etdirməlidir. Ulu öndərə bütün sosial təbəqələrin, o cümlədən yaşlı, orta nəsil və gənclərin rəğbəti böyükdür. İstər YAP-ın strukturlarında, istərsə də dövlət qurumlarında gənclərin və qadınların çəkisinin artırılması strateji məqsədlərdən biri hesab olunur. 2005-ci ilin mart ayında YAP-ın III qurultayında İlham Əliyev partiyanın sədri seçildi. Çünki Heydər Əliyevin siyasi əmanəti olan partiyanın sədrliyinə ən layiqli namizəd məhz Ulu öndərin layiqli ardıcılı, zəngin irsinin davamçısı məhz İlham Əliyevdir. Həmin dövrdən etibarən gənc kadrların irəli çəkilməsi iqtidar partiyası kimi YAP-ın daha böyük uğurlar əldə etməsinin zəmini oldu. Partiyamız Heydər Əliyevin başlatdığı dövlətçilik və azərbaycançılıq missiyasını fədakarlıqla davam etdirir. Əsası Ulu öndər tərəfindən qoyulmuş milli inkişaf strategiyası indi daha geniş miqyas alıb.

Bu gün Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyev Ulu öndərin yol xəritəsini çəkdiyi siyasi kursu uğurla davam etdirir. Heydər Əliyevin rəhbərliyi ilə qurulan YAP-ın 32 illik inkişaf tarixi onu göstərir ki, bu partiyanın təməlini qoyanlar müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar.

* * *

Söhbət əsnasında Eldar müəllim belə bir söz dedi: "Heydər Əliyev özündən sonra 3 böyük miras qoyub. Bunlardan birinci müstəqlik Azərbaycan dövləti, ikincisi İlham Əliyev cənabları, üçüncüsü isə Yeni Azərbaycan Partiyasıdır. Son üç onillikdə Azərbaycan siyasi palitrasının monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyini şərtləndirən daha bir amil onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır".

Bu, zamanın tələbi ilə xalqın arzusunun üst-üstə düşdüyü nadir tarixi məqamlardan biri hesab oluna bilər. 32 il bundan əvvəl Azərbaycan xalqının və dövlətinin qarşısında duran taleyüklü məsələləri həll etmək, o zaman mümkünsüz görünən bir missiyanın altına çiyin vermək cəsarət nümunəsi sayılırdı. Bu, həm də müqəddəs amallar uğrunda şərəfli bir misiyanın YAP tərəfindən icrası demək idi. Hazırda bu şərəfli missiyanı atanın bütün vəsiyyətlərini yerinə yetirmiş, iqtidar partiyasının sədri və dövlətin başçısı İlham Əliyev uğurla davam etdirir.

*Söhbəti qələmə aldı:*
***İmran BƏDİRXANLI***
***XQ***

**Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.**

**Ümummilli lider Heydər Əliyevin 1992-ci il oktyabrın 16-da "91-lər"in müraciətinə cavabından.**



**Azərbaycanın görkəmli nümayəndələri, ölkənin gələcəyini düşünən insanlar nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirildi. Konfransda ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edib və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.**

**Prezident İlham Əliyevin 2022-ci il noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdəki çıxışından.**

**1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək, Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək. Belə də oldu.**

**Prezident İlham Əliyevin 2022-ci il noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdəki çıxışından.**

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# YAP Azərbaycan cəmiyyətinin aparıcı qüvvəsidir

## *Partiyanın təməli 32 il əvvəl Naxçıvanda qoyulub*

**Dünən YAP Naxçıvan Şəhər Təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 32-ci ildönümü münasibətilə “Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətinin aparıcı qüvvəsidir” mövzusunda konfrans keçirilib.**





Məclisdə əvvəlcə Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib, Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli “Yeni Azərbaycan Partiyası – Milli Qurtuluşdan tarixi Zəfərə” mövzusunda çıxış edərək bildirib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin edilməsi naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən konstruktiv müxalifət partiyası kimi yaradılıb.

Natiq daha sonra qeyd edib ki, Azərbaycan xalqı 1993-cü ilin iyununda – ölkə “olum və ya ölüm” dilemması qarşısında qaldıqda özünün taleyini dahi şəxsiyyət Heydər Əliyevə həvalə edi. Ulu öndər xilaskarlıq missiyasını uğurla yerinə yetirdi, ölkəmizi, xalqımızı Milli Qurtuluş yoluna çıxartdı. 1995-ci ilin parlament seçkiləri nəticəsində partiya xalqın böyük dəstəyini qazanaraq müstəqil dövlətçiliyin əsas təminatçısı olan siyasi qüvvəyə – iqtidar partiyasına çevrildi.

Toplantıda qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin liderliyi ilə son 21 ildə ölkəmizdə böyük uğurlar qazanılıb. Ölkəmiz mühüm nəqliyyat qovşağına, qlobal enerji təchizatçısına çevrilib. Dövlətimizin müdafiə qüdrəti xeyli artıb, Silahlı Qüvvələrimiz ən müasir hərbi texnika və silahlarla təchiz edilib. Nəticədə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında şanlı Azərbaycan Ordusu dövlətçiliyimizin çoxəsrlik tarixində misilsiz nailiyyət əldə edərək cəmi 44 gün ərzində 30 illik işğala son qoyaraq ölkənin ərazi bütövlüyünü bərpa edib.

Ötən il sentyabrın 19–20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə dövlət suverenliyimiz tam bərpa olunub. Hazırda tarixi Qarabağ torpaqlarında geniş quruculuq işləri görülür, soydaşlarımız Böyük Qayıdış proqramı ilə öz əzəli yurdlarına geri dönürlər. Vurğulanıb ki, Prezident cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində ölkəmizin nüfuzu beynəlxalq səviyyədə xeyli güclənib. Azərbaycan etibarlı dost, tərəfdaş kimi mühüm təşkilatlarda təmsil olunur, bütün platformalarda öz sözünü çəkinmədən, qətiyyətlə deyir. Ölkəmizin artan nüfuzunun nəticəsidir ki, hazırda Bakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına uğurla evsahibliyi edir.

Diqqətə çatdırılıb ki, ölkəmizdə əldə olunan inkişaf proseslərində YAP Naxçıvan Şəhər Təşkilatının üzvləri də yaxından iştirak edirlər. Hazırda 165 ərazi partiya təşkilatını əhatə etməklə 18 min 647 nəfər üzvü olan təşkilatın sıralarında 10 min 344 qadın, 6 min 488 gənc təmsil olunur.

Konfransda Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova “Yeni Azərbaycan Partiyasının tarixi inkişaf edən Azərbaycanın tarixidir”, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov “Yeni Azərbaycan Partiyası və milli təhsilin inkişafı” mövzularında çıxış ediblər. Çıxışlarda Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycan dövlətçiliyi tarixində oynadığı müstəsna roldan danışılıb, reallaşdırılan uğurlu milli quruculuq siyasətindən, təhsilin müasirləşdirilməsi, inkişafı istiqamətində atılan addımlardan bəhs olunub.

Sonra “Yeni Azərbaycan Partiyası-32” mövzusunda film nümayiş olunub, partiyanın himni səsləndirilib.

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin Naxçıvan müxbiri**

# İrəvan talançılığına görə cavab verməlidir!

**(əvvəli 1-ci səhifədə)**

Cənab İlham Əliyev müxtəlif beynəlxalq təşkilatların zirvə görüşlərində Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, ermənilərin işğalçılıq siyasətinin ifşa olunmasında böyük xidmətlər göstərmişdir. Prezident Davos İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı, Valday Diskussiya Klubu və digər beynəlxalq və regional miqyaslı tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən pozulduğunu və bununla barışmayacağımızı iştirakçıların diqqətinə çatdırmışdır. Dövlətimizin başçısı ölkəmizin həmişə sülh tərəfdarı olduğunu, ancaq torpaqlarımızın sülh yolu ilə qaytarılmayacağı təqdirdə müharibə yolunu da istisna etmədiyini dəfələrlə vurğulamışdır. Ancaq Ermənistana 20 il ərzində (1998-2018) rəhbərlik edən nə Qarabağ klanı, nə də 2018-ci ildə “məxməri inqilab” yolu ilə hakimiyyətə gəldiyini iddia edən Nikol Paşinyan iqtidarı bu xəbərdarlıqdan lazımı nəticə çıxarmadılar. Paşinyanın daha qızışdırıcı bəyanatlar verməsi, necə deyərlər, yanan ocağa benzin tökməsi hər kəsə məlum olduğundan bu barədə geniş bəhs etməyə ehtiyac duymuruq. Sadəcə olaraq, qeyd etməyi vacib sayırıq ki, məhz onun təxribatçı addımları İkinci Qarabağ müharibəsinin baş verməsində həlledici rol oynadı...






Dörd ildir ki, Azərbaycan torpaqları azadlığına qovuşub, ötən ilin sentyabrında dövlət suverenliyimiz tam bərpa olunub. Hazırda Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış, viranə qoyulmuş yaşayış məntəqələri sıfırdan inşa olunur. Bu proses külli miqdarda maliyyə tələb edir. Maliyyə naziri Samir Şərifov bu il sentyabrın 27-də jurnalistlərə açıqlamasında bildirib ki, 2020-ci ildən başlayaraq, 2024-cü il də daxil olmaqla, dövlət büdcəsindən işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq məqsədləri üçün 17,5 milyard manata yaxın vəsait ayrılıb. Onun sözlərinə görə, 2025-ci ildə 4 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulur. Bu, 2025-ci ilin dövlət büdcəsi xərclərinin 10,1 faizi deməkdir.

Aydındır ki, Azərbaycanı bu xərci çəkməyə vadar edən işğalçı Ermənistandır. Hayastan zəhmət çəkib, həmin xərcləri təzminat şəklində ödəməlidir. Bu mənada Azərbaycanın beynəlxalq məhkəmələrə müraciət etməsi tamamilə doğru və qanunidir. İrəvan hər bir sahə üzrə ölkəmizə vurduğu ziyanın əvəzini qarşılamalıdır.

Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilib ki, bu iddia sənədi 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana arbitraj haqqında bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj Məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş 2024-cü il yanvarın 12-də keçirilib. Qeyd edilib ki, Ermənistan beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 30 ilə yaxın davam edən qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib.

Ermənistanın beynəlxalq hüquq normalarını pozma halları arasında xüsusilə, onun onilliklər ərzində Azərbaycanın bərpa olunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini göstərmək olar. Bura əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng su anbarında yerləşən Tərtər Su Elektrik Stansiyası, İranla sərhəddə, işğalda olmuş Cəbrayıl rayonunda yerləşən “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpa edilən enerji mənbələri, habelə digər resurslar daxildir.

Ermənistan tərəfi qanunsuz işğal dövründə Tərtər Su Elektrik Stansiyasını istismar edən qurumları lisenziyalaşdırıb və tənzimləyib, bu enerji mənbəyini qanunsuz olaraq öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın “Xudafərin” və “Qız Qalası” layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və Azərbaycanın bərpa olunan enerji sektorunun inkişafına əngəl törədib.

XİN bildirib ki, Azərbaycan, öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin Ermənistan tərəfindən qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətinə davam edəcəkdir.

Onu da bildirək ki, Prezident İlham Əliyev hələ 2021-ci il fevralın 26-da yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında da bu məsələyə toxunmuşdu. Prezident qeyd etmişdi ki, azad edilmiş torpaqlarda bizim qızıl mədənlərimiz vəhşicəsinə istismar edilirdi. Bu, beynəlxalq cinayətdir və artıq bu cinayəti törətmiş bəzi qurumların məsuliyyətə cəlb edilməsi üçün ilkin hazırlıq işləri aparılıb: “Mən bu məsələ ilə bağlı bir-iki dəfə öz sözümü demişəm, bir də demək istəyirəm ki, ya bu şirkətlər bizə təzminat ödəyəcəklər, kompensasiya verəcəklər, ya da məhkəməyə gedəcəklər. Məhkəməyə getdikləri təqdirdə həm tam əminəm ki, məhkəmədə uduzacaqlar, eyni zamanda, dünya miqyasında biabır olacaqlar. Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır və bu şirkətlərin beynəlxalq reputasiyasına da çox ciddi ziyan dəyəcək”.

Dövlətimizin başçısı bildirmişdi ki, bununla paralel olaraq, bizim meşə fondumuz da məhv edilib. 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb. İşğala qədər meşələrimizin ümumi həcmi haradasa 220-230 min hektar idi. Bunun 54 min hektarı kəsilib, dağıdılıb: “Onlar ondan müxtəlif məhsullar istehsal ediblər, bildiyim qədərilə, orada parket biznesi də çox geniş vüsət almışdır, xarici şirkətlər də burada iştirak ediblər. Yəni, bütün dəymiş ziyan hesablanacaq. O cümlədən bizim torpaqlarımızdan qanunsuz şəkildə istifadə edən şirkətlər də cərimələnəcək. Azad edilmiş torpaqlarda ancaq taxıl altında 100 min hektara yaxın torpaq var idi, qanunsuz istismar edirdilər və gəlirlər götürürdülər. Onu da hesablayacağıq. Bu, işin bir tərəfi. İndi nə dərəcədə beynəlxalq məhkəmələrdə reaksiya veriləcək, bu, işin ikinci məsələsidir. Burada əlbəttə ki, əsas məsələ obyektivlikdir. Əgər obyektiv yanaşma olsa, əlbəttə ki, onlar bu təzminatı ödəməli olacaqlar”.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **politoloq İlyas Hüseynov** bildirdi ki, Vətən müharibəsindən sonra Azərbaycan beynəlxalq məhkəmələrdə iddialarını genişləndirir və 30 illik işğal dövründə ölkəmizə müxtəlif sahələrdə vurulmuş ziyanın ödənilməsi üçün, belə deyək, hərəkat başladılıb. Bu, çox təqdirəlayiq addımdır. Çünki işğal dövründə ölkəmizin enerji resursları da istismar olunub və Ermənistana ötürülüb: “Xüsusilə vurğulamaq lazımdır ki, Tərtər Su Elektrik Stansiyası istismar olunb. “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyalarının layihə sahələrinə daxil olmağımıza isə təbii ki, imkan verilməyib. Bu ərazidə ölkəmizin həm təbii ehtiyatları, həm də bərpa olunan enerji layihələri Ermənistan və onun Azərbaycan torpaqlarında yaratdığı keçmiş separatçı xunta rejimi tərəfindən mənimsənilib. Düşünürəm ki, Azərbaycanın bununla əlaqədar Daimi Arbitraj Məhkəməsinə Ermənistanla bağlı iddia sənədi təqdim etməsi nəticəsini verəcəkdir”.

Politoloq qeyd etdi ki, digər tərəfdən Ermənistan növbəti cinayətləri həm də cəzasızlıq mühitində törətmiş, ekosid, urbisid, kultursid həyata keçirmişdir. Nəticədə bir tərəfdən ekologiyaya ziyan vurulmuş, digər tərəfdən təbii qaynaqlar istismar edilmişdir. Hazırda törədilən bütün cinayətlərin sorğulanması həyata keçirilməkdədir: “Fikrimcə, bu məhkəmə çəkişmələrinin müsbət nəticəsi olacaq. Bundan öncə də Azərbaycan tərəfi Haaqada yerləşən BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyasının tələblərinin pozulması, diskriminasiya ilə bağlı iddialar qaldırılmışdır. Həmin



işdə separatçı rejimin qeyri-qanuni fəaliyyəti ilə bağlı xüsusi müddəalar var idi”.

Müsahibimiz onu da bildirdi ki, hazırda qaldırılan iddia isə dünyada mövcud olan əsas çağırışlarla uyğunluq təşkil edir. Xüsusilə, bu iddianın Azərbaycanda BMT-nin himayəsi altında İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un keçirildiyi günlərdə qaldırılması rəmzi xarakter daşıyır. Çünki Azərbaycan dünyada biomüxtəlifliyin, ekologiyanın qorunması, su ehtiyatlarına əlçatanlığın təmin olunması və yaşıl enerjiyə keçid istiqamətində qlobal təşəbbüslər irəli sürür. Eyni zamanda, dayanıqlı inkişaf haqqında da düşünür. Məhz erməni işğalı Azərbaycanın dayanıqlı inkişafını ləngitmiş, buna məhdudiyyətlər qoymuşdur. Bu çərçivədə Azərbaycan hökumətinin Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Daimi Arbitraj Məhkəməsinə Ermənistana qarşı əsas iddia sənədini təqdim etməsi dünya ölkələri tərəfindən də müdafiə edilməlidir.

***Səxavət HƏMİD***
***XQ***

# “Kaşalata” – Bakıda ilk inklüziv kafe





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıda əlilliyi olan gənclərin də çalışdığı ilk və yeganə inklüziv iaşə obyekti olan “Kaşalata” kafeni ziyarət edib.**

Leyla Əliyevanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, kafenin həmtəsisçiləri Natavan Məmmədova və Aytən Eynalova qarşılayıblar.

Heydər Əliyev Fondunun vitse-prezidentinə əlilliyi olan şəxslərin inklüziv mühitdə məşğulluğuna dəstək məqsədilə yaradılan bu inklüziv kafenin fəaliyyəti barədə məlumat verilib. Qeyd olunub ki, Bakının Ü.Hacıbəyli küçəsi, 57 ünvanında yerləşən “Kaşalata” kafe “Birgə və Sağlam” İB-nin təşəbbüsü ilə təsis edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, KOBİA, SOCAR, “Pasha Holding” və “Trendyol Azərbaycan”ın dəstəyi ilə yaradılan “Kaşalata” kafedə məşğulluğu təmin edilən 20 nəfər gəncdən 10 nəfəri əlilliyi olan şəxslərdir.

Leyla Əliyeva kafedə yaradılmış şərait və iş mühiti ilə tanış olub, burada məşğulluğu təmin edilmiş əlilliyi olan gənclərlə görüşərək onlarla söhbət edib.

Autizmli gənclərdən ibarət “Mavi Ürəklər” xor və ritm qrupu tərəfindən “Sən ey uşaqlıq” mahnısı ifa olunub. Autizmli şəxslər Leyla Əliyevaya hazırladıqları əl işlərini hədiyyə ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti “Kaşalata” inklüziv kafesinin əməkdaşları ilə xatirə fotoları çəkdirib.



# Həssas qrupların COP29-a yaradıcılıq töhfəsi



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən COP29-un Yaşıl Zonasındakı “Art Pavillion”da təqdim edilən sərgi ilə tanış olublar.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Mərkəzdə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi üçün aparılan işlər barədə məlumat verib.

Bildirilib ki, sərgidə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və “DOST Evi” filialının həssas əhali qruplarına aid benefisiarları və təlimçilərinin 50-dən çox əl işi nümayiş etdirilir.

Əl işləri sırasında yaşıl dünyaya, ətraf mühitin mühafizəsinin, təbiəti qorumağın vacibliyinə həsr olunmuş sənət nümunələri də yer alıb.

Leyla Əliyeva və Arzu Əliyeva Mərkəzin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin əlilliyi olan şəxslərdən ibarət benefisiarlarının ifasında təqdim edilən konsert proqramını da izləyiblər.

Müslüm Müslümzadə, Səbinə Əsgərova, Xaliq Şərifov, Səməd Novruzov, Nurlan Əhmədov, Fərid Abdullayev tərəfindən Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ifa olunub.

Təqdim edilən sərgi və konsert proqramı böyük maraqla qarşılanıb.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları ilə görüşərək onlarla söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

# İstiləşmə və aqrar sektorda innovativ yanaşmalar

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin təşəbbüsü ilə COP29-un Yaşıl Zonasında “İqlim dəyişikliyinə dayanıqlı aqrar sektor üçün innovativ yanaşmalar və birgə əməkdaşlığın rolu” mövzusunda tədbir keçirilib. Toplantıda Aqrar Kredit və İnkişaf Agentliyinin rəhbər şəxsləri, fermerlər, banklar da daxil olmaqla özəl sektorun, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.**



Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, COP29 çərçivəsində Qida, Kənd Təsərrüfatı və Su Günündə keçirilən tədbirdən məqsəd aqrar sahənin inkişafı üzrə müəyyən edilən strateji prioritetlərin – dayanıqlı kənd təsərrüfatının təşviqi, fermerlərin maliyyə resurslarına çıxışının artırılması və beynəlxalq tərəfdaşlığın daha da gücləndirilməsi istiqamətində iqlimlə bağlı tədbirlərə töhfə vermək, bu istiqamətdə fermerlərə daha çox məlumat çatdırmaq olub.

Aqrar Kredit və İnkişaf Agentliyinin şöbə müdiri Rəşad Fəttahov dövlət dəstəyi mexanizmləri və onların təsirinin artırılması yolları mövzusunda çıxış edib. O, təmsil etdiyi qurum tərəfindən qəbul edilən yeni dəyişikliklərlə bağlı ətraflı məlumat verib, daha sonra dövlət dəstəkləri və ən son dəyişikliklərin fermerlər üçün yaratdığı imkanlardan danışıb.

İqlim dəyişiklikləri dövründə dayanıqlı kənd təsərrüfatı üçün innovativ texnologiyalardan istifadənin artırılmasının əhəmiyyəti mövzusunda çıxış edən “Beta Azərbaycan” MMC-nin regional müdiri Ahmet Arslan risklərin idarə olunması və məhsuldarlığın artırılmasına dair praktiki nümunələr təqdim edib, iştirakçılara, xüsusən də fermerlərə dayanıqlı təsərrüfat yaratmağın yolları barədə faydalı məlumatlar çatdırıb.

Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Mehman İsmayılov kənd təsərrüfatının maliyyələşdirilməsində bankların və digər kredit təşkilatlarının rolu mövzusunda çıxış edərək dövlət – özəl tərəfdaşlığının dayanıqlı kənd təsərrüfatının əsaslarından biri olduğunu deyib. O, tədbir iştirakçılarına Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemindən alınan məlumatlarla fermerlərin maliyyə tarixçəsinin vizual təqdimatını nümayiş etdirib.

Qurumun sədr müavini kənd təsərrüfatının subsidiyalaşdırılması üzrə təqdimat keçirib, iştirakçılara Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində formalaşan dataların subsidiya siyasətinin formalaşmasına təsiri barədə məlumat verib. O formalaşan dataların dövlət dəstəyi mexanizmlərinin səmərəlilik göstəricilərini ölçməyə, vəsaitin daha optimal yönləndirilməsinə imkan verdiyini diqqətə çatdırıb.

Daha sonra agentliyin layihə və proqramlar şöbəsinin müdiri Fərid Əmirov çıxış edərək iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirini azaltmaq məqsədli beynəlxalq təşkilatlar və donorlarla əməkdaşlığın artırılması istiqamətləri mövzusunda təqdimat edib. İqlim dəyişikliyinin qlobal təsirlərinə qarşı daha geniş əməkdaşlığın vacibliyini vurğulayan şöbə müdiri deyib ki, bu mənada beynəlxalq layihələrin və dövlət proqramlarının kənd təsərrüfatına olan müsbət təsiri nəzərə alınaraq xüsusilə qadın və gənc fermerlər üçün həyata keçirilən layihələr mühüm əhəmiyyət daşıyır.

Tədbir iştirakçıları xüsusi maraq doğuran digər mövzular ətrafında da geniş fikir mübadiləsi aparıblar.

**Almaniyanın enerji şirkətləri Azərbaycanın bərpaolunan enerji layihələrində əməkdaşlığa dəvət edilib. Energetika Nazirliyinin məlumatına görə, bu barədə nazir Pərviz Şahbazov COP29 çərçivəsində Almaniya Sənaye Federasiyasının təşkilatçılığı və bu ölkənin vitse-kansler, iqtisadiyyat və iqlim mühafizəsi naziri Robert Habekin iştirakı ilə keçirilən tədbirdə çıxışı zamanı bildirilib.**

# Alman şirkətləri ölkəmizin “yaşıl” layihələrinə dəvət alıb



Energetika naziri bildirib ki, COP29 Sədrliyi ədalətli iqlim nəticələri əldə etmək məqsədilə yeni iqlim maliyyəsi, Milli Müəyyən Edilmiş Töhfələr, Milli Uyğunlaşma Planları və İkiillik Şəffaflıq Hesabatları kimi mühüm məsələlərdə konstruktiv fəaliyyət və təşəbbüslər göstərir. Bakıda əldə ediləcək yekun razılaşmanın post-Paris dövrünü başlatmaq üçün tarixi fürsət olduğunu vurğulayan P. Şahbazov ölkəmizin “yaşıl” enerji təşəbbüslərini qlobal enerji keçidinə töhfə vermək baxımından əhəmiyyətli addım kimi qiymətləndirib. Nazirin sözlərinə görə, məqsəd bərpaolunan enerjinin payını enerji balansında 2030-cu ilə qədər 35,5 faizə, 2035-ci ilə qədər isə minimum 40 faizə çatdırmaqdır.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə hazırda Avropanı və Asiyanı birləşdirən “yaşıl enerji dəhliz”ləri layihələri həyata keçirilir. Nazirin sözlərinə görə, Xəzər dənizinin 157 qiqavat külək enerjisi və Mərkəzi Asiyanın “yaşıl” enerji potensialına əsaslanan “Xəzər – Qara dəniz – Avropa,” “Azərbaycan – Türkiyə – Avropa” və “Mərkəzi Asiya – Azərbaycan” yaşıl enerji dəhlizləri Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Gürcüstan, Rumıniya və Macarıstanın enerji şəbəkələrini birləşdirəcək: “Bu layihələr Almaniya və Avropa şirkətləri üçün unikal əməkdaşlıq imkanları təklif edir. Alman şirkətləri enerji sektorunda liderdir və xüsusilə külək enerjisi sahəsində bizim üçün vacib tərəfdaş ola bilərlər. Əlavə olaraq “yaşıl” hidrogenin istehsalı və onun Almaniya və digər Avropa ölkələrinə ixracı sahəsində əməkdaşlıq imkanları mövcuddur. Biz Almaniya şirkətlərini bütün bu imkanları dəyərləndirməyə dəvət edirik. Bu tərəfdaşlıqlar Avropanın enerji təhlükəsizliyini gücləndirmək və yeni bazarlar açmaq baxımından da faydalı olacaq”.

Xatırladaq ki, tədbirdən əvvəl energetika naziri Pərviz Şahbazov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, iqtisadiyyat və iqlim mühafizəsi naziri Robert Habekin iştirakı ilə görüş keçirilib. Söhbət zamanı təbii qaz tədarükü, bərpaolunan enerji sahəsində əməkdaşlıq və alman şirkətlərinin iştirakına dair müzakirələr aparılıb, Xəzər dənizində külək enerjisinin böyük potensialından istifadə, “yaşıl” hidrogen istehsalı və onun Avropa bazarlarına ixracı, həmçinin “yaşıl” enerji dəhlizləri infrastrukturlarının inkişafı istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

# Metanla mübarizə genişlənir

**Hazırda iqlim dəyişikliyi sayəsində dayanıqlılığı təmin etməklə xüsusilə də metan qazının yayılmasının qarşısının alınması istiqamətində bütün imkanlardan istifadə etmək zəruridir. Bu fikir COP29 Prezidentliyinin dünən keçirdiyi mətbuat konfransında səsləndirilib. COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, əvvəllər keçirilmiş iqlim sammitlərində bu istiqamətdə müəyyən nəticələr əldə olunub.**



Onun sözlərinə görə, hazırda Azərbaycan da daxil olmaqla, 160 ölkə bu zərərli qazın yayılmasının qarşısının alınması təşəbbüsünə qoşulub. Bu öhdəliyin icrası üçün metan tullantılarının yayılmasına rəvac verən bütün mənbələrin diqqətlə nəzərdən keçirilməsinin vacibliyini diqqətə çatdıran Y. Rəfiyev bildirib ki, hazırda SOCAR da daxil olmaqla 50 şirkət neft və qazın dekarbonizasiyası üzrə təşəbbüsə qoşulub.

Baş danışıqçı deyib ki, 2022-ci ildə qida tullantıları atmosferə buraxılan istixana qazlarının 110 faiz təşkil edib. “Bu günə olan məlumata görə, 30-dan çox ölkə artıq metan qazı tullantılarının məhdudlaşdırılması haqqında bəyannaməyə qoşulduğunu elan edib. Onların arasında bu növ tullantıların atılması həcminə görə ilk 10 ölkə sırasında yer alan dövlətlər var. Sözügedən sənəd cari ildə bu sahədə görülə biləcək daha geniş spektrli tədbirləri müəyyən edir”, – deyə o əlavə edib.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# COP konfranslarında ilk Turizm Günü

**(əvvəli 1-ci səhifədə)**

Dövlət Turizm Agentliyinin və BMT-nin Turizm Təşkilatının birgə təşkilatçılığı, BMT-nin Ətraf Mühit Proqramının dəstəyi ilə keçirilən tədbirdə 30-a yaxın ölkədən turizm nazirləri, turizm üzrə məsul qurumların yüksəksəviyyəli rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev turizmin iqlim dəyişikliyinin təsirinə məruz qaldığını, lakin qlobal iqlim dəyişikliyi ilə mübarizədə xüsusi rola malik olduğunu bildirib. O, Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsinin turizmin milli və qlobal iqlim strategiyalarına, həmçinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə inteqrasiyası üçün yol xəritəsi olduğunu bildirərək dövlətləri və maraqlı tərəfləri bəyannaməyə qoşulmağa çağırıb. Agentlik sədri ölkəmizin milli səviyyədə turizm sahəsində dayanıqlı təcrübələrin tətbiqində maraqlı olduğunu, dayanıqlı bir dünya üçün qlobal turizm sənayesinin əməkdaşlıq etməsinin vacibliyini vurğulayıb.

COP29-un prezidenti Muxtar Babayev çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası tarixində ilk dəfə keçirilən tarixi tematik "Turizm Günü"nün turizmin qlobal iqlim gündəliyinə inteqrasiyası, Paris Sazişi və Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılması istiqamətində mühüm addım olduğunu qeyd edib. Turizmin iqlim fəaliyyətində əhəmiyyətli roluna toxunan natiq dayanıqlı təcrübələrin tətbiqi və innovativ texnologiyalardan istifadə etməklə turizmin dayanıqlılıq, adaptasiya və mitiqasiya üçün bir modelə çevrilə biləcəyini vurğulayıb.

BMT-nin Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili isə bildirib ki, turizm ilk dəfə olaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Fəaliyyət Proqramına daxil edilib. Bu addımı sözügedən sektor üçün əsas dönüş nöqtəsi kimi xarakterizə edən təşkilat rəhbəri turizmin təkcə iqtisadiyyatın bir parçası olmadığını, eyni zamanda, bir sıra icmalar və xalqlar üçün xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O, bu sektorun qlobal ÜDM-in 3,4 faizinə töhfə verdiyini vurğulayaraq deyib: "Bununla belə, biz iqlim böhranı ilə üzləşərkən, turizm də həll yolu olmalıdır. Bakı Bəyannaməsi və Qlazqo Bəyannaməsi kimi təşəbbüsləri qəbul etməklə biz azkarbonlu və dayanıqlı gələcəyə gedən yolları formalaşdırırıq".



BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen çıxışında COP29 Sədrliyinin ilk dəfə turizm məsələsini iqlim dəyişikliyi kontekstində qəti şəkildə gündəmə gətirməsinə heyran olduğunu vurğulayıb. O deyib: "Bu, çox vacibdir, çünki emissiyalar üzrə hesabatlar bizə göstərir ki, hazırda doğru istiqamətdə irəliləmirik, 2023-cü ildə emissiyalarımız azalmaq əvəzinə 1,3 faiz artıb. Əslində, 2030-cu ilə qədər 1,5 dərəcə Selsi həddində qalmaq istəyiriksə, emissiyaları 41 faiz azaltmalıyıq. İki dərəcə həddinə çatmaq istəyiriksə, – düşünürəm, bunu istəmirik, – o zaman emissiyaları 28 faiz azaltmalıyıq. Bunun üçün beş ilimiz var, lakin bu, tamamilə mümkündür".

Görüşün sonunda "Turizm üzrə Təkmilləşdirilmiş İqlim Təşəbbüsü" müzakirə edilib, 50-dən çox ölkə və 8 qeyri-dövlət aktorunun qoşulduğu "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" digər dövlətlərin də iştirakı üçün elan olunub.

Qeyd edək ki, "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" turizm sektorunda iqlim tədbirlərini genişləndirmək məqsədilə sektorun milli və qlobal iqlim siyasətlərinə daha yaxşı inteqrasiya edilməsini əsas hədəf kimi müəyyənləşdirir. Sənəd turizm sektorunda iqlim tədbirlərinin sürətləndirilməsinin təxirəsalınmaz zəruriliyini vurğulayaraq tərəfləri emissiyaları azaltmağa və dayanıqlı turizm təcrübələrini tətbiq etməyə səsləyir.



# Tullantısız dünya iqlim savaşının önəmli hədəfidir

**COP29 çərçivəsində ərzaq, kənd təsərrüfatı və su tematik günündə üzvi tullantılardan metan emissiyalarının azaldılması mövzusunda yüksək səviyyəli tədbir keçirilib.**

Toplantıda Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev çıxış edərək üzvi tullantıların metan emissiyalarının əsas mənbələrindən biri olduğunu və bu emissiyaların azaldılmasının iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadığını vurğulayıb.

Tədbir çərçivəsində Azərbaycan COP29-un sədri kimi qlobal miqyasda metan emissiyalarının azaldılması üçün sektoral yanaşmanın vacibliyinə diqqət çəkən bəyanat təqdim edib. Sənəddə məişət tullantılarının səmərəli idarə olunması, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və bu sahəyə maliyyə resurslarının cəlb edilməsi kimi vacib məsələlər yer alıb.

Xatırladaq ki, yüksəksəviyyəli tədbirdə Cənubi Koreya, Slovakiya, Moldova və Nigeriyanın ətraf mühit nazirləri, ABŞ Prezidentinin iqlim məsələləri üzrə müşavirinin müavini, BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru, eləcə də Beynəlxalq Bərk Tullantılar Assosiasiyasının prezidenti iştirak ediblər.

Tədbir zamanı ABŞ, Böyük Britaniya, Almaniya, Kanada, Yaponiya, Cənubi Koreya, Nigeriya kimi ölkələr Azərbaycan tərəfindən bu mövzuya qlobal diqqətin yönəldilməsini yüksək qiymətləndirərək təqdim edilən bəyanata qoşulublar.

# Ölkəmizdə bərpaolunan enerjinin payı 17 faizi keçib

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə ölkədə enerji istehsalının 17 faizinin bərpaolunan enerjinin payına düşdüyünü bildirib.**




Hazırda səhmdar cəmiyyətə məxsus Külək Enerji Parkında aylıq orta hesabla 6 milyon kilovat/saat elektrik enerjisi istehsal olunduğunu vurğulayan A.Məmmədzadə bu rəqəmin 5 milyon kilovat/saatdan aşağı düşmədiyini qeyd edib. O, parkın ümumi gücünün 50 meqavat olduğunu və bu göstərici ilə illik orta hesabla 100 minə yaxın abunəçini elektrik enerjisi ilə təmin etməyin mümkünlüyünü də diqqətə çatdırıb.

Direktorun sözlərinə görə, Azərbaycanda kiçik su, günəş elektrik stansiyaları və digər mənbələrdən əldə edilən elektrik enerjisi ümumi sistemə inteqrasiya olunub: "Deyə bilərəm ki, ölkədə istehsal edilən elektrik enerjisinin 17 faizi bərpaolunan enerji mənbələrinin payına düşür. Əlbəttə, bütün bu işlərin görülməsi üçün mərkəzləşdirilmiş və qeyri–mərkəzləşdirilmiş idarəetmə sistemləri tələb olunur. Bu, rəqəmsal texnologiyalardır. İnnovativ həllər əsasında onların tətbiqi həm işğaldan azad olunmuş ərazilərdə, həm də ölkənin digər bölgələrində tətbiq olunur".

A.Məmmədzadə qeyd edib ki, "Azərişıq" mərkəzləşdirilmiş idarəetmə sistemini və dispeçer idarəetməni artıq bu gün 04 kilovoltluq şəbəkələrin idarə olunması səviyyəsinə çatdırıb. "Azərişıq" ASC-nin 3 milyona yaxın abunəçisindən, təxminən" yarısı smart sayğacla təmin olunub. Hazırda isə məsafədən sayğacların oxunması üçün avtomatik sayğac sisteminin tətbiqinə başlanılıb. Bu, artıq işğaldan azad olunmuş ərazilərdə 100 faiz təmin edilib.

# TDT QHT-lərinin iqlim forumu



**COP29 çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və bu təşkilatda müşahidəçi statusa malik 8 ölkədən olan QHT-lərin birgə iqlim təşəbbüslərinə dair forum çıxış edən Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva son dövrlər Azərbaycan sosial-iqtisadi inkişafının yeni mərhələsinə daxil olduğunu vurğulayıb.**

Bu gün türk dövlətləri arasında əlaqələrin ictimai-siyasi həyatın bütün sahələrində intensiv dinamika ilə inkişaf etdiyini diqqətə çatdıran icraçı direktor tarixdən gələn bir sıra bağlılıqlar və vətəndaş cəmiyyətlərinin qarşılıqlı əməkdaşlığı ilə ölkələrin daha da sıx birləşdiyini bildirib. A.Əliyeva daha sonra deyib: "COP29-un insan kapitalına həsr edilmiş tematik günündə Türk dövlətlərini təmsil edən QHT-lərin Forumunun keçirilməsi çox önəmlidir. Bu baxımdan, Türk coğrafiyasının uzunmüddətli inkişafına yalnız insan kapitalının gücləndirilməsi vasitəsilə nail olmaq və regionun üzləşdiyi ekoloji təhdidlərlə birgə mübarizə aparmaq olar".

Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin Vətəndaş Cəmiyyəti Məsələləri Komitəsinin sədri Gülbarə Sultanova Azərbaycanın COP29-a uğurla evsahibliyi etməsinin Türk dünyası üçün önəmini vurğulayaraq, bu prosesdə QHT-lər çərçivəsində də əməkdaşlığın genişləndirilməsini mühüm hadisə adlandırıb. Özbəkistan Qeyri–Hökumət Təşkilatları Milli Assosiasiyasının İdarə Heyətinin sədri Kamoliddin İşanxocayev Azərbaycanın bütün beynəlxalq normalardan irəli gələn öhdəliklərə riayət etdiyini vurğulayıb. O, COP29-da Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin irəli sürdüyü təşəbbüslərin Azərbaycanın dəstəklədiyini də xatırladıb.

Forum çıxış edən natiqlər Azərbaycanı Türk dünyasında ilk dəfə COP konfransını təşkil etməyə nail olmuş ölkə kimi bir daha təbrik edib, bundan fərəh hissi keçirdiklərini bildiriblər. Çox qısa bir müddətdə yüksək səviyyəli təşkilatçılıq tədbirlərinin görülməsinin Azərbaycan dövlətinin qüdrətini növbəti dəfə nümayiş etdirdiyini diqqətə çatdırıblar.

# Şəhər nəqliyyatının yaşıllaşdırılması davam etdiriləcək

**Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Nəqliyyat İşçilərinin Beynəlxalq Federasiyası və UN-HABİTAT-ın təşkilatçılığı ilə keçirilən dəyirmi masada şəhər nəqliyyatının yaşıllaşdırılması məsələləri müzakirə olunub.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxış edərək Azərbaycanda şəhər nəqliyyatının optimallaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verib. Qeyd olunub ki, paytaxt Bakının ictimai nəqliyyatının səmərəli fəaliyyətini təmin etmək üçün sərnişin daşıyan avtobuslar, velosiped və skuterlər üçün xüsusi yollar salınıb, ictimai nəqliyyatda daha çox elektrik enerjisi ilə işləyən avtobuslar istismara buraxılıb. Karbonsuzlaşdırma istiqamətində Bakı şəhər rəhbərliyi ilə birlikdə atılan addımlardan biri də dizel yanacağından istifadənin azaldılması ilə bağlı olduğunu diqqətə çatdıran nazir dizel yanacağı ilə çalışan avtobusların tədricən istismardan çıxarılaraq elektrobuslarla əvəz edildiyini bildirib.




R.Nəbiyev diqqətə çatdırıb ki, ölkə iqtisadiyyatı inkişaf etdikcə paytaxtda və regionlardakı şəhərlərdə nəqliyyat vasitələrinin də sayı artır ki, bu da karbon emissiyasının artmasına səbəb olur. "Bu problemin aradan qaldırılması istiqamətində hökumət elektromobilləri təşviq edir, onların ölkəyə gətirilməsi üçün gömrük rüsumunu aradan qaldırıb. Şəhərsalma istiqamətində aparılan işlər zamanı beynəlxalq təcrübə nəzərə alınır və mühərriksiz nəqliyyat vasitələrinin sərbəst hərəkəti üçün infrastruktur yaradılır", – deyə nazir əlavə edib.

UN-HABİTAT-ın baş direktoru Anaklondiya Rossboç isə çıxışında diqqəti dünyada baş verən urbanizasiya proseslərinin şəhərlərin böyüməsinə və insanlarla yanaşı, sənaye müəssisələrinin, avtomobillərin də artmasına səbəb olduğuna yönəldib. Bu amilin karbon emissiyasının artmasına, atmosferə digər zəhərli qazların tullanmasına gətirib çıxardığın vurğulayan baş direktor problemlərin həlli məqsədilə müasir şəhərsalmada mühərriksiz nəqliyyat vasitələri üçün infrastrukturlar yaradılmasının, onların sərbəst hərəkətinin təmin olunmasının vacibliyini vurğulayıb. Qeyd olunub ki, "yaşıl" şəhərlərin salınması aktuallıq kəsb etdiyindən istənilən böyük şəhərdə yaşıllıq ərazi daha çox olmalıdır. Onun fikrincə, bu kimi tədbirlər COP-un başlıca məqsədi olan sıfır emissiyaya nail olmaq üçün əsas amillərdir.

Sonra IFT-in, Avropa Komissiyasının, Asiya İnkişaf Bankının nümayəndələri, Türkiyənin, Qazaxıstanın, Pakistanın nəqliyyat nazirləri, Kanada, Almaniya, İtaliya, Qvatemala, Mozambik, Keniya, Burundi və digər dövlətlərin müvafiq strukturlarının nümayəndələri öz təcrübələrindən danışıblar. Qeyd olunub ki, müasir şəhərsalmada əsas prinsip yaşıllaşdırmadan ibarət olmalıdır. Yeni şəhərləri nəqliyyatsız təsəvvür etmək mümkün deyil, lakin daha çox elektrik enerjisi ilə hərəkət edən nəqliyyat vasitələrinə üstünlük vermək lazımdır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

## “Yaşıl” mübarizədə ciddi dönüş

**Britaniyanın sabiq Baş naziri Tereza Mey özünün “X” sosial media şəbəkəsində iqlim dəyişikliyi ilə mübarizədə qətiyyət göstərilməsinin çox vacib amil olduğunu bildirib.**



O, paylaşımında ötən həftə Bakıda başlayan COP29-da iştirak etdiyini qeyd edərək qlobal iqlim dəyişmələrinə qarşı təcili və əhəmiyyətli tədbirlər görülməsinin vacibliyini vurğulayıb. Tereza Mey bu il orta temperaturun 1,5 dərəcə sərhədini keçmə ehtimalının olduğunu diqqətə çatdıraraq, planetimizi və insanları qorumaq üçün indidən qərarlı hərəkətin zəruriliyini bildirib.

## TDT-nin İqlimə Davamlı Kəndlər Forumu yaradılıb

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində təşkil edilən Türk Dövlətləri Təşkilatının İqlimə Dayanıqlı Ağıllı Kəndlər üzrə Nazirlər Sessiyasında İqlimə Davamlı Kəndlər Forumu yaradılıb. Bununla bağlı tərəflər arasında müqavilə imzalanıb.**



Müqavilə türk regionunda iqlim uyğunlaşması, regionların üzləşdiyi problemlərin qiymətləndirilməsi və əkinçilik icmalarının iqlimə daha davamlı olması üçün imkanların gücləndirilməsi ilə bağlı dərin mübadilə imkanı yaratmaq məqsədi daşıyır.

Qeyd edək ki, tədbirdə tərəflər kənd yerlərinin inkişafı, “ağıllı kənd” təşəbbüsləri, davamlı və iqlimə davamlı kənd layihələri və DİM-lərin lokallaşdırılması üzrə sübuta əsaslanan ən yaxşı təcrübələri bölüşüblər.

*XQ*

# Bakı Xəzərin harayını dünyaya çatdırır

**Xəzər zəngin biomüxtəlifliyə və ekosistemə malik unikal təbii mühitidir. Bununla belə dənizin yerləşdiyi region da son onilliklərdə ciddi ekoloji problemlərlə üzləşib. Əsas problemlərdən biri iqlim dəyişikliyi və onun təsirləridir”. Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva COP29 çərçivəsində “İqlim dəyişikliyi fonunda Xəzər dənizində su səviyyəsinin azalması” mövzusunda keçirilən yüksək səviyyəli görüşdə deyib.**

Nazir müavini bildirib ki, su hövzəsinin səviyyəsinin azalması ilə bağlı dramatik hadisələr baş verir. Dənizinin səviyyəsi tarixdə qeydə alınan ən aşağı həddə yaxındır. Son 30 ildə dəniz səviyyəsi 2,5 metrə yaxın azalıb, illik azalma 20-30 santimetrə çatıb. Qazaxıstanın ekologiya və təbii sərvətlər nazirinin müavini Mansur Oşurbayev isə deyib ki, bütün sahil xətti boyunca 22 min kvadratkilometr ərazidən su çəkilib. Dayazlaşma bunda sonra da davam edəcək.

Araşdırmalar göstərir ki, 2030-cu ilə qədər Xəzər dənizinin səviyyəsi 29,6 metrə enəcək. 2050-ci ilə qədər isə dəniz səviyyəsi 32 və ya 34 metrə çata bilər. Bu əsrin sonlarına qədər Xəzərdəki dəniz səviyyəsinin 9-18 metr aşağı düşməsi proqnozlaşdırılır. Araşdırmalara görə, XXI əsrdə Xəzər dənizinin səviyyəsi, təxminən, iki dəfə çoxalıb. Suyun səviyyəsinin 9-18 metr enməsi nəticəsində dənizin geniş şimal rəfinin dibi, cənub-şərqdə Türkmən şelfi və orta və cənub hissəsində isə bütün sahil bölgələri qurumağa başlayıb. Bundan əlavə, dənizin şərq kənarındakı Qara–Boğaz–Göl körfəzinin tamamilə quruyacağı proqnozlaşdırılır. Ümumiyyətlə, Xəzərdə suyun səviyyəsinin 9 metr aşağı düşməsi ilə onun sahəsinin 23 faiz azalması gözlənilir. Bu sürətlə Xəzər dənizi, xüsusən də onun şimal hissəsi gəmiçilik və neft hasilatı hesabına itirilə bilər.

### Dayazlaşma özü ilə birlikdə problemlər yaradır

Dayazlaşma bir sıra problemlərə səbəb olur. Həmin problemlərin cəmiyyət üçün nəticələrini isə birbaşa və dolayı olmaqla iki kateqoriyaya bölmək olar. Birbaşa nəticələr, məsələn, bioloji resursların (kommersiya növləri və onların qida mənbələrinin) itirilməsidir. Səviyyənin enişi bütün dəniz ekosisteminə, o cümlədən dənizin bioloji məhsuldarlığına mənfi təsir göstərir. Xəzərdə bioloji aktivlik 25 metr dərinliyə qədər müşahidə olunur, ən məhsuldar dərinliklər isə günəş işığının nüfuz etdiyi 5-10 metrdəki təbəqədir. Su səviyyəsinin azalması səbəbindən bentik orqanizmlər yeni yaşayış yerlərinə köçməyə vaxt tapmır, bu da bütün ekosistemin biokütləsinin azalmasına gətirib çıxarır. Bundan başqa, iqlim dəyişikliyinin təsiri balıqların, köçəri



quşların və endemik Xəzər suitisinin əsas qida mənbələrinin yerləşdiyi Şimal hissəsinin dayaz sularında daha aydın hiss olunur. Balıqların, o cümlədən nərəkimilərin kürütökmə yerləri də yox olmaq təhlükəsi ilə üz-üzədir. Beləliklə, Xəzər regionu ölkələrinin nərə və digər kommersiya balıqlarının ehtiyatları davamlı şəkildə azalır.

Xəzər ekosisteminə əlavə təzyiq isə çirklənmə, brakonyerlik və həddindən artıq balıq ovu kimi ekoloji problemlərdən qaynaqlanır. Birbaşa təsirə. həmçinin dəymiş zərərin ödənilməsi xərcləri də (məsələn, balıq yetişdirmə obyektlərinin tikintisi) daxildir.

Xəzərin dayazlaşmasından sahilyanı dövlətlərin iqtisadiyyatı da əziyyət çəkir. Yerli limanların girişi lillənir, bu da gəmilərin dayanmasına, vaxt və pul itkisinə səbəb olur. Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın sözlərinə görə, Xəzər dənizində su səviyyəsinin davamlı azalması təkcə ekoloji problem deyil, həm də iqtisadi inkişafın məhdudlaşdırılmasıdır: “Su səviyyəsinin azalması artıq sahilyanı ölkələrin iqtisadiyyatına təsir göstərir. Bəzi gəmilər tutumunun yalnız 50 faizi qədər yüklənir. Quraşdırılmış avadanlıqların və tikilmiş infrastrukturun bir hissəsi artıq istifadəyə yararsızdır”.

Xərclər isə artır. Məsələn, Qazaxıstanın Aktau limanında naviqasiya marşrutlarının saxlanması xərcləri son 5 ildə 30 faiz çoxalıb və Bakı limanı ilə bağlı da oxşar problemlər müşahidə olunur. Sahilyanı ölkələrin dənizin dayazlaşması səbəbindən ümumi iqtisadi itkiləri ildə bir milyard dollara çata bilər.

Dolayı nəticələr isə ekosistemlərin özünütəmizləmə qabiliyyətinin itirilməsi ilə bağlıdır. Dağıstan Dövlət Universiteti Ekologiya və Davamlı İnkişaf İnstitutunun direktoru Zarema Soltanmuradova qeyd edib ki, havanın temperaturunun artması buxarlanmanın artmasını, yağıntının azalması isə çay suyunun axını azaldır: “Su səthinin sahəsinin azalması sahilyanı ekosistemlərin deqradasiyasına, bir çox quş və balıq növlərinin yaşayış yeri olan bataqlıqların və deltaların yox olmasına gətirib çıxarır. Xəzər suitisi və nərə balığı kimi nadir növlər yaşayış yerlərinin itirilməsi və qida zəncirindəki dəyişikliklər səbəbindən təhlükə altındadırlar. Dayazlaşma başqa ciddi problemin yaranmasına da səbəb olur. İlk növbədə suyun duzluluğu dəyişir ki, bu da orada yaşayan bitki və heyvanlara mənfi təsir göstərir. Bu, biomüxtəlifliyin azalmasına, balıqçılığın zəifləməsinə və nəticədə iş yerlərinin itirilməsinə səbəb olur. Dəniz özünütənzimləyə və əvvəlki vəziyyətinə qayıda bilmir”.

### Uğursuz cəhd

Bəs, Xəzəri xilas etmək üçün nə kimi işlər görülür? Hələ sovet dövründə hidrotexniki qurğuların tikintisi ilə dənizin səviyyəsini sabitləşdirməyə cəhdlər edilib. Xüsusilə, 1980-ci ildə su hövzəsinin şərq sahilində yerləşən Qara–Boğaz–Göl körfəzi üzərində damba inşa edilərək ona suyun daxil olmasının qarşısı alınıb. Güman edilirdi ki, bu, dəniz səviyyəsini sabitləşdirəcək. Bundan sonra suyun səviyyəsi qalxıb. Amma tezliklə bu layihənin mənfi tərəfləri də üzə çıxmağa başlayıb. Körfəz quruyaraq duz səhrasına çevrilib. Nəticədə qiymətli kimyəvi məhsul olan Qlauber duzunun hasil edildiyi xalq təsərrüfatı üçün çox vacib olan buxta itirilib. Külək isə duzu geniş ərazilərə yayaraq insan sağlamlığına və kənd təsərrüfatına mənfi təsir göstərməyə başlayıb.

1984-cü ildə körfəzin qurumasının qarşısını almaq məqsədilə dambada suötürücü qurğular quraşdırıldı. Burada quraşdırılan 11 boru səmərəsiz olduğundan 1992-ci ildə damba partladıldı və dənizdən su yenidən körfəzə axıdıldı. Bu da Xəzər dənizinin səviyyəsinin aşağı düşmə proseslərinin intensivləşməsinə səbəb oldu. 1990-cı illərdə körfəzin əvvəlki səviyyəsi bərpa edilsə də, iqlim və təbii proseslərlə yanaşı, vəziyyəti daha da gərginləşdirdi. Yəni dənizin səviyyəsinin aşağı salınması prosesini sürətləndirdi. Beləliklə, ilk cəhd uğursuz oldu.

### 5 milyon insan risk altındadır

Problem mümkün qədər tez həll olunmalıdır, çünki əks halda 5 milyona qədər insan risk altında qalacaq. Artıq bu istiqamətdə müəyyən addımlar atılır. Rusiya və Azərbaycan Xəzər dənizinin problemlərinə qarşı mübarizə çərçivəsində əməkdaşlığa başlayıb və bu məqsədlə üçün işçi qrupu yaradılıb. Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfərindən sonra ölkələr bu istiqamətdə fəal işə başlayıb.

Xəzərin problemləri COP29 sessiyası çərçivəsində müzakirə olunub. Toplantıda Xəzəryanı ölkələrin – Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın rəsmiləri, BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Tədbirdə Xəzər dənizinin qarşılaşdığı ciddi ekoloji və humanitar böhranları, o cümlədən iqlim dəyişikliyinin mənfi təsirləri, biomüxtəlifliyin itirilməsi, torpaq deqradasiyası və çirklənmənin nəticələrindən bəhs edilib. Bildirilib ki, qarşıdakı onilliklərdə Xəzərdə suyun səviyyəsinin enməsi ehtimalının qarşısını almaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi vacibdir. Həmin vəziyyət ekosistemləri məhv edə, əhalinin yaşayış yerlərini tərk etməsinə gətirib çıxara və iqtisadiyyatları təhdid edə bilər. Balıqçılığın azalması, suyun duzluluğunun artması və Xəzər suitisi kimi unikal növlərin təhlükə altında olması da vurğulanıb. Böhran təkcə ekoloji deyil, həm də humanitar xarakter daşıyır, dolanışıq və ərzaq təhlükəsizliyinə təsir edərək milyonlarla insanın gündəlik həyatına ciddi təsir göstərə bilər.

Tədbirin sonunda “Xəzəryanı dövlətlərin nazirlərinin və yüksək vəzifəli şəxslərinin Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə” qəbul edilib.

***Ə.PÜNHAN***
***X Q***

# İqlim və Sağlamlıq üzrə Varislik Koalisiyası yaradılır




**(əvvəli 1-ci səhifədə)**

Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə biz iqlim dəyişikliyi və sağlamlığın qlobal gündəmin mərkəzində qalmasını təmin etməyə sadiqik”.

Əvvəlki COP-lar çərçivəsində nəzərəçarpacaq nəticələrin əldə edildiyi vurğulanıb. Qeyd edilib ki, COP26-da İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansının yaradılması, COP27-də İqlim Fəaliyyəti və Qidalanma Təşəbbüsü, eləcə də Sağlamlıq üçün İqlim və Sağlamlığın Maliyyələşdirilməsi üzrə COP28-in rəhbər prinsipləri kimi əvvəlki təşəbbüslər mühüm və möhkəm təməl qoyub.

Yeni koalisiyada bu səyləri gücləndirmək, onların təsirini artırmaq, maraqlı tərəfləri bir araya gətirmək üçün müvafiq platformanın yaradılması zərurəti qeyd olunub. Bildirilib ki, bu koalisiya sadəcə dialoq naminə yaradılmayıb: “Niyyət məktubunu imzalamaqla, biz planetimizin iqlim və sağlamlıq siyasətlərinin təcrid olunmadığı, eyni zamanda idarəetmə və inkişafın bütün aspektlərinə inteqrasiya olunduğu bir ortaq baxışa sadiqik. Biz, iqlim dəyişikliyinin bütün dünyada sağlamlığa necə təsir etdiyini görürük. Tənəffüs xəstəliklərini kəskinləşdirən temperaturun yüksəlməsindən daha tez-tez baş verən ekstremal hava hadisələrinə qədər insanların sağlamlığı təhlükə altındadır. Bununla belə, transformasiya üçün də fürsət görürük. Həm sağlamlıq, həm də iqlim fəaliyyətinə üstünlük verməklə, biz insanların həyatını qoruya, daha güclü səhiyyə sistemləri qura və davamlı inkişafa töhfə verə bilərik”.

***Z.HÜSEYNOVA***
***XQ***




## Bakı konfransı maliyyə mövzusuna aktuallıq gətirdi

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Köməkçi icra orqanının sədri Nabil Munir COP29 sədrliyinin mətbuat konfransında danışıqların gedişində irəliləyiş olmasına baxmayaraq, maliyyə məsələsi ilə bağlı kifayət qədər tərəqqi nəzərə çarpmadığını bildirib.**

N.Munir Bakı konfransında qəbul edilən qərar və götürülən öhdəliklərin gələcəyə bəhrə verən nəticələrə yol açacağı əminliyini də diqqətə çatdırıb.

***XQ***

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

## Dostlarımızın, qardaşlarımızın qürur və sevinci

# Türkiyə Azərbaycanın COP29 uğurunu qardaş sevgisi ilə izləyir

**“Mənim Azərbaycan sevgim haradan başlayır? Bəlkə, rəhmətlik Əhməd Cəfəroğlunun Aşıq Qərib haqqında məqaləsindən, ya da Molla Nəsrəddindən, Koroğludan, Tahir və Zöhrədən? Ola bilsin, yadımdan çıxan, amma içimdə yaşayan yüzlərlə ortaq dəyərdən. Düzü, bunu dəqiq söyləmək bir az çətinlik yaradır. Azərbaycan sevgisi böyük Türk dünyasının önəmli bir parçası olaraq həmişə içimdə göyərib, boy atıb. Qardaş ölkəyə hər gəlişim, insanlarla əlaqələrim və dostluğum bu bağlılığı daha da gücləndirib, zənginləşdirib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər toplantıda Bakının evsahibliyi etməsi bu qürur və sevincimi dəfələrlə artırdı.”**



***XQ-yə internet bağlantısı ilə açıqlama verən Egey Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı və uzun illər rəhbəri olmuş professor Fikrət Türkmən daha sonra qeyd etdi:***

– 200-ə yaxın dövlətin yekdil qərarı ilə Azərbaycanın bu cür mühüm tədbirə evsahibliyi etməsi, ölkənin iqlim siyasətindəki fəallığın, eyni zamanda, beynəlxalq aləmdəki nüfuzunun nəticəsidir. Bu, həm də Azərbaycan üçün böyük məsuliyyət və geniş tanıtma imkanıdır. Belə bir tədbir ölkənin iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki təcrübələrini və nailiyyətlərini bölüşmək, eləcə də beynəlxalq tərəfdaşlarla əməkdaşlığı daha da möhkəmləndirmək üçün yaxşı bir fürsət oldu.

İllərlə hər bir uğurunu vurğunluqla izlədiyim Azərbaycan son illərdə iqlim dəyişikliyinə qarşı mübarizədə bir çox təşəbbüslər ilə diqqət mərkəzindədir. Xüsusilə, “yaşıl” enerji layihələrinə və təmiz texnologiyaların tətbiqinə dair atılan addımlar ölkənin bu sahədəki liderliyini nümayiş etdirir. COP29 Azərbaycanın bu istiqamətdəki səylərinin daha da gücləndirilməsi və dünya miqyasında daha geniş bir əməkdaşlıq üçün mühüm bir mərhələdir. COP29-un Azərbaycanda keçirilməsi Türk dünyasının dünya gündəmindəki mövqeyini daha da möhkəmləndirir, iqlim dəyişikliyi sahəsindəki ciddi və məsuliyyətli yanaşmasını dünyaya nümayiş etdirir.

**– Türk dünyasından danışdınız, bu dostluq və qardaşlıq birliyinin COP29-dakı həmrəyliyi və ortaq mövqeyi Türkiyədən necə görünür?**

– Türk dünyası son illərdə bir çox sahədə əməkdaşlıq imkanlarını genişləndirib və bu birliyin COP29 kimi qlobal platformalarda daha fərqli bir yer tutması da göz önündədir. Onların birgə mübarizə aparacağı və ortaq yanaşmalar ortaya qoyacağı məsələlər arasında iqlim dəyişikliyi, ekoloji davamlılıq və təbii sərvətlərin qorunması mühüm yer tutur. Türk dünyası böyük bir regionu əhatə etsə də və bu ölkələrin coğrafi və iqtisadi vəziyyətləri bir-birinə yaxın olsa da, onlar iqlim problemləri baxımından çox fərqli təsirlərlə üzləşirlər.

COP29 Türk dünyasının güclü bir mərkəz olaraq çıxış etməsini təmin edən önəmli hadisələrdəndir. Həm də region ölkələri təbii sərvətlərin istifadəsi və enerji istehsalı məsələlərində əlaqəli mövqe sərgiləyə bilərlər. Məsələn, bir ölkə karbon emissiyalarını azaltmaq üçün daha aqressiv tədbirlər təklif edə bilər, digər ölkə üçün iqtisadi inkişaf və enerji təchizatı məsələləri hələ də prioritet olaraq qalır. Bu baxımdan Türk dünyası bir tərəfdən özünün enerji ehtiyatları ilə bağlı maraqlarını qorumalı, digər tərəfdən isə təbii sərvətlərdən dayanıqlı şəkildə istifadə etməyi dəstəkləyən siyasət irəli sürə bilər.

Bundan əlavə, Türk dünyası ekologiya və ətraf mühit məsələlərində birgə tədqiqatlar və texnoloji inkişafa daha çox önəm verə bilər. İqlim dəyişikliklərinin təsirlərini minimuma endirmək üçün müştərək təşəbbüslər, təmiz enerji layihələri və regional ətraf mühit siyasəti indiki müzakirələrdə önəmli yer alır.

Türk dünyası dövlətləri mədəni və dil birliyinə əsaslanaraq daha çox regional əməkdaşlıq və qarşılıqlı dəstək mexanizmləri təklif edirlər. Bu, onların qlobal səviyyədə daha güclü bir yer tutmalarına kömək edir. COP29 bu potensialı reallaşdırmaq üçün real bir imkandır. Bakı görüşləri geniş əməkdaşlıqla yanaşı, hər bir ölkənin milli maraqlarını balanslı şəkildə qorumağı əsas tutur.

**– COP29 günlərində dünya türk dövlətlərinin liderlərini bir yerdə, çiyin-çiyinə gördü...**

– Bəli, Türk dövlətlərinin konfransda bir yerdə olması dostluq və qardaşlığımızın yüksək səviyyəsini dostlara da, düşmənlərə də göstərdi. Düşmənlər deyəndə ötənlərin üzüntüləri yada düşür. Bakının indiki təntənəsi ilə yanaşı, ağır günlərini də xatırladım. Həyatın müəyyən anlarında insanın içində yaşadığı duyğular o qədər qarışıq olur ki, onları sözlərlə ifadə etmək çox çətin olur. 20 Yanvar hadisələrindən sonra Bakıya gəldiyim dövrün gərginliklərini, sıxıntılarını, üzüntülərini yaşadım. Bəlkə də, o zamanlar hər şey bir-birinə qarışmışdı, bir tərəfdən, böyük itki, böyük bir ağrı, digər tərəfdən isə yeni bir başlanğıcın, bir ümidin axtarışı vardı. O dövrün Bakısı hüznlə, ümidsizliklə dolu idi. Ancaq həyat davam edirdi. Zamanla hər şeyin mümkün olduğunu, hər qarışıqlığın bir gün nizama düşəcəyini göstərdi. Sonra bir gün Qarabağ həsrətinin sona çatdığı xəbərinə sevindik. Qarabağ azad olundu, Vətən nəhayət ki, öz doğma torpaqlarına qovuşdu. Həmin an sən necə hiss etdiyini heç vaxt unutmayacaqsan.

Həm fərdi olaraq, həm də bir millət, iki dövlət olaraq yaşadığımız ən böyük qələbə Qarabağ müharibəsində əldə edilən zəfər bizim həm keçmişimizə, həm də gələcəyimizə olan inamımızı təzələyib. Bu zəfər təkcə hərbi deyil, eyni zamanda, milli ruh, qürur, birlik və həmrəylik zəfəri idi. Bu hər kəsin içindəki ağrıları, itkiləri yüngülləşdirdi. Bu qələbə Vətəninə, torpağına daha dərin sevginin və bağlılığın işarəsi oldu. Qarabağın azad olması bütün itkiləri, bütün ağır xatirələri unutdurdu. Türk dövlətləri bu zəfər təntənəsini bir yerdə yaşadılar.

İndi isə Bakıda, bu günlərdə, bu şəhərin qəlbində, hər kəsin içində o qürur yenidən yaşandı. Bizim tariximiz, milli kimliyimiz, zəfərimiz, ən böyük arzumuz – hamısı bir yerdə təcəssüm tapır. O dövrün sıxıntılarını yaşayan, bu günün zəfərini isə dərin bir qürurla yaşayan qardaşlar kimi, biz də başqalarına yol göstərə, dünyaya mesaj verə bilirik.

Bu qüruru, bu zəfəri bu günlərdə bir yerdə yaşamaq, hər kəsə dərin bir mənəvi güc verir. Qarabağ və Vətən, sadəcə, torpaq deyil, eyni zamanda, bizim milli varlığımızın, kimliyimizin, sevgimizin, ümidimizin təcəssümüdür. Bu günlərdə bir daha görürsən ki, keçmişin ağrıları, indiki qələbənin yanında kiçik qalır. Həm də bu qələbə yalnız döyüş meydanında deyil, hər birimizin həyatında bir zəfərdir. Hər kəsin içində bir az da olsa həm o keçmişin çətinliklərini yaşayıb, həm də bu yeni dövrün sevinclərini paylaşması bu günlərdə hər birimizi daha da birləşdirir.

Belə anlarda, sözlər çox kiçik və zəif qalır, çünki bir xalqın, bir millətin yaşadığı böyük bir mücadilənin ifadəsi yoxdur, sadəcə, onu içində hiss etmək lazımdır. Bu qürur və sevinc, bir xalqın özünü tapmasının və hər şeyə yenidən başlamasının təcəssümüdür.

Demək istədiyim çox sözlər var. Ən əsası odur ki, Bakının bu günlərinə BMT-nin dünya miqyaslı mərasiminə evsahibliyinə şahidlik edəndə düşünürəm: Qarabağ zəfərinə can Azərbaycan COP29 zəfərini də əlavə etdi.

**– Sevgi-sayğılarınıza görə təşəkkür edirik.**

# Tbilisi Bakının iqlim təşəbbüslərini fəal dəstəkləyir



**“Bakıda davam edən BMT-nin iqlim dəyişikliyi konfransı nəinki Gürcüstanın, eləcə də regionun həyatında xüsusi önəmli hadisədir. Hökumət həm daxili, həm də xarici siyasətində belə qlobal hərəkatları dəstəkləyir və bu gün Bakının yanındadır”. Bu fikiri telefon əlaqəsində Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri, Gürcüstan parlamentinin keçmiş deputatı İsaq Novruzov COP29 konfransının əhəmiyyətini dəyərləndirərkən söylədi.**

Soydaşımız qeyd etdi ki, vaxtilə Gürçüstanın energetika sistimini quranlardan və bu işə rəhbərlik edənlərdən biri kimi deyə bilərəm ki, bu ölkə enerji ehtiyatlarının böyük hissəsini bərpaolunan mənbələrdən almağa çalışır. Xüsusilə hidroelektrik stansiyalarının inşası və günəş enerjisi kimi alternativ enerji mənbələrinin və faunanın, həm də ekosistem xidmətlərinin davamlılığını təmin etməyə yonəlib. Gürcüstan iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə vermək məqsədilə regional və beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq edir. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin COP29-da fəal iştirakı da bunu bir daha təsdiqləyir. COP29 kimi




genişləndirilməsi qlobal iqlim təhlükəsizliyinə xidmət edir.

Eyni zamanda, son bir neçə ildə Gürcüstanda sənaye və nəqliyyat sektorlarında karbon emissiyalarını azaltmaq üçün yeni texnologiyaların tətbiqinə başlanıb. Bununla yanaşı, ölkə elektrik avtomobillərinin yayılmasını dəstəkləyən proqramlar hazırlayıb və bu layihə uğurla həyata keçirilir.

İndi təbii ekosistemlərin qorunması xüsusi əhəmiyyət kəsb edir. Gürcüstan ətraf mühitin davamlı idarə olunmasına xüsusi diqqət yetirir. Bu layihələr həm yerli flora beynəlxalq tədbirlər ölkələr arasında təcrübə mübadiləsini və birgə layihələrin həyata keçirilməsini stimullaşdırır.

Azərbaycanın iqlim böhranına qarşı apardığı mübarizə və bu sahədə atdığı addımlar regionda və dünyada ekoloji tarazlığın bərpası baxımından çox önəmlidir. Gürcüstan hökuməti qlobal iqlim siyasətini gücləndirir və bu yöndə beynəlxalq əməkdaşlıqda maraqlıdır. COP29 konfransı bu istiqamətdə regional irəliləyiş üçün də zəmin yaradır. Cənubi Qafqazın 2 dost ölkəsinin iqlim dəyişikliyi ilə mübarizədə birgə fəaliyyəti üçün geniş meydan açılıb.

# Bəşəri təhlükə ilə savaşa, qlobal xilaskarlığa töhfə

**Bügünlərdə COP29-un təşkil etdiyi müzakirələr gələcəkdə konfransda iştirak edən ölkələrin iqlim siyasətləri və ekologiya sahəsindəki əməkdaşlıqları üçün mühüm platforma yaradır. Azərbaycanda keçirilən bu konfransın nəticələri digər ölkələr üçün də nümunə ola bilər.**

**XQ-yə bu mövzuda müsahibəsində Qırğızıstanın “İnfocom” dövlət müəssisəsinin direktor müavini Daniel Eshmatov bildirdi:**

– Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki uğurlu təcrübələri, enerji sektorunda dayanıqlı inkişaf məqsədinə yönəlmiş strateji addımları beynəlxalq əməkdaşlıqların inkişafına xidmət edir. Bundan əlavə, Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklər qlobal ekoloji vəziyyətin yaxşılaşdırılmasına töhfə sayılır. Bütün bunlar qırğız xalqını sevindirir, bizi Bakı təşəbbüslərinə nəfəs verməyə ruhlandırır.

Qırğızıstanda da iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması sahəsində atılan addımlar getdikcə daha geniş miqyas alır. Bu istiqamətdə həyata keçirilən layihələr, ölkənin resurslarının daha səmərəli istifadəsinə yönəlib və onların bəziləri tullantıların azaldılması məsələsinə aiddir. Bu gün təkcə kağız tullantılarının azaldılması iqtisadiyyat üçün deyil, həm də ekosistem üçün mühüm əhəmiyyət kəsb edir. Çünki kağız istehsalı prosesi ağacların kəsilməsi, su və enerji sərfiyyatının artması, ətraf mühitin çirklənməsi ilə nəticələnir.

Bu çərçivədə Bakının təşəbbüslərinə uyğun olaraq, Qırğızıstanda da kağızdan istifadənin azaldılması və rəqəmsal sənədləşmə sistemlərinə keçid təşviq edilir. Elektron sənəd dövriyyəsinə keçid ən əsası dövlət orqanlarında və müəssisələrdə iş proseslərini sürətləndirir, kağız istehsalının ətraf mühitə zərərli təsirini azaldır.

Məsələn, ölkədə həyata keçirilən son araşdırmalara əsasən, bu il kağızdan az istifadəyə görə 11 milyon dollara qənaət edildiyi bildirilib. Bu rəqəm iqtisadi baxımdan çox müsbət bir göstəricidir. Çünki kağız istehsalı və ondan istifadə böyük xərclər tələb edir. Bu isə həm dövlət büdcəsinə, həm də şirkətlərin fəaliyyətinə mənfi təsir edir. Rəqəmsal sənədlər isə kağız yazılardan daha az resurs tələb edir.

Bu qənaət yalnız maddi mənada deyil, həm də ekoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Kağız istehsalı üçün ağaclar kəsilir, enerji sərf olunur və nəticədə, havaya



karbon qazı buraxılır. Elektron sənədləşmə isə bu prosesləri minimal dərəcəyə endirir və ekosistemi qorumağa kömək edir. Gələcəkdə bu qənaətlərin artacağı gözlənilir.

Bu addımların sistemli davamı yaxın gələcəkdə daha böyük iqtisadi və ekoloji faydalar gətircək. Bu təşəbbüslər digər ölkələr üçün də örnək ola bilər və Qırğızıstan da Azərbaycan kimi ətraf mühitin qorunması sahəsində lider ölkələrdən birinə çevrilə bilər.

COP29 kimi konfransların keçirilməsi qlobal iqlim siyasətinin formalaşdırılması, təmiz enerji və davamlı inkişaf sahələrində beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün vacib bir platformadır. Azərbaycanda keçirilən bu irimiqyaslı, çoxyönlü qlobal müzakirə, qəbul edilən önəmli və təsirli qərarlar tezliklə ciddi nəticələr verəcək. Bu, qardaş Azərbaycanın dünyada iqlim dəyişikliyi ilə mübarizəyə tarixi töhfəsi sayılacaq.

*Səhifəni hazırladı:*
*Namiq QƏDİMOĞLU*
*XQ*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

Günün tələbi

**Bu günlərdə Nazirlər Kabineti “Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi haqqında qərar qəbul edib. Bundan sonra Şura Elm və Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərəcək. Elmi tədqiqatların təşkili məsələsində ciddi yeniliklər tətbiq olunacaq. Bu barədə XQ-yə açıqlamasında Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, professor Əfsun Sucayev bildirdi:**

– İlk növbədə, elmə yanaşmanı dəyişməliyik. Başqa sözlə, Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası səlahiyyəti çərçivəsində ölkəmizdə elmin prioritetlərinə yenidən baxmalıdır. Söz yox ki, indiyə qədər mövcud olan elmi potensialımızı qoruyub saxlamalıyıq. Azərbaycan ənənəvi elm sahələri üzrə dünyaya görkəmli elm adamları bəxş edib. Sovet dövründə ayrı-ayrı istiqamətlər üzrə elmi məktəblər formalaşmışdı. Akademiklər Yusif Məmmədəliyevin neft kimyası, Zahid Xəlilovun funksional analiz, Həsən Abdullayevin yarımkeçiricilər fizikası, Əli Quliyevin aşqarlar kimyası məktəblərini xüsusi qeyd etmək olar.

# Elm intellektual mülkiyyət yaratmalıdır



Sovetlər Birliyinin dağılması ilə həmin ənənəvi sahələr böyük bir tənəzzül yaşadı. Müstəqilliyin ilk illərində, hətta elmi potensialın tamamilə yox olması təhlükəsi yarandı. Ancaq dünyada və ölkəmizdə intellektual cəmiyyətin formalaşmasında alimlərin mühüm rolunu yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə bu təhlükənin də qarşısını aldı və elm də inkişafın yeni mərhələsinə qədəm qoya bildi. Təbii ki, biz bu məktəblərin əvvəlki şan-şöhrətini özünə qaytarmaqla, inkişaf etdirib daha da irəli aparmalıyıq.

Ancaq özünü doğrultmayan, səmərəsiz fəaliyyəti olan istiqamətlərdən imtina etməkdən çəkinməməli və əvəzinə dünyanın müasir və aktual mövzuları ilə uzlaşan yeni prioritet elmi istiqamətlər müəyyənləşməlidir.

İl ərzində müdafiə olunan fəlsəfə və elmlər doktoru dissertasiya işlərinin mövzularına baxanda bu sahədə problemi açıq-aydın görmək olur. Aktual olmayan, bir-birini təkrarlayan dissertasiya işlərinə çox rast gəlinir. Açıq etiraf etmək lazımdır ki, mühüm fundamental xarakterli və praktik əhəmiyyətli elmi nailiyyətlər nəzərə çarpmır. Əldə olunan nəticələr nüfuzlu jurnallarda çap olunmur, yerli jurnallarda dərc olunsa belə, onlara istinad edilmir. Hazırda “evro 7, 8” standartlarına cavab verən yanacaqların alınmasının nəzəri əsasları ilə bağlı elmi araşdırmalar aparılır. Bizdə isə alimlər hələ də evro 2, 3 standartlarının məsələsini tədqiqat obyekti və predmeti götürür. Deməli, ya dünya elminin ən son yeniliklərindən xəbərsizik, ya da bilik və bacarıqlarımız bura qədərdir.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) çox haqlı olaraq belə dissertasiya işlərindən imtina etdikdə, əsassız narazılıqlar yaradırıq. Bu yolla biz əsl alimlərin yox, olsa-olsa, elmi dərəcəsi olanların sayını artıra, keyfiyyət yox, kəmiyyət dəyişikliklərinə nail ola bilərik. Elm və təhsil naziri Emin Əmrullayevin haqlı olaraq “elmi dərəcəsi olan şəxslərin hamısı əsl alim deyil” sözlərini də süngü ilə qarşılamamalıyıq. Sözün əsl mənasında bizə konkret tədqiqat işi, elmi istiqaməti və tədqiqatları ilə, nəzəri, praktik yenilikləri ilə elmə daha çox töhfə verə bilən alimlər lazımdır.

Təəssüf hissi ilə qeyd edə bilərik ki, ölkəmizdə elm sahəsində çalışan işçilərin və ya elmi dərəcə, ad daşıyıcılarının heç də hamısı hazırda ciddi elmlə məşğul olmurlar. Onların bir qismi, ümumiyyətlə, bu sahəyə ikinci və ya üçüncü iş yeri kimi baxır. Başqa bir qismi də sahib olduğu elmi rütbədən karyera yüksəlişində bir vasitə kimi istifadə etməyə çalışır. Axı, emlə şəxsi maraqlarını arxa plana keçirməyi bacaran, belə demək mümkünsə, “elmin fanatları” məşğul olmalıdır! Bu sahədə məmurlar yox, istedadlar olmalıdır.

***– Akademik elmə karyera psixologiyası ilə yanaşanlardan necə qurtulmaq olar?***

– Bu, dünya təcrübəsində olduğu kimi elmi işçilərin elmmetrik meyarlar əsasında qiymətləndirilməsi ilə mümkündür. Hamıya məlumdur ki, dünyada hər bir alimin fəaliyyəti məhz, elmmetrik meyarlar əsasında qiymətləndirilir. Bu meyarlar içərisində əsas parametrlər də nüfuzlu jurnallarda məqalə çapı, onlara olan ümumi istinad və “H-indeks” hesab olunur. Təəssüf ki, ölkəmizdə bu elmmetrik göstəriciləri qəbul etməyən, onun mahiyyətini belə doğru-düzgün başa düşməyən kifayət qədər alimə rast gəlinir. Onlar nəinki, özləri üçün “Web of Science”, “Scopus”, hətta “Google Scholar”, “ResearchGate”, “Mendeley.com”, “Academia.edu” və sair kimi akademik profil səhifələrinin yaradılmasına belə maraq göstərmirlər.

Həmin insanlarla eyni düşüncəni paylaşanlar da AAK-nın haqlı olaraq fəlsəfə və ya elmlər doktoru dissertasiya işlərinin müdafiəsi üçün “Web of Science”, “Scopus”, hətta “RESİ” elmi bazalarına daxil olan jurnallarda çap olunan minimum məqalə tələbini haqsız sayır, gənclərin elmə gəlməsinin qarşısını alan əsas maneə hesab edirlər. Halbuki inkişaf etmiş və ya etməkdə olan istənilən ölkədə nəinki PhD, hətta magistr təhsili alan gənc mütəxəssisin 10-dan çox məqaləsi, o məqalələrə yüzlərlə istinadları olur.

Nüfuzlu xarici jurnalda çap olunmaq, təkcə müəllifin alimliyinin təsdiqi deyil, həm də onun çalışdığı elmi müəssisənin, universitetin və ən əsası da ölkəsinin tanınması, əsərinə istinad isə həm də dünyanın onun təmsil etdiyi ölkəyə etimad göstərməsidir.

***– Günün tələbi elmdə kəmiyyət bolluğundan keyfiyyət dəyişikliklərinə keçilməsidir. Elm intellektual mülkiyyət yaratmırsa, kimə lazımdır?***

– Düşünürəm ki, ilk növbədə, universitetlərdə və institutlarda tədqiqat mühiti yaxşılaşmalıdır. Konkret kimya sahəsində elmi tədqiqatların aparılmasında əsas çətinlik müasir laboratoriya avadanlıqları və kimyəvi reaktivlərin operativ şəkildə vaxtında, asan yolla əldə edilməməsi ilə əlaqədardır. Aparılan müşahidələrə görə, lazım olan hər hansı bir elementar reagentin xaricdən sifariş edilib gətirilməsi 6 aydan tez mümkün olmur.

Məhz zəruri sifarişlərin gecikdirilməsi aparılan tədqiqatın aktuallığını əhəmiyyətli şəkildə azaldır. Çıxış yolu tədqiqat institutlarına lazım olan kimyəvi cihaz, laboratoriya avadanlıqlarının və reaktivlərin Nazirlər Kabinetinin ƏDV-dən azad olunan mallar siyahısına daxil etməsi və onların idxalı zamanı rəsmiləşdirmə qaydalarının sadələşdirilməsindədir. Əvvəl belə güzəştlər olub.

Sintezlə məşğul olan tədqiqatçıların üzləşdiyi əsas problemlərdən biri də alınan yeni birləşmələrin quruluşunu müfəssəl tədqiq edə bilməmələridir. Problemin həlli üçün mərkəzləşmiş milli laboratoriya yaradılması məqsədəuyğundur. Bu laboratoriya həm tədqiqat məqsədli, həm də kənar qurumlara (sənaye müəssisələri) ödənişli xidmət verə bilər. Bu labortatoriyaların tərkibində həmçinin yeni yaradılan proseslərin modelləşməsi və optimallaşması departamenti mövcud olmalıdır.

Artıq yuxarıda qeyd etdik ki, dünya elminə inteqrasiya prosesində müşahidə olunan ciddi problemlərdən biri elmi araşdırma mövzularında aktuallıq və müasirliyin az nəzərə alınmasıdır. Odur ki, belə mövzularda əldə olunan nəticələri nüfuzlu xarici jurnallarda dərc etdirmək mümkün olmur, yaxud dərc olunan məqalələrə də istinad edilmir. Təklif odur ki, fundamental tədqiqatlar aparan bütün elmi müəssisələrdə “SciFinder” qlobal axtarış sisteminə mərkəzləşdirilmiş qaydada çıxış əldə edilsin. Bunun vasitəsi ilə tədqiqata başlamadan əvvəl mövzunun yeni və aktual olduğunu aşkara çıxarmaq asan olacaq.

Akademik elmin daha da inkişaf etdirilməsinin əsas yollarından biri qabaqcıl elmi texnologiyaların ölkəyə gətirilməsidir. Bu gün kifayət qədər elmi tədqiqat müəssisələri var ki, onların laboratoriyaları müasir cihaz və avadanlıqlar ilə təchiz olunub, amma həmin avadanlıqlardan dəqiqliyinə qədər istifadə edə bilən mütəxəssislər az və ya yox dərəcəsindədir. Ona görə də, elmin prioritet istiqamətlərə uyğun olaraq dünyanın aparıcı elmi mərkəzlərinə təcrübə keçmək üçün gənc mütəxəssislər göndərilməli, onlar qazandığı təcrübəni Azərbaycana qayıdıb tətbiq etməlidirlər. Amma əksəriyyəti getdikləri ölkələrin elm mərkəzlərində qalıb işləməyə üstünlük verir. Bununla da qazanan tərəf xarici elmi müəssisələr, itirən isə təbii ki, biz oluruq.

Nəhayət, bütün elmi istiqamətlər üzrə multidissiplinar (fənlərarası) tədqiqatlar genişləndirilməlidir. Çünki son illər elmdə əldə onunan ən mühüm yeniliklər – kəşf və ixtiralar məhz fənlərarası elmlərin qovşağında əldə edilir. Təkcə bu il fizika, kimya və ya tibb üzrə Nobel mükafatına layiq görülən elmi işlərə nəzər yetirsək görərik ki, onlar ayrı-ayrı elm sahəsinin birgə probleminin həllini özündə ehtiva edir.

***–Müsahibəyə görə təşəkkür edirik.***

*Söhbəti hazırladı:*
***P.ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın “yaşıl” enerji zonası 4,5 min hektara çatıb

**Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) Bərpaolunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdiri Fəqan Abdurəhmanov COP29 çərçivəsində keçirilən “Mərkəzi Asiyada Enerji keçidi üzrə İnvestisiya Forumu”nda Azərbaycanda 4500 hektar ərazinin bərpaolunan enerji zonası kimi müəyyənləşdirildiyini bildirib.**



Onun sözlərinə görə, hazırda Azərbaycan qarşısına iddialı hədəflər qoyub və bunlardan biri 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasıdır. Təmiz enerjiyə keçid asan proses olmasa da, uzunmüddətli perspektivdə dayanıqlığa və enerji təhlükəsizliyinə nail olmaq üçün vacibdir.

F.Abdurəhmanov xatırladıb ki, Azərbaycanda 2027-ci ilə qədər bərpaolunan enerji mənbələri sahəsinə 2,8 milyard ABŞ dolları investisiya qoyulması ilə 8 böyük günəş və külək elektrik stansiyasının inşası, təxminən, 2 GVt həcmində bərpaolunan enerji gücü yaradılması və milli enerji sisteminə inteqrasiyası planlaşdırılır: “2 GVt sadəcə rəqəm deyil, bu, beynəlxalq şirkətlər tərəfindən həyata keçirilən qiymətləndirmələr əsasında hesablanan bir göstəricidir. Bu göstərici enerji sistemində müəyyən təkmilləşdirmələrin, modernləşdirmənin aparılması şərtilə 2030-cu illədək nə qədər bərpaolunan enerji qəbul edə biləcəyini göstərir”.

***XQ***

# COP29 Bakını dünyaya yaxından tanıdır

Pakistanlı gənc **Abdullah Kamran** ailəsi ilə birgə Bakıya gəlib:



– Çoxdan Azərbaycana gəlmək istəyirdik. Arzularımız çin oldu. Bakı nağıllarda olduğu kimi gözəldir. Əyləncə mərkəzləri maraqlıdır. Uşaqlar əylənməyi xoşlayırlar. Elə özümüz də bu cür məkanlara baş çəkirik. Bakıda “Qız qalası”, İçərişəhər tarixi-memarlıq qoruğu haqqında eşitmişdim. Eyni zamanda, Dənizkənarı Milli Parkda, Fəvvarələr meydanıda, muzeylər və sərgilərdə olduq. Baş çəkdiyimiz yerlər çox gözəldir. Biz qardaşımla təbiətdə olmağı çox sevirik. Meşələrin qırılması, yaşıllıqların məhv edilməsinin fəlakət olduğunu bilirik. Bununla yanaşı, hər birimiz dəniz, göllərin, çayların çirklənməməsi üçün məsuliyyət daşıyırıq. Dərsliklərdə də bu barədə çox oxumuşuq. Təəssüf ki, əməl etmirik.

Hazırda Azərbaycanda dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29 keçirilir. Dünyanın hər yerindən gələn nümayəndə heyətləri konfransda fəal iştirak etməyə çalışırlar. Burada iqlim problemləri üzrə həll yolları müəyyən edilir. Biz gənclər də iqlim böhranını yaradan problemlərin aradan qaldırılması üçün mükəmməl biliklər əldə etməliyik. Ekologiyanı çirkləndirməyən enerji mənbələrindən istifadəyə keçid etmək zamanı gəlib. Biz İslamabadda yaşayırıq. İqlim böhranı bütün dünyada hiss olunur.

Bakıda olduğumuz müddətdə təbiətdə də olmağa çalışdıq. Bakıda çoxsaylı parklarda olduq. Onlardan bəziləri çoxdan salınıb, digərləri isə yenidir. Şəhərinizdə çoxlu yeni ağaclar əkilib. Yeməkləriniz də əladır. Piti, qutabı çox sevdik. Ən ləziz kababın dadına Azərbaycanda baxdıq. Ötən 1 həftə ərzində regionlara da səfər etdik. Qəbələ xüsusilə xoşumuza gəldi. Ölkənizdə meşələr və bol sulu çaylar təbiətinizi füsunkar edir. Gələcəkdə Azərbaycana yenidən gəlmək istərdik. Növbəti dəfə yay aylarında səfər etməyi planlaşdırırıq.

**Natali Svadlenka** Çexiyadandır. Qədim sivilizasiyaların və müxtəlif mədəniyyətlərin qovuşduğu bir məkanda yerləşən Azərbaycanda olmaqdan məmnun olduğunu dedi:



– Mən Azərbaycanın dağlarından tutmuş Xəzər dənizinin sahilinə qədər yayılan geniş coğrafiyada təbiətin ən saf halını hiss edə bilirəm. Bakı, sanki, zamanın və məkanın ortasında dayanan bir incidir. Bu şəhər qədim və müasirliyin qovuşduğu, yer üzünün ən çox heyranlıq doğuran yerlərindən biridir. Lakin bu dəfə Bakı, sadəcə, özünün möhtəşəm mənzərəsi və arxitekturası ilə deyil, daha böyük bir missiya ilə də diqqət mərkəzindədir. Mədəniyyətin, təbiətin və tarixin iç-içə keçdiyi bu şəhərdə COP29 dünyadakı iqlim dəyişikliyinə qarşı mübarizə aparan bütün ölkələri bir araya gətirib. Başqa sözlə, Bakı gözəl qəsrləri, divarları və göydələnləri ilə deyil, həm də təbiətə olan ehtiramı ilə xatırlanacaq. COP29-un Bakıda keçirilməsi yalnız şəhərin özünün deyil, bütöv bir xalqın və millətin əzminin təcəssümüdür. Bakı bu mübarizənin qəlbi olaraq dünyanı həmrəyliyə çağıran bir şəhər kimi xatırlanacaq.

**Umair Aslam** Pakistanın Lahor şəhərindəndir. Bu günlər Bakıda keçirilən mötəbər COP29 tədbirinə dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndə heyətlərinin qatılmasının konfransın mühüm əhəmiyyət daşıdığını bildirdi:

– İnsanlar iqlim dəyişikliyinin yaratdığı təhlükələrə qarşı birgə mübarizə aparmaq üçün bir araya gəliblər. Dünyanı narahat edən iqlim dəyişikliyi ilə mübarizədə COP29-a böyük ümidlər bəslənilir. İqlimlə bağlı problemlər çoxdur. Hər kəs öz ölkəsindən, şəhərindən başlamalıdır.



Yaşıllıqların çox olmasının böyük faydası var. Çünki bu, təmiz hava yaradır, insanları idmanla məşğul olmağa, uşaqları oynamağa, qaçmağa sövq edir.

Mən ixtisasca mühəndisəm. Onu qeyd edim ki, Bakı çox xoşuma gəldi. Təmiz şəhərdir. Ən çox da insanlar qonaqpərvərlikləri ilə diqqətimi cəlb etdilər. Burada hamı yadellilərə kömək etməyə çalışır. Ölkənizdə olduğum müddətdə məbədlərdə oldum. Atəşgah məbədi, Qız qalası, Alov qüllələri, Şirvanşahlar sarayı kimi şəhərin görməli yerləri çox xoşuma gəldi.

**Julie Kirembo** Konqodandır. COP29-a görə ölkəmizdə səfərdədir. O, bu mötəbər konfransın yüksək səviyyədə təşkil olunduğunu bildirdi:



– İlk dəfədir ki, Azərbaycana gəlirəm. Təbiəti füsunkardır. Bütün dünyanın gözü Bakıdadır. Bu tədbir Azərbaycanın dünyaya olan yeni yanaşmasını və gələcəyə verdiyi önəmi ortaya qoyur. Bakı yalnız bu tədbirə evsahibliyi etməklə deyil, həm də yaşıl şəhər qurulması və ekoloji təmiz həyat tərzinin təşviqinə də önəm verir. Mən burada yalnız gözəl bir şəhər görməklə yanaşı, eyni zamanda, təmiz bir gələcək üçün atılan addımları da görürəm. Əgər hər birimiz əlimizdən gələni edəriksə, dünyamızı gözəl və yaşana bilən hala gətirə bilərik. İqlim dəyişikliyi insanların sağlamlığına birbaşa təsir göstərir, onlar bir-biri ilə birbaşa əlaqəlidirlər. Sağlamlıq həyatın, insan inkişafının, iqtisadi rifahın təməl daşıdır. Onu da deyim ki, bundan əvvəl Azərbaycanda çox sayda müxtəlif tədbirlər keçirilib. On minlərlə iştirakçı, çoxsaylı dövlət başçısı, beynəlxalq təşkilat rəhbərlərini qəbul etmək fantastik hazırlıq və gərgin iş tələb edir.

Pakistanlı **Rameez Khaliq** ölkəmizə turist kimi gəlib. Azərbaycanda bir neçə dəfə olub:



– COP29 tədbiri barədə onu deyərdim ki, yaşıl texnologiyalar sahəsindəki potensialın artırılması üçün böyük bir platforma təmin edilir. Bu tədbir mənim üçün ətraf mühitin qorunması, iqlim dəyişikliyi və dayanıqlı inkişaf barədə yeni biliklər əldə etmək naminə maraqlıdır. Zənn edirəm ki, COP29 yalnız ətraf mühitin qorunmasına yönəlmiş bir tədbir olmaqla qalmır, həm də Azərbaycan üçün böyük iqtisadi və turizm faydaları təmin edəcək. Bu cür beynəlxalq tədbirlər həm də ölkənizin dünyadakı nüfuzunu artıracaq və gələcəkdə mənim kimi daha çox turist cəlb etməyə imkan verəcək.

Həmişə səmimi və dostcanlı qarşılanmışıq. Zəngin mədəniyyətiniz var, xalq mahnılarınızı bəyənirəm. Mətbəxiniz də çox zəngindir, dadlı yeməklərin sayı-hesabı yoxdur.

***Leyla QURBANOVA,***
***Vüsalə ƏLİYEVA,***
***Rizvan FİKRƏTOĞLU,***
***Cavid QAÇAYEV***
***XQ***

COP29 Baku Azerbaijan · COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 · COP29 Baku Azerbaijan

**"Yaşıl dünya naminə həmrəylik ili"**

# Ekoturizm təbiətə sevgidir



**Ətraf mühitə qayğı ilə bağlı olan ekoturizm əhatəsində olduğumuz aləmə doğma münasibəti ehtiva edir. Bu səyahət növü təbiətin dərki və qorunması baxımından böyük önəm daşıyır.**

Bakıda COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə COP tarixində ilk dəfə daxil edilmiş "Turizm sahəsində təkmilləşdirilmiş iqlim fəaliyyəti məqsədilə qlobal əməkdaşlıq" təşəbbüsünün icrası məqsədilə Turizm Nazirlərinin Yüksək Səviyyəli Görüşü, eləcə də turizmin iqlim dəyişikliyində yeri üzrə bir sıra panel müzakirələr və əlavə tədbirlər keçirilib. Görünən budur ki, ölkəmiz olduqca cəlbedici turizm məkanıdır.

Bu ilin yanvar–oktyabr aylarında Azərbaycana 2 milyon 209 min 720 xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs səfər edib. Dövlət Turizm Agentliyinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 28 faiz çoxdur və əcnəbilərin Azərbaycana marağının getdikcə artdığını göstərir. Rusiya, Türkiyə, Hindistan, İran, Gürcüstan, Səudiyyə Ərəbistanı və sair ölkələrin turistləri üçün burada ekoturizm də cəlbedici sahədir. Başlıca hədəflərindən biri ətraf mühitdən zövq almaq olan ekoturizm botaniki, zooloji, geoloji və sair kimi turlar vasitəsilə təbiətlə bağrıbadaşlıq yaradır. Macəraseverlər ekoturizmə daha çox meyilli olurlar.

Azərbaycanın bir çox qoruqlarına və milli parklarına, eləcə də kənd təsərrüfatı sahələrinə aid ekoturist səyahətləri xəritələri var. Turlar vasitəsilə təbiətin ekzotik "möcüzə" və "gözəlliklərini" müşahidə ilə bərabər, ekoloji problemlərin aşkarlanması və onların həllində fəal iştirakın da təmin edilməsi nəzərdə tutulur.

Üç həftə əvvəl Dövlət Turizm Agentliyi Azərbaycanın təbiət ərazilərini tanıtmaq və göstərmək, ekoturizm fəaliyyətlərini təşviq etmək məqsədilə Bakı və Abşeron ərazilərinə, eləcə də Xızı rayonuna infotur keçirib. Müxtəlif turoperator və turagentliklərin nümayəndələri, videobloger və müstəqil bələdçilərin iştirakı ilə reallaşan infotur çərçivəsində Abşeron və Altıağac Milli parkları, habelə təbiət və ekoturizm potensialı olan digər ərazilər ziyarət edilib. Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq keçirilən infoturlarlarda əsas məqsəd bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsini təmin etmək, bölgələrdə turizm sənayesinin fəaliyyət miqyasını genişləndirmək, turizm vasitəsilə yaşıl artım konsepsiyasını dəstəkləmək, həmçinin bunun nəticəsində regionlarda məşğulluq səviyyəsini artırmaqdır.

Turistlərin ölkəmizdə ən çox üz tutduqları ekoturizm məkanlarından biri Qobustandır. Burada Böyükdaş dağının yuxarı səkisini əhatə edən əsas ekskursiya marşrutu ilə yanaşı, "Böyükdaş dağının aşağı səki marşrutu", "Kiçikdaş dağı marşrutu", "Cingirdağ dağı marşrutu", "Ekstremal ekskursiya marşrutu" və uşaqlar üçün "Qobustan – interaktiv turu" fəaliyyət göstərir. Həmçinin istəyə uyğun olaraq Böyükdaş dağının yuxarı səkisində "Gecə turu" da təşkil olunur.

Göygöl Milli Parkı gözəlliyi ilə göz oxşayır. Göygöl–Maralgöl, Zəligöl–Gəlinqayası, Qədim tağlı daş körpü, Kəpəz marşrutları silinməz yaddaş tabloları yaradır. Digər istiqamətlərdə Zaqatala, İlisu, Pirqulu, Şirvan, Qarayazı, Qızılağac, Hirkan, Altıağac qoruqları, yasaqlıqlar yurdumuzun gözəllik brendləridir. Sadəcə, bu məkanlarda ekoturizmin müasir səviyyədə təşkili üçün səylər əsirgənməməlidir.

**Azərbaycan Ekoturizm Assosiasiyası İdarə Heyətinin sədri Samir Dübəndi bizimlə söhbətində dedi:**

– Bildiyiniz kimi, COP29 çərçivəsində bir sıra mövzular müzakirə edilir. Sərf-nəzər olunan qlobal xarakterli məsələlərdən biri də turizmin karbon izini necə azalda, səyahət təcrübəsini yaxşılaşdıra biləcəyi və daha yaşıl, daha davamlı gələcəyə necə töhfə verə biləcəyi mövzusudur.

Ekoturizm fəaliyyətlərinin bir çoxunun inkişafı üçün ölkəmizdə müxtəlif imkanlar mövcuddur. Ölkənin, demək olar ki, bütün ərazisi, xüsusilə də Qarabağ və Şərgi Zəngəzur təbii, maddi və qeyri-maddi mədəni ekoturizm ehtiyatları ilə zəngindir. Başqa sözlə, etno-mədəni, arxeoloji, aqro, qastro, yaşıl, kənd turizmi, ümumilikdə isə, ekoturizm kimi istiqamətlərin inkişafı üçün bütün zəruri imkanlar mövcuddur. Düşünürəm ki, COP29 kimi tədbirin Azərbaycanda keçirilməsi, Azərbaycan hökumətinin yaşıl transformasiya ilə əlaqədar strateji addımları, cənab Prezidentin sərəncamı ilə alternativ energetikanın inkişafı, ağıllı və yaşıl kəndlərin və şəhərlərin yaradılması kimi tədbirlərin məntiqi davamı ölkədə ekoloji mədəniyyətin təkmilləşməsi və ekoturizmın inkişafı olmalıdır.

Əlbəttə, bu cür mütəxəssis yanaşmaları fərəh doğurur. Amma təəssüflə bunu da qeyd edək ki, 30 illik erməni işğalı ilə Qarabağ və Şərqi Zəngəzurda bir sıra təbiət muzeylərimiz məhvə məruz qalıb, ermənilər ekoloji tarazlığın pozulması üçün əllərindən gələni ediblər. Zəngilanın dünyada 2-ci, Avropada isə 1-ci tarixi və nadir çinar meşəsi qırılıb, ağacların kökləri yandırılıb. Bu, bəşəri cinayətdir. Oxçu çayına axıdılan zərərli maddələr nəticəsində su çirkləndirilib. Kəlbəcərdə, Laçında, Şuşa yaxınlığındakı Topxanada yeraltı və yerüstü sərvətlərin məqsədli şəkildə talan edilməsi, 60 min hektardan çox meşə fondunun dağıdılması ilə bölgədə ekoloji tarazlıq pozulub. Bu ərazilərin zəngin flora və faunası hələ də qan ağlayır. Bütün bu törədilənlər ermənilərin Azərbaycanın milli sərvətlərinə qarşı həyata keçirdiyi əsl soyqırımıdır.

Nəhayət, xüsusi vurğulamaq lazımdır ki, ölkə inkişafının prioritet istiqamətlərindən olan ekoturizmin inkişafı təbiətə qayğının daha da artırılması ilə cəmiyyətin daha sağlam gələcəyinin təmin olunması deməkdir.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Daşkənddə diaspor görüşü



**Özbəkistan paytaxtında Türk Dövlətləri Təşkilatının (TDT) diaspor qurumları rəhbərlərinin 6-cı iclası keçirilib.**



Ölkəmizi Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Elşad Əliyevin rəhbərliyi ilə nümayəndə heyətinin təmsil etdiyi iclasdan öncə milli mədəniyyət mərkəzlərinin xalq sənətkarlıq nümunələrindən ibarət sərgi ilə tanışlıq olub.

Sonra başlanan tədbirdə Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin sədri Rüstəm Qurbanov çıxış edərək, qardaş ölkədə bütün millətlərin dinc, qarşılıqlı hörmət çərçivəsində öz adət və ənənələrini, mədəniyyətlərini qoruyub saxlayaraq inkişaf etdirdiyini və onların ictimai işlərdə fəal iştirakının təmin edildiyini vurğulayıb.

Elşad Əliyev diaspor quruculuğu sahəsində Azərbaycanda görülən işlər haqqında məlumat verib. Sonra digər ölkələrin nümayəndələri çıxış ediblər. TDT-yə üzv dövlətlərin diaspor təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi, diasporların problemləri və onların həlli ilə bağlı müzakirələr aparılıb.

Bildirilib ki, hazırkı təlatümlü dövrdə bəşəriyyətin üzləşdiyi mürəkkəb problemlərin və təhlükələrin birgə həllində, müxtəlif təhdidlərin qarşısının alınmasında bütün xoşməramlı insanların, xüsusən də qonşu dövlətlərin, nüfuzlu beynəlxalq təşkilatların səylərini birləşdirmək lazımdır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

**Yeni kitablar**

# Yaşıl dünyanın əlvan şeiriyyəti

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Azərbaycan Yazıçılar Birliyi təbiət mövzusunda şeirlərdən ibarət "Yaşılım, yaşılım, hara gedirsən" adlı şeirlər toplusu çap etdirib.**




Bu barədə "XQ"-yə Azərbaycan Yazıçılar Birliyindən bildirilib. AYB-nin sədri, Xalq yazıçısı Anar kitaba "Dünyanın yaşıllıq həsrəti" başlıqlı "Ön söz" yazıb.

Nəşrin ideya müəllifi AYB sədrinin müavini Rəşad Məcid, tərtibçisi AYB-də multikultural məsələlər üzrə məsul şəxs Xatirə Fərəcli, redaktoru Əməkdar mədəniyyət işçisi şair Vaqif Bəhmənlidir. Üz qabığında görkəmli rəssam Səttar Bəhlulzadənin "Mənzərə" əsəri verilən kitab "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin dəstəyi ilə çap olunub. İctimai Birliyin rəhbəri Arzu Bağırovanın "Köksü gözəl qaya dağlara gün dəyəndə..." sərlövhəli məqaləsi də nəşrdə yer alıb.

"Kitabi-Dədə Qorqud"dan başlamış müasir Azərbaycan şairlərinin yaradıcılığına qədər böyük bir dövrü əhatə edən, təbiətə həsr olunmuş poetik əsərlərdən nümunələr toplanmış nəşrin adı mərhum şair Eldar Baxışın şeirindən götürülüb. Təbiətə şair baxışlarının ifadə olunduğu bu şeirlərdə təbiət gözəlliklərinin tərənnümünə geniş yer verilir, yaşıllığın dəyərinə və qorunmasına poetik vurğu salınır. S.Bəhlulzadə ilə yanaşı, kitabda digər fırça ustalarının da rəsm əsərləri var.

"Yaşılım, yaşılım, hara gedirsən" kitabı bədii zövq qaynağı olmaqdan əlavə, təbiəti və ədəbiyyatı sevən oxucular üçün tematik baxımdan sanballı ədəbi mənbədir.

*XQ*

# Damcıya da qıymayın!



**Gözümüzün nuru sudur, nuru su,**
**Qoyun qalsın həmişə də duru su!..**
**Kimin fikri lillənibsə durulsun,**
**Dərya nədir, damcıya da qıymayın!**

**Su  hardasa, həyat həmin tuşdadır,**
**(Susuz söz də dil-ağızda turş dadır!)**
**Su ki axıb hansı səmti tuşladı,**
**Ordan nə göz,**
**Nə də ürək doymayır.**

**Bu torpağı çox bilməyin susuz ha,**
**Sıxan olsa, daşından da su sızar...**
**Qayaları su verib çox susuza,**
**Quraqlığa**
**Hələ boyun əyməyib...**

**Su canıdır hər bağçanın, hər bağın,**
**(Susuz çöl də yazda üzə tor baxıb!..)**
**Su canıdır axı ana torpağın,**
**Bulanmağa,**
**Bulanmağa qoymayın!..**

*Ələsgər ƏLİOĞLU*

# "And olsun o qızılı yarpaqlara..."

*Payızın min bir rəngi*



**Bugünlərdə Bakıda keçirilən COP29 tədbirləri silsiləsindən "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqəsində Fransadan gəlmiş soydaşımız – dünya şöhrətli fotoqraf Reza Deqati deyib: "60 ildən bəri bu sənətlə məşğul olmağıma baxmayaraq, azyaşlı uşaqların təbiət mövzusunda çəkdikləri fotoşəkillər məni heyrətləndirdi".**

Biz də Böyük Britaniyada yaşayan alim, şair dostumuz Rauf Qaraişığın qara (gur) kölgələrə işıq salaraq çəkib sosial şəbəkədə paylaşdığı təbiət fotolarına heyranlıqla baxırıq. O özünü peşəkar fotoqraf saymır, sərgilədiklərini olsa-olsa, hobbi sayır. Amma elə rakursdan, elə işıq bucağından fotolar çəkir ki, "əhsən" deməmək olmur. Başdan-başa estetik zövqdür.

Rauf çəkən dağa baxırıq – ürəyimiz dağa dönür, çiçəyə baxırıq – ləçəkləri tutrəşib ətir saçır, böcəyə baxırıq, – vızıltısı gəlir, ağaca baxırıq – bəzəkli gəlinə oxşayır, yağışa baxırıq – nur damcıları "rəqs eləyir". Qısası, Rauf peyzajlarında rəngləri rəssam kimi "güldürür". Onun çəkdiklərinə foto-şeirlər də demək olar. Özü demişkən, "And olsun o qızıl yarpaqlara" ki, belədir...

BMT-nin İqlim Dəyişmələri üzrə mötəbər məclis günlərində Rauf Qaraişığın təbiət mövzusunda çəkdiyi, "təbiəti sevək, qoruyaq" dediyi fotolardan seçmələri təqdim edirik.

*XQ*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Uşaqlar bugünümüzün əmanəti, sabahımızın zəmanətidirlər

**Ölkəmizin aydın gələcəyi bu günün usaqlarının əlindədir, onları müdafiə etmək isə hər bir vətəndaşın ümdə vəzifəsidir. Dünyada olduğu kimi, Azərbaycanda da, uşaq hüquqlarının təmin olunması, uşaqların sağlamlığı, təhsili, onların əsl şəxsiyyət kimi yetişməsində dövlət səviyyəsində silsilə tədbirlər həyata keçirilir.**

**Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin istiqamətlərini təşkil edir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



Hər bir cəmiyyətin məqsədi odur ki, uşaqlar böyüyərək şərəfli, təhsilli və ən əsası layiqli vətəndaş kimi yetişsin və öz dəyərli vəzifə və missiyalarını yerinə yetirə bilsinlər. Müasir dövrdə belə, dünyanın müxtəlif ölkələrində uşaqlar öz hüquqlarından istifadə edə bilmirlər. Dünya uşaqları bəzən aqressiya qurbanlarına çevrilir. Belə ki, onların əməyi istismar olunur, məcburi olaraq, diləndirilir, hətta zorla narkotik vasitə aludəçisinə çevrilə bilirlər. Bəzən uzunmüddətli işlərdə istirahətsiz işləməyə məhkum olunur, müxtəlif fiziki, mənəvi, məişət, hətta cinsi zorakılığa məruz qalırlar, onların təhsil, səhiyyə huquqları da əlindən alınır. Bu proses geniş hal alsa da, təəssüf ki, köklü şəkildə həllini tapa bilmir.

Belə bağışlanmaz halların qarşısının alınması və dünyanın bu kimi önəmli məsələlərə diqqətinin yönəlməsi üçün bir sıra addımlar atılır və atılmaqdadır.

20 Noyabr Beynəlxalq Uşaq Hüquqları Günü olaraq, tarixə düşüb. 1989-cu il noyabr ayının 20-də BMT-nin Uşaq Hüquqları Konvensiyası qəbul olunub. Bu konvensiya uşaqların hüquqlarının qorunması sahəsində ən mükəmməl beynəlxalq sənəd olmaqla, özündə 189 ölkəni birləşdirir. Azərbaycan Respublikası da həmin ölkələr sırasındadır. BMT-nin 1989-cu ildə qəbul etdiyi və qısa müddət ərzində bir çox dövlətlər tərəfindən imzalanan Uşaq hüquqları Konvensiyasında belə bir həqiqət öz əksini tapır: hər hansı bir ölkənin gələcəyinə bəslənilən ümidlər onun vətəndaşlarının gənc nəsli ilə bağlıdır. Bu mənada, bizim də taleyimiz, gələcəyə xoş ümid və arzularımız bu gün təlim-tərbiyə ocaqlarında təhsil və tərbiyə alan gənclərimizdən asılıdır. Lakin bu, eyni zamanda, bugünkü gənc nəslə necə təlim və tərbiyə verməyimizdən, mövcud təhsil sistemindən, bu sistemin aparıcı qüvvəsi olan pedaqoq-müəllimlərdən, təhsil işçilərindən asılıdır.



Çağdaş dövrümüzdə uşaqların düzgün tərbiyəsində onların öz hüquqlarını və mənafelərini müdafiə edən qanunlar, normativ aktlar barədə məlumat almaları olduqca vacibdir. Uşaqların erkən yaşlarından öz hüquqları barədə məlumatlandırılması cəmiyyət və dövlət üçün yararlı olan vətəndaşların yetişdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq normativ aktlar və Azərbaycanın milli qanunvericiliyi uşaqların hüquqlarının qorunması baxımından əhəmiyyətli təminatlar verir. Uşaq hüquqları haqqında qanuna və Ailə Məcəlləsinə əsasən, uşaq dedikdə, 18 yaşına çatmamış və hələ tam əmək qabiliyyəti əldə etməmiş şəxslər başa düşülür.

Uşaqların hüquqlarının qorunması tədbirlərinin hüquq normaları şəklində təsbit olunacağı yeni sənədin qəbulu zərurətini meydana çıxardı. 1979–1989–cu illərdə bir çox dünya ölkələri mütəxəssislərinin iştirakı ilə BMT-nin İnsan Haqları üzrə Komissiyası Uşaq hüquqlarına dair konvensiyanın mətnini hazırladı. Əvvəlki sənədlərdən fərqli olaraq 54 maddədən ibarət konvensiya uşaqların cəmiyyətdə həyatı və şəraiti ilə əlaqədar, demək olar ki, bütün məqamları əhatə edir. Konvensiyanı qəbul edən dövlətlər uşaqlara münasibətdə görüntülər və milli qanunvericilikləri BMT-nin konvensiyasına uyğun şəkildə dəyişdirilməlidirlər. Uşaq hüquqlarına dair konvensiya 20 noyabr 1989-cu ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunub və 2 sentyabr 1990-cı ildən qüvvəyə minib.

Uşaq hüquqlarına dair konvensiyada bəyan olunur ki, uşaq cəmiyyətdə müstəqil həyata hazırlanmalı və BMT-nin nizamnaməsində göstərilən ideyalar ruhunda tərbiyə olunmalıdır. Konvensiyaya qoşulan dövlətlər hər bir uşağın yaşamaq hüququnu qəbul edirlər. Üzv dövlətlər uşağın yaşamasını və sağlam böyüməsini maksimum mümkün səviyyədə təmin etməlidirlər. Uşaq doğulandan dərhal sonra qeydiyyata alınır və doğulan andan onun vətəndaşlıq almaq, ad almaq da mümkün olduqda öz valideynlərini tanımaq və onların qayğısını görmək hüququ var. Üzv dövlətlər, həmçinin qanunda nəzərdə tutulmayan hallarda uşağın öz valideynlərindən ayrılmamasını da təmin etməyə borcludurlar. Konvensiyaya qoşulan dövlətlər uşağın öz fikrini sərbəst ifadə etmək, düşüncə, din və vicdan azadlığına təminat verirlər. Konvensiyada qeyd olunur ki, üzv dövlətlər uşağın sərbəst ictimai təşkilatlarda birləşmək və sərbəst toplaşmaq hüququnu da təmin edirlər. Sənəddə bəyan olunur ki, üzv dövlətlər uşaqların hər cür fiziki və psixi təsirlərdən, təhqir və zorakılıqdan, istismardan qorunması üçün bütün zəruri qanunverici, inzibati, sosial və maarifləndirmə tədbirlərini görməlidirlər.

Ailə qayğısından məhrum olan uşaqların qayğısına dövlət qalmalıdır. Üzv dövlətlər uşağın yüksək səhiyyə xidmətlərindən istifadə etmək hüququnu tanıyırlar. Üzv dövlətlər çalışmalıdırlar ki, heç bir uşaq bundan məhrum olmasın. Uşaqların sosial müdafiə sisteminin verdiyi imkanlardan yararlanmaq hüququ da tanınır. Dövlət bunun üçün məsuliyyəti öz üzərinə götürməlidir. Konvensiyaya qoşulan dövlətlər uşaqların, eləcə də, təhsil almaq hüququnu tanıyırlar və uşaqların bu hüquqdan bərabər şəkildə bəhrələnməsi üçün pulsuz və məcburi ibtidai təhsil sistemini tətbiq edirlər. Həmçinin uşağın yaşına uyğun istirahət, əyləncəli oyun və tədbirlərdə iştirakını, sərbəst şəkildə yaradıcılıqla məşğul olmaq hüququnu da tanıyırlar. Konvensiyaya qoşulan dövlətlər 15 yaşına çatmayan uşaqların birbaşa döyüş əməliyyatlarında iştirak etməməsi üçün bütün mümkün olan tədbirləri görməlidirlər.

Azərbaycan Respublikası bu konvensiyaya qoşulub və milli qanunvericilikdə müvafiq dəyişikliklər həyata keçirilib. Uşaq hüquqlarının qorunması ilə bağlı sənədlər sırasında BMT-nin "Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınması haqqında BMT-nin əsas prinsipləri" haqqında qətnaməsini qeyd etmək lazımdır. Bu prinsiplər "Ər-Riyad prinsipləri" adlanır.

Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bu günün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ümummilli lider Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".

Doğrudan da belədir. Hər bir millətin gələcəyi uşaqların bugünkü rifahından asılıdır. Uşaqların cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşması istiqamətində ən böyük rolu ailə oynayır. Ailə bəşər həyatının ilk müəssisəsi, müqəddəs bir qaladır. Bu qala gələcəyin təminatçısı olan uşaqların təkamül həyatında, sağlam xarakterin formalaşmasında, uşağın xeyirxahlıq və mehribanlıq zirvəsinə yol almasında müstəsna rola malikdir. İlahi əmanətlər olan körpələrin dünyagörüşü, həyat prinsipləri, enişli-yoxuşlu həyata hazırlanması, dünyaya baxışı və onun uca dəyərlərə yönəldilməsi ailəyə bağlıdır. Ailə digər tərəfdən həm də bir məktəbdir. Bu məktəb nə qədər elmi və mənəvi cəhətdən zəngin, sevgi ilə dolu olarsa, bax o zaman orada böyüyən, boya-başa çatan uşaq cəmiyyət üçün faydalı olacaq. Ailə qalasının və o qalanın təməli olan övladın qoruyucusu və həyata düzgün hazırlanmasının fədakarı isə anadır. Ana nurlu sözləri ilə tərbiyə qaynağı, aydın və məntiqli düşüncələri ilə övladının görən gözü, həyatda davranışı ilə ona örnək olan bir şəxsiyyətdir. Məhz bu səbəbdən "Analarımız savadlı olarsa, cəmiyyətimiz savadlı olacaq" – deyib müdriklərimiz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalamışdır. Sərəncama görə, 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Ölkəmizdə uşaq ilinin elan olunması bir daha sübut edir ki, dövlət daima uşaqlara olan qayğını ön plana çəkir və onların xoşbəxt gələcəyini təmin etmək üçün əlindən gələni edir. Cox zaman insanlar xoşbəxtliyi fərqli yerlərdə axtarırlar. Amma ətraflarına nəzər salsalar xoşbəxtliyi onlara bəxş edəcək varlıqların yanlarında olduğunu görərlər. Həyatımızda bu qədər gözəlliklər olduğunu bilərək, gəlin, xoşbəxtliyi, sevgini, təbəssümü başqa yerlərdə deyil, bu balaca fidanların gözlərində axtaraq və onların qar kimi bəmbəyaz dünyasını daima sevgi ilə bəzəyək. Çünki, bu körpələr biz böyüklərdən həyatı öyrənməyə çalışır, gələcəkdə kim olacaqlarını ata və analarına, müəllimlərinə, böyüklərə baxaraq öyrənirlər. Gələcəyimizin xoşbəxtlik və sevgi dolu bir dünya olmasını istəyiriksə, övladlarımızı düzgün tərbiyə etməliyik.

*AynurT URAN*

**Planetimizdə baş verən təbii fəlakətlər, qlobal istiləşmə, sunamilər, daşqınlar, torpaq sürüşmələri və digər kataklizmlər hamını narahat etməkdədir. Hərdən düşünürsən ki, bəlkə bütün bunlar təbiətin bizə verdiyi dərs, insanın onu istismar etməsinə qarşı üsyanıdır?**

# "Yaşıl dünya"nı necə qoruyaq?

Etiraf edək ki, biz təbiətdən daha çox şey qoparmağa çalışırıq, eyni zamanda da tələsir və heç nəyin fərqinə varmırıq. Ana təbiətin bizə əmanət edilməsi müqəddəs kitabımız Qurani-Kərimdə də qeyd olunur. Bildirilir ki, Allah insanları yoxdan yaradaraq, mükəmməl orqanlara sahib etdi və bu dünyada hər şeyin ixtiyarına çevirdi. Bəşər övladının həyatını təbiətdən ayrı təsəvvür etmək mümkün deyil. İnsanın dəyəri həyatı boy ailəsinə, cəmiyyətə və ətraf mühitə qarşı sərgilədiyi münasibətlə ölçülür. Amma biz insanlar irqindən, dinindən, milli mənsubiyyətindən, yaşadığı yerdən asılı olmayaraq həyatımızı daha firəvan qurmaq üçün təbii ehtiyatlardan israfçılıqla istifadə edir, götürdüyümüzün yerini doldurmağa təşəbbüs belə göstərmirik. Nəticədə ekoloji tarazlıq pozulur. Biz hər gün ekoloji böhranın mənfi nəticələri ilə qarşılaşırıq: havanın və suyun çirklənməsi, heyvan və bitki növlərinin nəslinin kəsilməsi, səhralaşma və iqlim dəyişikliyi və sairə. Ekoloji problemlərin əsas səbəblərindən biri sənaye istehsalı və ekosistemlərin məhvinə səbəb olan təbii ehtiyatların böyük istehlakıdır. Digər səbəb ekosistemləri məhv edən və onların dağılmasına səbəb olan ehtiyatlardan qeyri-sabit istifadədir.



Bəli, hazırda planetdə müşahidə olunan iqlim dəyişmələri ekoloji problemlərlə sıx bağlıdır. İqlim temperaturunun və rütubətin artması bitki örtüyü və faunada, ekosistemlərdə dəyişikliklərə və insan sağlamlığı üçün risklərin artmasına səbəb olur. Ekoloji problemlərin həlli cəmiyyətdən və hökumətlərdən kompleks yanaşma tələb edir. Ətraf mühitin qorunması, ekosistemlərin bərpası, dayanıqlı və ekoloji cəhətdən təmiz texnologiyalara keçid üçün ciddi iş görmək lazımdır.

Ətraf mühitin saflaşdırılmasında, mühafizəsində meşələrin, yaşıllıqların rolu ölçüyəgəlməz dərəcədə böyükdür. Məqsədimiz təbiəti və ətraf mühiti qorumaq, təbiətin bizə bəxş etdiyi resurslardan məsuliyyətli və şüurlu istifadə üçün həll yolları axtarmaqdır. Bu istiqamətdə respublikamızda ardıcıl tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi mövcud problemlərin həllinə mühüm stimuldur. Sərəncamda ölkəmizin, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi, iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunur. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və sabit enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarına nəqli də Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərdəndir.

Cəmiyyətdə ətraf mühitin mühafizəsi və ekoloji sabitlik məsələlərinin ön plana çıxdığı bu gün ekologiyamızın təmizlənməsi və yaşıl dünyanın yaradılması məsələsinə diqqət yetirmək xüsusilə vacibdir. Havanın, suyun və torpağın çirklənməsi, təbii sərvətlərin yoxa çıxması və təbii ekosistemlərin məhv edilməsi kimi ekoloji problemlər təkcə bizim sağlamlığımızı və rifahımızı deyil, həm də genefondumuzu, gələcək nəsilləri təhdid edir. Təmiz ətraf mühit və yaşıl dünya yaratmaq istəyi cəmiyyətin bütün üzvlərinin əsas vəzifəsi olmalıdır. Ən kiçik hərəkətlərinin ətraf mühitə təsir etdiyini başa düşmək vacibdir. Biz dərk etməliyik ki, planetimiz bizim yeganə evimizdir və yalnız birgə səylərlə onu yaşamaq üçün daha yaxşı vəziyyətə gətirə bilərik.

Ən ciddi problemlərdən biri havanın çirklənməsidir. Tullantıların və zərərli maddələrin atmosferə atılması tənəffüs orqanlarının xəstəliklərinə və qlobal iqlim dəyişikliyinə səbəb olur. Bu problemi həll etmək üçün sənaye müəssisələrindən atmosferə atılan tullantıların azaldılması, Günəş və külək kimi ekoloji cəhətdən təmiz enerji mənbələrinə keçmək üçün tədbirlər görmək lazımdır.

Digər aktual problem suyun çirklənməsidir. Tullantı sularının sistemsiz təmizlənməsi və pestisidlərin istifadəsi suyun keyfiyyətinin pisləşməsinə, daha doğrusu, onun "ölümünə" səbəb olur. Bu problemin həll olunması üçün tullantı sularının səmərəli təmizlənməsini və su obyektləri ətrafında ekosistemlərin formalaşmasını təşviq etməyə ehtiyac var.

Yaşıl dünyaya doğru mühüm addım təbii ehtiyatların qorunması və bərpasıdır. Meşələr, okeanlar və digər ekosistemlər bərpa olunmayan ehtiyatlardır və onlara yaxşı qulluq etmək, qorumaq bizim borcumuzdur. Bunun üçün meşəbərpa işlərini aparmaq, qanunsuz ağac kəsilməsinin qarşısını almaq, qoruqların salınması və mühafizə olunan təbiət ərazilərini təşkil etmək lazımdır.

Ekologiyamıza və yaşıl dünyamıza qayğı göstərərək, bu prosesin fəal iştirakçıları olmalıyıq. Biz birlikdə ətraf mühitin mühafizəsi və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi ilə bağlı təşəbbüsləri dəstəkləməklə qərarların qəbuluna təsir edə və səsimizi eşitdirə bilərik.

Təmiz ekologiya və yaşıl dünya bizim faydalanmalı və gələcək nəsillərə ötürməli olduğumuz qiymətli miraslardır. Təbii sərvətlərdən məqsədyönlü istifadə, təmiz hava, su və torpağa qayğı, bioloji müxtəlifliyin qorunması bizim və gələcək nəsillərin təbiətlə harmoniyada yaşaya biləcəyi dünyaya aparan yoldur. Ekoloji problemlərin həlli əsas prioritetimiz olmalıdır və yalnız bu halda nəsillərimizin təmiz və təhlükəsiz ətraf mühitə sahib olmaq hüququnu təmin edə bilərik.

*Azər MUSTAFAYEV*

# Kənd təsərrüfatını istiləşmənin hücumundan xilas edək!

**Kənd təsərrüfatı dünyada iqtisadiyyatın ən mühüm sektorlarından biridir. Halbuki fermerlər, kənd təsərrüfatının istehsalı ilə məşğul olanlar iqlim dəyişikliyindən ən çox zərər çəkənlərdir.**

Bu sözləri kənd təsərrüfatı naziri Məcnun Məmmədov COP29 çərçivəsində keçirilən Ərzaq, Kənd Təsərrüfatı və Su Gününün rəsmi açılışı mərasimində deyib. O, iqlim dəyişikliyinin aqrar sektora daha çox təsir göstərdiyini bildirib və bu təsirlərə yüksək temperatur, proqnozlaşdırılmamış leysanlar, torpağın deqredasiyası, habelə su qıtlığının daxil olduğunu, eləcə də bu sahədə çalışanların həyat tərzinə ciddi ziyan vurduğunu vurğulayıb.



M.Məmmədov sözlərinə əlavə edərək bildirib ki, bütün deyilənlərə baxmayaraq, qlobal iqlim dialoqlarında sözügedən narahatlıqlara çox az diqqət yetirilir. İqlim dəyişikliyinin təsirlərini ilk hiss edən fermerlərə ən son dəstək olunur. Bakı Harmoniya İqlim Təşəbbüsünün əsas məqsədi də bu məsələnin daim diqqət mərkəzində saxlanılması ilə bağlıdır.

Nazir vurğulayıb ki, harmoniyanın məqsədləri çox sadə, lakin vacibdir: "Harmoniya kənd təsərrüfatı, qida və su sahələrində təşəbbüsləri, koalisiyaları və tərəfdaşlıqları birləşdirən mərkəzi platforma rolunu oynayacaq. Bu platforma fermerlərə praktiki biliklər, rəqəmsal vasitələrə çıxış və dünyanın ən yaxşı təcrübələri və innovasiyaları ilə əlaqə yaratmaq üçün yer təmin edəcək. Həmin platformanı yaratmaqla biz fermerlərə təsərrüfatları və gələcəkləri üçün düzgün, davamlı seçimlər etmək imkanı veririk".

Məsələ ilə bağlı ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev isə qeyd edib ki, burada əsas məqsəd kənd təsərrüfatı transformasiyasını yüksək səviyyədə dayanıqlı həyata keçirmək və birlikdə işləməkdir. Bu təşəbbüs sayəsində əməkdaşlıq daha da güclənəcək, investisiyaların kənd təsərrüfatı sahəsinə axını artacaq və özəl banklar da bura cəlb olunacaq. Digər əsas məqsəd fermerlərin gücləndirilməsidir".

Onun sözlərinə görə, fermerlər tərəfindən kənd təsərrüfatı sahəsində emissiyalar və tullantılar çoxdur. Hər bir şəxsin qarşısına ərzaq təhlükəsizliyini təmin etmək vəzifəsi qoyulur. Qadın fermerlərin iqlim dayanıqlılığının güclənməsində böyük rolu var. Fermer qruplarının da bu təşəbbüsə qoşulmaları zəruridir.

*XQ*

# Azərbaycanın Milli Uyğunlaşma çağırışı

**COP29-un baş danışıqçısı Yalçın Rəfiyev "COP29-da Uyğunlaşma Fəaliyyətinin Sürətləndirilməsi: Milli Uyğunlaşma Planlarının formalaşdırılması və həyata keçirilməsinin sürətləndirilməsi" mövzusunda keçirilən konfransda Azərbaycanın bu ayın əvvəlində özünün Milli Uyğunlaşma Planını (MUP) təqdim etdiyini bildirib.**

O, ölkələri 2025-ci ilə qədər öz MUP-larını təqdim etməyə çağırıb: "Bu bizə 2030-cu ilə kimi onların həyata keçirilməsində irəliləyişə nail olmağa imkan verəcək. Bu planlar ən yaxşı təcrübəni necə paylaşdığımıza, texnologiyanın ötürülməsinə və bir-birimizin ambisiyalarına necə dəstək olacağımıza yol göstərəcək".

Onun sözlərinə görə, uyğunlaşma indi hər zamankından daha çox siyasi iradəyə ehtiyac duyur.

*XQ*

# İqlim konfransında Bakının insan inkişafı təşəbbüsü



**COP29 çərçivəsində Elm və Təhsil Nazirliyinin də bir sıra vacib iclas və sessiyaları təşkil edilib. Bu tədbirlərdə əsas məqsəd gənclərin ekoloji problemlərin həllində fəal iştirakını təmin etmək, qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizədə onların rolunu artırmaqdır.**

"İqlim dayanıqlılığı üçün Bakı İnsan İnkişafı təşəbbüsü" mövzusunda yüksəksəviyyəli birgə iclas COP29 Sədrliyi tərəfindən, Elm və Təhsil Nazirliyi, eləcə də Asiya İnkişaf Bankı, Yaşıl İqlim Fondu, Beynəlxalq Əmək Təşkilatı (ILO), UNESCO, UNICEF və ÜST kimi beynəlxalq qurumların tərəfdaşlığı ilə keçirilib. Burada əsas məqsəd insan inkişafına investisiyanın iqlim dayanıqlılığının təmin edilməsinin əhəmiyyətini vurğulamaq olub. Təhsilin rolu üzrə aparılan müzakirələrdə gələcək nəsillərin iqlim problemləri ilə mübarizə üçün zəruri bilik və bacarıqlarla təmin edilməsi üçün "İqlim dostu" tədris proqramlarının hazırlanmasının vacibliyi qeyd edilib. Elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, dayanıqlı cəmiyyət fərdlərin ətraf mühit çağırışları qarşısında uyğunlaşması üçün lazımi bilik, bacarıq və dəstək sistemləri ilə təmin edilməsidir. Bakı təşəbbüsü gəncləri iqlim dəyişiklikləri ilə mübarizədə davamlı tədbirlərin fəal iştirakçıları kimi gücləndirməyi hədəfləyir.

İclas çərçivəsində Azərbaycan Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə ətraf mühit savadlılığı ilə bağlı biliklərin ölçülməsi təklif edilib. Bu təşəbbüs Azərbaycanın qlobal iqlim təhsili standartlarına dəstəyinin göstəricisi kimi qiymətləndirilib. Həmçinin məktəblərdə iqlim şüurunun artırılması, müəllimlərin bu sahədə hazırlığı, iqlim dayanıqlı təhsil sistemlərinin qurulması kimi məsələlər də müzakirə edilib. Bununla yanaşı, tələbələrin yaşıl iqtisadiyyat üçün vacib bacarıqlara yiyələnməsi məqsədilə strateji yanaşmalar təqdim olunub. Yekunda Bakı İnsan İnkişafı üzrə İqlim Dayanıqlılığı Rəhbər Prinsipləri qəbul edilib.

"Beynəlxalq qiymətləndirmə çərçivəsində ətraf mühit savadlılığının ölçülməsi" mövzusunda təşkil edilmiş panel sessiyasında beynəlxalq ekspertlərin iştirakı ilə PISA kimi qiymətləndirmələrin şagirdlərdə ətraf mühit savadlılığının artırılmasındakı rolu ətraflı müzakirə edilib. Sessiyada İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer PISA-nın yeni göstəricilərinin şagirdlər arasında iqlim dəyişikliyi savadlılığını necə qiymətləndirə və təşviq edə biləcəyinə dair təqdimatla çıxış edib. O bildirib ki, Azərbaycan tərəfindən irəli sürülən və təşəbbüs göstərilən bu göstəricilər şagirdlərin ətraf mühit bilikləri və problemləri həlletmə bacarıqlarını qiymətləndirmək üçün geniş çərçivənin təqdim olunmasını nəzərdə tutur.

Elm və təhsil naziri Emin Əmrullayev iqlim savadlılığı göstəricilərinin qlobal miqyasda inkişaf etdirilməsinin vacibliyini vurğulayıb və əlavə edib ki, təhsil iqlim dəyişikliyinin reallıqlarına uyğunlaşma, dayanıqlılıq və innovativ həllər üçün əsas baza rolunu oynamalıdır. Nazirin sözlərinə görə, Azərbaycan olaraq biz bu yeni göstəriciləri təklif etməklə qlobal təhsil sistemlərinə iqlim savadlılığının inteqrasiyası istiqamətində cəsarətli bir addım atmış olduq. Panel sessiyası Elm və Təhsil Nazirliyi ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) arasında şagirdlərin PISA çərçivəsində iqlim savadlılığını qiymətləndirmək üçün razılaşmanın imzalanması ilə yekunlaşıb.

COP29 çərçivəsində mətbuat konfransı da təşkil edilib. Konfransda Elm və təhsil naziri Emin Əmrullayev, Səhiyyə naziri Teymur Musayev, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iştirak ediblər. Azərbaycanda son altı ildə iqlim dəyişikliyi və ekoloji maarifləndirmənin milli kurikuluma inteqrasiyasını təmin etmək üçün addımlar atıldığı diqqətə çatdırılıb. Qeyd edilib ki, hərtərəfli yanaşma şagirdlərə insan fəaliyyətinin ətraf mühitə təsirini, bərpa olunan resursların əhəmiyyətini və ekosistemimizi qorumaq yollarını anlamağa kömək edir.

"Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusunda yüksəksəviyyəli panel müzakirəsi isə iqlim çağırışlarına cavab olaraq təhsildə transformativ yanaşmaların müzakirəsinə həsr olunub. Paneldə UNESCO ilə birgə təhsilin yaşıllaşdırılması, hər bir şagirdin iqlim dayanıqlılığına hazır vəziyyətə gətirilməsinə dair müzakirə platforması təşkil edilib. Bu müzakirə özündə məktəblər, kurikulum, şagirdlərin bilik və bacarıqlarının ölçülməsi, müəllim hazırlığı kimi vacib komponentləri əks etdirib.

Müzakirələr zamanı Azərbaycanda STEAM təhsili təşəbbüsünün şagirdlərə yaşıl enerji və davamlılıq sahəsində real layihələr üzərində işləməyə imkan yaratdığı da qeyd edilib. İqlimə həssas təhsilin qlobal təşviqində tərəfdaşlığın öhdəliyi bir daha təsdiqlənib və gələcək fəaliyyətlərin əsasən potensialın artırılması, eləcə də biliklərin bölüşdürülməsi istiqamətində olacağı vurğulanıb. Azərbaycanın Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə iqlim savadlılığının ölçülməsinə dair irəli sürdüyü təşəbbüs barədə məlumat verən nazir həm də peşə təhsilində yaşıl bacarıqların təşviqinin də vacibliyinə toxunub.

Tədbir çərçivəsində həmçinin BTMİ-nin baş direktoru Grethel Aguilar, "Earthday.org" təşəbbüsünün tədris məsələləri üzrə direktoru Bryce Coon və Qlobal Təhsil Mərkəzinin "#Decarbonize" proqramını təmsil edən gənc ekofəal Janina Guevara öz çıxışlarında müzakirə mövzusu ilə bağlı özəl fikirlər irəli sürərək ətraf mühit savadlılığının rolunu qeyd ediblər.

COP29 çərçivəsində Sumqayıt Dövlət Universitetinin dəstəyi ilə Oksford Universiteti "Saïd Business School" və "Burjeel" Holdinqin təşkilatçılığı ilə "İqlim dəyişikliyi" müsabiqəsinin final mərhələsi keçirilib. 58 ölkədən 1000-dən çox müraciət daxil olub ki, bunun da 135-i Azərbaycandandır. Müsabiqə qlobal arenada gəncləri iqlim dəyişikliyinə qarşı hərəkətə keçməyə və cəmiyyətdə transformasiya yaratmağa ruhlandırmaq məqsədi daşıyıb. Qonaqlar müsabiqəni həm tədqiqatçı məktəblilər, həm də müəllimlər üçün əhəmiyyətli bir platforma kimi qiymətləndiriblər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Dünyada 730 milyon insan aclıq çəkir

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Agentliyinin (FAO) Mərkəzi Asiya və Avropa üzrə baş direktoru Viorel Qutu COP29 çərçivəsində keçirilən "Su, enerji ərzaq və ekosistemlər üzrə əməkdaşlıq vasitəsilə iqlim fəaliyyətlərinin sürətləndirilməsi" mövzusunda konfransda bu gün dünyada 730 milyon insanın aclıqla üz-üzə qaldığını bildirib.**



Onun sözlərinə görə, 2050-ci ilə kimi dünya əhalisinin sayının 10 milyarda çatacağı proqnozlaşdırılır: "Buna görə də ərzaq istehsalı 2 dəfədən çox artırmalıdır. Kənd təsərrüfatı iqlim dəyişikliyinə qarşı çox həssasdır. Bizim fəaliyyətimizdə enerji keçidi də vacibdir. Kənd təsərrüfatı torpağın deqradasiyasında vacib rol oynayır, amma ərzaq ehtiyacımız bundan asılıdır. Təbiətdən dayanıqlı istifadə etməsək, böhranın qarşısını ala bilməyəcəyik. Bu sahədə regional əməkdaşlıq zəruridir".

FAO rəsmisinin sözlərinə görə, bu sahədə sektorlararası koordinasiya, biliklərin paylaşılması, regional təkliflər və çoxşaxəli fəaliyyət çox vacibdir.

*XQ*

# Yeni Zelandiyanın kiçik ada dövlətlərinə dəstəyi



**Yeni Zelandiyanın İqlim dəyişikliyi naziri Simon Vatts COP29-dakı çıxışında ölkəsinin iqlim dəyişikliyi ilə mübarizəni dəstəklədiyini və inkişaf etməkdə olan ölkələrin problemlərinin həllinə yardım göstərilməsinin zəruriliyini bildirib. O daha sonra beynəlxalq əməkdaşlığın vacibliyini diqqətə çatdıraraq deyib: "Biz qlobal iqlim maliyyəsinin bu ölkələrə səmərəli şəkildə yönəldilməsini təmin etməliyik".**

Xatırladaq ki, Yeni Zelandiya Sakit Okean Dözümlülük Mexanizminə 20 milyon, Qlobal Zərər Fonduna isə 10 milyon dollar ödəyəcəyini vəd edib. Bu ölkə iqlim dəyişikliyi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək və iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün bir sıra mühüm layihələri uğurla gerçəkləşdirir. Yeni Zelandiya öz iqlim strategiyası ilə fəxr edir. Ölkədə enerji balansının 85 faizi bərpaolunan enerjidən əldə olunur və 2050-ci ilə qədər mövcud səviyyələri iki dəfə artırmağı nəzərdə tutur. Kənd təsərrüfatı bu strategiyanın mühüm elementidir. Yeni Zelandiyada iqlim təsirlərini azaltmaq üçün innovativ həllər fəal şəkildə inkişaf etdirilir.

*XQ*

# Ölkəmizin Gürcüstanla səhiyyə əməkdaşlığı imkanları

**COP29 sessiyası çərçivəsində keçirilən Azərbaycan və Gürcüstanın səhiyyə nazirlərinin görüşündə nazir Teymur Musayev hər iki ölkənin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanların mövcud olduğunu bildirib.**



29-cu iqlim konfransında müzakirə olunan məsələlərin əhəmiyyətini vurğulayan T.Musayev səhiyyənin iqlim dəyişikliyinin təsirlərinə cavab və qlobal sağlamlıq təhlükəsizliyinin yaxşılaşdırılmasına töhfə verməkdə mühüm rolunu diqqətə çatdıraraq ikitərəfli əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini vurğulayıb.

Gürcüstanın səhiyyə naziri Mixeil Sarcveladze isə dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu qeyd edib. M.Sarcveladze COP29-un yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıraraq, iqlim konfransı gündəliyinin formalaşmasında Azərbaycanın xüsusi rolunu vurğulayıb.

Görüşdə Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında da maraq qeyd olunub və səhiyyə sahəsində ixtisaslı kadrların hazırlanması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***ZB AYRAM***
***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Azərbaycan qlobal konfransın öhdəsindən asanlıqla gəlir

**COP29 konfransı çərçivəsində Mavi Zonada jurnalistlər üçün keçirilən brifinqdə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu Azərbaycan işğal altındakı Qarabağı azad etdikdən sonra dünya səviyyəsində çox böyük tədbirlərdən birinə evsahibliyi etdiyini vurğuladı: “Bu qədər böyük tədbirə evsahibliyi etmək cəsarət tələb edir. COP məkanında plenar sessiyalardan tutmuş, nəqliyyata qədər hər bir detal nəzərə alınıb və təşkil edilib. Buna görə Azərbaycana təşəkkür edirəm”.**



Türkiyənin 2053-cü ilə qədər xalis sıfır emissiya hədəfini qarşıya qoyduğunu deyən nazir həmin məqsədlə əhalinin sıx olduğu şəhərlərdə elektrikli nəqliyyat vasitələrindən istifadə üçün planların, velosiped və skuterlərdən istifadəni təşviq etmək üçün şəhərlərdə də bir çox qaydaların hazırlandığını bildirdi. Bundan başqa, nazir Türkiyədəki 58 hava limanından 50-si karbon emissiyasının azaldılması üzrə sertifikat aldığını açıqladı: “Gələcək nəslə daha yaxşı, daha yaşana bilən dünya buraxmaq üçün karbon emissiyalarını birlikdə azaltmalıyıq”.

Türkiyəli nazir brifinqdə Zəngəzur dəhlizi barədə də açıqlama verdi. Nazir diqqətə çatdırdı ki, Zəngəzur yolu xüsusi əhəmiyyət kəsb edir: “Türkiyə və Azərbaycan Orta Dəhliz üzərindən həyata keçirilən yükdaşımalarda Zəngəzur yolu istiqamətində ayrı bir marşrut qurmaq üzərində işləyir”.

Bundan başqa, cənab Uraloğlu dedi ki, son zamanlar Orta Dəhlizin inkişafı istiqamətində bir sıra addımlar atılır: “Azərbaycan da bu dəhlizin mühüm iştirakçılarındandır və dəhlizin inkişafı istiqamətində sərmayələr yatıraraq mühüm işlər görür. Biz də Orta Dəhlizi dəstəkləmək üçün işlər görürük. Həmçinin İnkişaf Yolu Dəhlizi üzərində iş aparırıq. Belə ki, Fars körfəzindən başlayaraq 1 200 kilometrlik yol qət edib Türkiyəyə çatan bu dəhlizi Orta Dəhlizlə birləşdirərək Avropaya çatdırmaq istəyirik”.

Bundan başqa, nazir vurğuladı ki, Türkiyənin də iştirak etdiyi Orta Dəhlizdə elektrikli qatarların və lokomotivlərin fəaliyyəti barədə müzakirələr aparılır: “Buna görə biz böyük investisiyaların yatırılmasını planlaşdırırıq, əməkdaşlığımızı genişləndiririk. Dəhlizlərin bir-biri ilə əlaqəsini təmin edərkən onların üzərində yerləşən marşrutların sayını artırırıq. Bu istiqamətdə Orta Dəhliz barədə danışanda Zəngəzur yolunu xüsusi vurğulamaq istəyirəm. Gələcəkdə bu yol üzərindən daha bir marşrut yaratmaq istiqamətində aktiv işlər gedir”.

Nazir mətbuata açıqlamasında onu da qeyd etdi ki, güclü yağışlar şəhərlərimizin təhlükəsizliyini təhdid edir: “Son zamanlar aramsız yağan güclü yağışlar təbii fəlakətlərə səbəb olur. Bu, təbiət hadisəsi şəhərlərimizin təhlükəsizliyini təhdid edir”.

COP29 çərçivəsində təkcə karbon mövzusuna toxunmadığını deyən nazir bu cür təbiət hadisələri ilə mübarizə aparılması yollarının da müzakirə olunduğunu qeyd edib: “İqlim dəyişikliyini nəzərə alıb şəhər və ölkələrimizi daha yaşanılan səviyyəyə gətirmək üçün çalışırıq”.

***Səbuhi MƏMMƏDOV,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Gəncədə ekoloji müzakirə






**Gəncədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, şəhər icra hakimiyyəti və Ekologiya və Təbii Ehtiyatlar İnstitutu tərəfindən “Qərb regionunun sənaye tullantıları və ətraf mühit” mövzusunda respublika elmi konfransı keçirilib.**

Tədbirdən əvvəl Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun elmi nailiyyətlərinə həsr olunan sərgiyə baxış keçirilib.

Konfrans iştirakçıları əvvəlcə sərgiyə, daha sonra Ekologiya və Təbii Ehtiyatlar İnstitutu haqqında filmə tamaşa ediblər. Filmdə 40 ildən çox bir müddətdir ki, fəaliyyətini Gəncə Elm Mərkəzinin, Gəncə Regional Elmi Mərkəzin, AMEA-nın Gəncə Bölməsinin, hazırda isə Elm və Təhsil Naiirliyinin tabeyiyində davam etdirən bu institutun Azərbaycan elminə, iqtisadiyyatına və cəmiyyətinə verdiyi töhfələrdən söhbət açılır.

Respublika konfransını giriş sözü ilə AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev açaraq deyib ki, ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət və gələcəyə hesablanmış dəqiq inkişaf strategiyası sayəsində Azərbaycan sürətlə tərəqqi etmiş və onun beynəlxalq nüfuzu yüksəlmişdir. O, ölkəmizin evsahibliyi ilə keçirilən COP29 – BMT-nin İqlim dəyişiklilyi ilə mübarizə məsələlərinə həsr olunan konfransın möhtəşəm miqyasının da bunun daha bir sübutu olduğunu qeyd edərək, həmin tədbirdə səslənən çağırışlarln alimlərimizin qarşısında yeni vəzifələr qoyduğunu vurğulayıb.

Akademik Fuad Əliyev məhz bu baxımdan sənaye tullantılarının ətraf mühitə təsirlərinin neytrallaşdırılması və ya azaldılması məsələlərinin müzakirə edildiyi, həmin sahədə geniş tədqiqatlarla məşğul olan alimlərin iştirakı ilə keçirilən bu mötəbər elmi konfransın işinin və nəticələrinin faydalı olacağına inandığını bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçisi Sənubər Qocayeva, AR ETN Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun direktor müavini Mahirə Şərifova, Neft-Kimya Prosesləri İnstitutundan professor Təranə Məmmədova, kimya elmləri doktoru Füzuli Nəsirov, Aşqarlar Kimyası İnstitutundan Könül Qəhrəmanova, Bioresurslar İnstitutundan dosentlər İmran Qasımov və Aişə Süleymanova, Ekologiya və Təbii Ehtiyatlar İnstitutundan İlahə Cəfərova və başqaları çıxış ediblər.

AR KTN Bitki Mühafizə və Texniki Bitkilər İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, aqrar elmlər doktoru, professor İbrahim Cəfərovun çıxışında alimlərimizin, elm ocaqlarımızın qarşısında dünyanı təhdid edən iqlim anomaliyası, ekoloji böhran, onların təbii resurslara, ərzaq təminatına təsiri və digər bu kimi məsələlərə toxunulub. Sonra konfransın işi 5 bölmə üzrə məruzələrlə davam edib, çıxışlar və məruzələr ətrafında fikir mübadilələri aparılıb.

Aktual problemlər haqda ətraflı məruzə və çıxışlara görə konfransın fəal iştirakçılarına sertifikatlar təqdim edilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

***Gəncə***

# “Yaşıl” texnologiyalı yeni data mərkəzləri

**Ölkəmizdə yaşıl texnologiyalar əsasında iki yeni data mərkəzi tikiləcək. Həmin mərkəzlər Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki “AzInTelecom” MMC-nin balansında fəaliyyət göstərəcək.**




Abşeron və Hacıqabul rayonlarında tikiləcək əsas və ehtiyat data mərkəzlərində karbon emissiyalarını minimuma endirmək üçün bir sıra qabaqcıl texnologiya və metodlardan istifadə olunacaq. Ekoloji tarazlığın qorunması məqsədilə hər iki obyektdə enerji səmərəliliyi, sulardan səmərəli istifadə, tullantıların utilizasiyası və təbii soyutma sistemləri kimi innovativ yanaşmalar tətbiq ediləcək. Artıq hər iki mərkəzin inşası üçün dayanıqlılıq və etibarlılıq üzrə beynəlxalq keyfiyyət standartlarını müəyyən edən “TIER 3 Design” sertifikatı alınıb. Bununla yanaşı, “AzInTelecom” data mərkəzləri üçün infrastrukturun ekoloji cəhətdən dayanıqlılığını müəyyən edən “LEED v4” beynəlxalq sertifikatı üçün tələb olunan ilkin “LEED” hesabatına da yiyələnib.

Tikinti zamanı torpaq eroziyasını və suyun çirklənməsini minimuma endirmək, toz və kimyəvi təsirlərin, dolayı yolla havanın çirklənməsinin qarşısını almaq üçün ətraflı plan hazırlanıb. Data mərkəzlərində günəş enerjisindən istifadəni təmin etmək məqsədilə günəş panelləri quraşdırılacaq ki, bu da dolayı yolla karbon emissiyasının minimuma endirilməsinə imkan yaradacaq.

Yeri gəlmişkən, 2024-cü ildə BMT-nin Qlobal Sazişinə qoşulan “AzInTelecom” fəaliyyətini ekoloji idarəetmə prinsiplərinə uyğunlaşdırmağı, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə və ekosistemə daha geniş dəstək verməyi, eləcə də texnoloji inkişaf və ekoloji məsuliyyət arasında tarazlığı qorumağı hədəfləyir.

Xatırladaq ki, “AzInTelecom” MMC Azərbaycanın ən böyük “bulud” provayderi, Cənubi Qafqazda isə “TIER 3” sertifikatını alan ilk qurumdur. Şirkət hazırda 200-dən çox dövlət qurumu və özəl təşkilata “bulud” xidmətləri göstərir.

**XQ**

Beynəlxalq həyat

# Rusiya–Ukrayna cəbhəsində savaş ritorikası güclənir



**2022-ci il fevralın 24-də Rusiya hərbi kontingentinin Ukrayna ərazisinə hüçumu ilə başlanan müharibə artıq 1002-ci gündür ki, davam edir. Bu müddət ərzində münaqişə hər iki tərəfin böyük itkilər verməsinə səbəb olub.**

Müharibə Ukrayna ərazisində gedir. Deməli, ən çox itkiyə də məhz bu ölkə məruz qalır. Döyüşlər başlayandan Ukrayna əhalisinin az qala dörddə biri, təxminən 10 milyona yaxın sakin öz daimi yaşayış yerini tərk etməyə vadar olub. Ukraynalı məcburi köçkünlərin 7 milyonu Avropa və Amerikaya, 3 milyonu isə Rusiyaya üz tutub.

Qeyd edək ki, 2 gün əvvəl həm Rusiya, həm də Ukrayna iqtidarı müharibənin 1000-ci günü ilə bağlı bəyanatlar veriblər. Tərəflər bir-birinə qarşı mübarizəni davam etdirəcəklərinə söz veriblər. Göründüyü kimi, barışmaz rəqiblər savaş ritorikasını gücləndirirlər. Bu, o deməkdir ki, üfüqdə sülh görünmür.

Dünən Ukrayna rəsmiləri bildiriblər ki, Rusiya aviasiyasının Sumı vilayətində gecə vaxtı pilotsuz təyyarələrinin hücumu nəticəsində biri uşaq olmaqla, 8 nəfər həlak olub. Ukrayna Hərbi Hava Qüvvələri həmin gün Rusiyanın 87 pilotsuz təyyarəsindən 51-ni vurduğunu iddia edir.

Ukrayna aviasiyası da vaxtaşırı cavab zərbələri endirir. “Reuters” agentliyi xəbər verir ki, Ukrayna Rusiya daxilindəki hədəfləri vurmaq üçün tez-tez yerli istehsal dronlarından istifadə edir. Moskva isə bu qənaətdədir ki, Ukrayna Ağ evin “xeyir-duası” ilə artıq ABŞ-nin uzaqmənzilli raketlərindən istifadə edir.

Ukrayna aviasiyası dünən Rusiyanın Bryansk vilayətinin Karaçev şəhəri yaxınlığında, Ukrayna ilə sərhəddən 110 mil məsafədə yerləşən böyük silah anbarına zərbə endirib. Rusiyalı ekspertlərin fikrincə, bu hücum yalnız Pentaqonun verdiyi silahlardan istifadə etməklə mümkün ola bilərdi.

Bu arada məlum olub ki, Rusiya prezidenti Vladimir Putin ölkəsinin yeni nüvə doktrinasını imzalayıb. Dövlət başçısı qeyd edib ki, hər hansı bir dövlətin Rusiyaya adi hücumu belə Qərbin birgə hərbi əməliyyatı hesab olunacaq və bu, öz növbəsində adekvat nüvə reaksiyasına səbəb ola bilər.

Yeri gəlmişkən, bu bəyanat ABŞ prezidenti Co Baydenin Ukraynaya Rusiyadakı hərbi hədəflərə hücum etmək üçün ABŞ-dən aldığı uzaqmənzilli silahlardan istifadə etməyə icazə verməsindən bir gün sonraya təsadüf edib.

Jurnalistlər Rusiya hökumətinin sözçüsü Dmitri Peskovdan yeni nüvə doktrinasının ABŞ-nin müvafiq icazəsinə cavab olaraq verilib-verilmədiyini soruşduqda, o, bunun “vaxtında” irəli sürüldüyünü və Putinin onun “mövcud vəziyyətə uyğun” yenilənməsini istədiyini deyib. Bu barədə “Associated Press” agentliyi məlumat yayıb.

A.Peskov deyib ki, yeni doktrinanın məqsədi potensial düşmənlərə Rusiyaya və ya onun müttəfiqlərinə hücuma görə qisas almağın qaçılmaz olduğunu başa salmaqdır. Xatırladaq ki, sənəddə həmçinin bildirilir ki, “başqa bir ölkə Moskvanın müttəfiqi Belarusa hücum etsə, Rusiya nüvə silahından istifadə edə bilər”.

Beləliklə, Rusiya-Ukrayna müharibəsi çox təhlükəli həddə çatıb. Vəziyyət hər an nəzarətdən çıxa bilər. Nəticədə bəşəriyyət qarşısıalınmaz bir fəlakətlə üz-üzə qala bilər. Amma sülh danışıqlarının baş tutacağına olan ümidlər hələ qalır. Yəqin ki, xatırlayırsınız, özünün seçkiqabağı kampaniyası zamanı Tramp dəfələrlə bu ağır münaqişəyə 24 saata son qoyacağını vəd etmişdir.

Trampın bu çətin problemi tez və rahat həll edəcəyinə şübhə edənlər də az deyil. Belə ki, Rusiya ələ keçirdiyi torpaqlardan, ilk növbədə Donetsk və Luqansk vilayətlərindən əl çəkməyi ağlına belə gətirmir. Üstəlik, Ukraynanın cənubunda da əlavə ərazilər ələ keçirilib. Kreml üçün Krımın geri qaytarılması isə ümumiyyətlə müzakirə mövzusu ola bilməz.

Ukrayna hakimiyyəti isə öz ərazi bütövlüyünü qorumaqda israrlıdır. Ekspertlər düşünürlər ki, münaqişə zonasında hazırda olduqca gərbin hərbi, ictimai-siyasi və psixoloji durum yarandığından, rəqibləri prinsipial məsələlərdə güzəştə getməyə vadar etmək heç də asan olmayacaq. Ən azı hər iki ölkədə mövcud ictimai rəy buna hazır deyil.

***Məsaim ABDULLAYEV***
***XQ***

**EKSPERT RƏYİ**



**Şahbaz MUSAYEV,**
**Bakı Slavyan Universitetinin professoru**

–Müharibənin taleyi, təbii ki, ilk növbədə döyüş meydanında həll olunur. Son aylar cəbhənin bir çox istiqamətlərində Rusiyanın aşkar hərbi üstünlüyü hiss olunur. Ciddi uğurlar əldə etməsələr də, Rusiya hərbçiləri irəliləməkdə davam edirlər.

Rusiyanın təkcə hərbi, iqtisadi deyil, insan resursları da Ukraynadan dəfələrlə çoxdur. Kiyevdəki bir çox siyasi dairələr başa düşürlər ki, yaxın aylar, hətta illər ərzində bu ölkənin öz torpaqlarını hərbi yolla geri qaytarmaq şansı çox azdır.

Sülh sazişləri bir qayda olaraq zəif tərəfin güzəştləri hesabına bağlanılır. Burada istər-istəməz zəif bənd Ukraynadır. Fikrimcə, D.Tramp da, ilk növbədə Ukraynanın daha çox güzəştə getməyə məcbur etməyə çalışacaq.

Bütün hallarda Ağ evin həm köhnə, həm də yeni iqtidarı Rusiya-Ukrayna münaqişəsinin mümkün qədər tez bitməsini istəyir. Çünki, ABŞ özünün ən əss rəqibi olan Çinlə haqq-hesabı mümkün qədər tez öz xeyrinə başa çatdırmaq niyyətindədir. Bunun üçün Vaşinqtona Moskva ilə Pekinin “yaxınlaşması” heç cür sərf eləmir.

Tarixdə bütün qanlı savaşlar sülhlə başa çatıb. Hazırda ruslar və ukraynalıların da da sülhə gəlməkdən başqa çarələri qalmayıb. Necə deyərlər, ən kövrək sülh qanlı savaşlardan üstündür. Ümid edək ki, bərəkətli Ukrayna torpaqlarında qanlı döyüşlər, nəhayət başa çatacaq və hər iki slavyan xalqı bu mənasız münaqişəni davam etdirməkdən vaz keçəcək.

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Bir yalanın iki üzü – “erməni soyqırımı” və “erməni qaçqınları”

**2023-ü ilin sentyabrında 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikası bütün ərazisində öz suverenliyini təmin etdikdən sonra Ermənistan siyasi dairələrinin və onlara havadar çıxan müxtəlif xarici mərkəzlərin Azərbaycana qarşı istifadə etməyə çalışdıqları məsələlərdən biri də guya Azərbaycan Respublikası ərazisindən qaçqın düşmüş ermənilərin taleyi ilə bağlı məsələdir. Azərbaycan Respublikası rəhbərliyinin böyük humanizm göstərərək, vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşamış, lakin 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində vaxtilə onlara sığınacaq vermiş Azərbaycan xalqına qarşı silahlı qiyam qaldırmış erməni əhalisinin Azərbaycanın vətəndaşlığının qəbul edəcəkləri halda bütün siyasi və milli-mədən hüquqlarının təmin ediləcəyinə söz versə də, onlar boyun qaçıraraq Ermənistana köçməyi üstün tutmuşlar. Əlbəttə, bu insanların taleyi anti-Azərbaycan şəbəkəsini maraqlandıran bəlkə də ən sonuncu məsələdir. Lakin buna baxmayaraq, bu şəbəkə sözdə “erməni soyqırımı” ilə yanaşı, “erməni qaçqınları” məsələsindən də faydalanmağa, öz məkrli niyyətlərini həyata keçirmək üçün bu məsələni daim gündəmdə saxlamağa çalışır. Bunlar üçün necə deyərlər, “məqsədə çatmaq üçün bütün vasitələr məqbuldur”. Əslində, bu siyasətin dərin kökləri vardır.**

Hələ XVIII əsrdən başlayaraq Avropa dövlətləri və Rusiya Osmanlı imperiyasını sarsıtmaq üçün “erməni kartı”ndan fəal istifadə etməyə, erməniləri öz dövlətinə qarşı qaldırmağa çalışmış və müəyyən qədər buna nail də olmuşlar. Bu qlobal “antitürk” layihənin I Dünya müharibəsi dövründə əməli olaraq həyata keçirilməsi nəticəsində Osmanlı imperiyasının varlığına son qoyulmuşdur. Artıq 110 ildir ki, sözdə “erməni soyqırımı” və “erməni qaçqınları” məsələlərindən Türk dünyasına qarşı iyrənc vasitə kimi istifadə olunur.

Bu baxımdan erməni ideoloqlarının və tarixçilərinin daim qabartmağa çalışdığı Azərbaycan bölgələrində erməni əhalisinin, guya, soyqırımına və deportasiyaya məruz qalmaları haqqında iddiaların və “erməni qaçqınları” məsələsinin obyektiv faktlarla, elmi şəkildə ifşa edilməsinə ehtiyac var.

1918-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra Bakıda kök salmış bolşevik-daşnak qüvvələri və tarixi Azərbaycan ərazisində yaradılmış Ermənistan Respublikasının millətçi şovinist dairələri Azərbaycan dövlətçiliyinə, onun ərazi bütövlüyünə qarşı vaxtilə çar hakimiyyəti tərəfindən ölkəmizin müxtəlif bölgələrində yerləşdirilmiş ermənilərdən yararlanmağı fürsət bildilər. Lakin Azərbaycan Cümhuriyyəti hökumətinin düşünülmüş siyasəti, Qafqaz İslam Ordusunun (QİO) uğurlu hərbi əməliyyatları onların öz məqsədlərinə çatmalarına imkan vermədi. Bakıda Mart qırğınlarını törətmiş daşnak-bolşevik qüvvələrin Azərbaycanın qalan ərazilərini də işğal etmək üçün başladıqları hücum zamanı onlara, hərbi əməliyyatların getdiyi ərazilərdəki (Nuxa, Gəncə, Ərəş, Göyçay, Şamaxı, Cavad qəzalarında) erməni kəndlərində yuva salmış silahlı dəstələr də dəstək vermişdilər. Azərbaycan-türk qoşunlarına qarşı təkcə Bakı sovetinin əksəriyyəti ermənilərdən ibarət olan qoşunları deyil, həm də adı çəkilən qəzalarda yaşayan erməni əhalisi də əlində silah vuruşur, QİO-a arxadan zərb vururdu. Ona görə də QİO komandanlığı qarşısında duran əsas məsələlərdən biri də cəbhənin arxası üçün təhlükə yaradan bu erməni kəndlərinin tərk-silah edilməsi idi. Həyata keçirilmiş tədbirlər sayəsində daşnak dəstələri zərərsizləşdirilmiş, Nuxa və Ərəş qəzalarının təqribən 35 kəndində yaşayan erməni əhalisi də öz yaşadıqları yerləri tərk edərək Gürcüstana köçmüşdür. Erməni mənbələrinə görə erməni əhali Ərəş qəzasının 13, Nuxa qəzasının 21, Göyçay qəzasının 6 kəndini tərk etmişdi. Qafqaz İslam Ordusunun bu əməliyyatı məqsədlərinə görə müasir terminlə desək, əsl antiterror əməliyyatı idi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi baxımından 2023-cü ildə həyata keçirilmiş 23 saatlıq antiterror tədbirləri ilə eyniyyət təşkil edirdi. Sonralar ermənilər Azərbaycan hakimiyyət orqanlarına müraciət edərək onların geriyə qayıdaraq, öz kəndlərində yaşamalarına şərait yaratmalarını xahiş etmişdilər.

Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhəri azad edildikdən sonra Qarabağda və Gəncə quberniyasının dağlıq hissəsində yerləşən erməni kəndlərində kök salmış erməni silahlı dəstələrinin silahsızlaşdırılması məqsədi ilə hərəkat başlanılsa da (QİO-nun Qarabağ hərəkatı), Osmanlı imperiyasının I Dünya müharibəsində məğlub olmasından sonra türk qoşunları Cənubi Qafqazdan çıxarıldığından bu hərəkatı başa çatdırmaq, erməni kəndlərini tərk-silah etmək mümkün olmadı. Bunun da acı nəticələri həm Cümhuriyyət dönəmində, həm də 70 ildən sonra özünü göstərdi.

1919-cu ilin payızında türk qoşunları Azərbaycanı tərk etdikdən sonra erməni siyasi dairələri “Azərbaycanda erməni qaçqınları” məsələsini ortaya ataraq bundan Azərbaycan Cümhuriyyətinə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə başladılar. Azərbaycanın müxtəlif bölgələrində yaşayan ermənilər Bakıda və Tiflisdə fəaliyyət göstərən erməni milli təşkilatlarına, Müttəfiq qoşunlarının Cənubi Qafqazdakı komandanlığına, regionda fəaliyyət göstərən müxtəlif xarici təşkilatlara saysız-hesabsız müraciətlər göndərərək, guya, türk qoşunlarının Cənubi Qafqazda olduqları zaman onlara qarşı zorakılıqlar edildiyi, maddi və mənəvi zərər vurulduğu haqqında yalan məlumatlar ötürür, buna görə Azərbaycan hökumətindən əvvəllər malik olduqları mülkiyyətin və sərvətin qaytarılmasını, dəymiş ziyana görə kompensasiya ödənilməsini tələb edirdilər. Qeyd edək ki, Cənubi Qafqazın müxtəlif şəhərlərində fəaliyyət göstərən erməni təşkilatları tərəfindən I Dünya müharibəsində və türk qoşunlarının Cənubi Qafqazda olduqları müddətdə, guya, erməni əhalisinin verdiyi qurbanların müəyyənləşdirilməsi ilə bağlı müxtəlif qurumlar yaradılmışdı. Məsələn, Tiflisdə Erməni Milli Şurası nəzdində “Dünya müharibəsi dövründə ermənilərə qarşı zorakılıq hərəkətlərinin təhqiqi üzrə” komissiya fəaliyyət göstərirdi. Müxtəlif erməni təşkilatları ingilis hərbi komandanlığına müraciət edərək, Azərbaycan hakimiyyəti haqqında mənfi rəy formalaşdırmağa, guya, Azərbaycan Cümhuriyyətində ermənilərə qarşı ayrı-seçkilik siyasəti yeridildiyini sübut etməyə çalışırdılar. Bu istiqamətdə Bakı Erməni Milli Şurası, “Daşnaksütyun” partiyasının Bakı təşkilatı, Azərbaycan parlamentinin erməni fraksiyası, “Erməni insanseverlər cəmiyyəti” xüsusi canfəşanlıq edirdilər. Erməni təşkilatları mütəşəkkil şəkildə bütün qəzalarda, guya, ermənilərin müsibətləri haqqında məlumatlar toplayaraq, Antantanın Cənubi Qafqazdakı komandanlığına, xarici dövlətlərə, Paris Konfransına göndərirdilər. Məqsəd aydın idi: müharibə dövründə yalnız erməni xalqının faciələr yaşaması, bu faciələrin səbəbkarlarının Azərbaycan və Osmanlı dövlətləri olması haqqında dünya ictimai rəyində fikir formalaşdırmaq və bununla da öz milli-siyasi məqsədlərinə çatmaq. 1918-ci ilin noyabrında Antanta qoşunları Bakıya daxil olduqdan sonra Nuxa şəhərində fəaliyyət göstərən “Erməni qaçqınları komitəsi” adlı qurum Gəncə quberniyasının Nuxa və Ərəş qəzalarında “qaçqın ermənilərin”, guya, dəhşətli və çıxılmaz vəziyyəti haqqında Bakı Erməni Milli Şurasına yazılı məruzə göndərmişdi. Şura bu məruzə əsasında Müttəfiq qoşunların Bakıdakı komandanı, general Tomsona müraciət edərək, ondan “erməni qaçqınlara” yardım göstərmək üçün bölgəyə nümayəndə heyətini göndərməyi xahiş etmişdi. Müraciətdə Nuxada və Ərəşdə “erməni qaçqınlar”ın vəziyyəti yalnız qara rəngdə təsvir olunur və ingilis komandanlığından qaçqınların əvvəlki yerlərində yerləşdirilməsi, onların əmlaklarının qaytarılmasına yardım göstərilməsi xahiş olunurdu.

Erməni təbliğatının nəticəsi olaraq 1919-cu ilin fevralında İngilis komandanlığının nəzdində fəaliyyət göstərən qaçqınların məsələsi üzrə müfəttiş mayor A.Hibbonun nümayəndəsi kapitan Druitt Şəkidə və Zaqatalada oldu. Səfərin əsas məqsədi guya qaçqınların və köməyə ehtiyacı olan əhalinin sayının müəyyənləşdirilməsi idi. Yerlərdən ermənilərin özlərinin verdikləri məlumatlarda Ərəş və Nuxa qəzalarında 12000 qaçqının olduğu iddia olunurdu ki, onlardan 1173-ü Şəki şəhərində, 1600-ü Nicdə, 1400-ü Vartaşendə (indiki Oğuz şəhəri), 400-ü Calutda, 400-ü Qışlaqda yerləşmişdi. Bu kəndlərdə əsasən xristianların yaşadığını nəzərə alsaq, ingilis missiyasına yalnız erməni qaçqınların sayı haqqında məlumat verildiyi məlum olar.

Ermənilər hətta “öz təminatları və təhlükəsizlikləri” üçün Nuxada ingilis missiyasının təsis edilməsinə təkid edirdilər.

1919-cu ilin martında Azərbaycan Parlamentinin erməni fraksiyası “Nuxa və Ərəş qəzalarında yaşayan erməni qaçqınlara” kömək göstərilməsi ilə bağlı hökumətə sorğu vermiş, sorğuya Azərbaycan Himayəçilik Nazirliyi cavab vermişdi. Cavabdan bəlli olur ki, nazirlik tərəfindən ermənilərin ümumi ehtiyacları üçün Nuxa şəhərinə 350.000 manat vəsait köçürülmüşdü ki, bu vəsaitin 48.000 manatı erməni uşaqları üçün yaradılmış yetimxanaya ayrılmışdı. Yetimxananın gələcəkdə saxlanılmasını Azərbaycan hökuməti öz üzərinə götürmüşdü. Ümumiyyətlə Azərbaycan hökuməti qaçqınları himayə edərkən onlara milli mənsubiyyətinə görə heç bir fərq qoymurdu. Hökumət tərəfindən Bakı şəhərində 517 erməni uşağı üçün 2 yetimxananın təşkili məqsədilə Erməni Milli Şurasına zəruri maliyyə vəsaiti ayrılmışdı. Bundan başqa hökumət tərəfindən xüsusi olaraq erməni uşaqlar üçün Gəncə şəhərində 25 nəfərlik sığınacaq, 30 çarpayılıq lazaret və 7000 nəfərlik iaşə məntəqəsi, Nuxa şəhərində 290 nəfər üçün uşaq sığınacağı təşkil edilmişdi.



Erməni Milli Şurası da ingilis qoşunlarının Bakıda olmasından istifadə edərək, Azərbaycan hökuməti qarşısında “erməni qaçqınlarının” problemlərinin həlli ilə bağlı müxtəlif tələblər qoyurdu. Şura 1919-cu il fevralın 21-də Azərbaycanın daxili işlər nazirinə müraciət edərək həyasızcasına “erməni millətindən olan kəndlilərin Şamaxı qəzasına qayıtmaları və onların dağıdılmış təsərrüfatlarının bərpasına şərait yaradılması üçün bütün tədbirləri görməyi”, o cümlədən “Bakıda olan erməni sakinlərin əvvəl yaşadıqları kəndlərə qaytarılmasını, hər nəfərə 1,5 pud taxıl verilməsini, erməni kəndlərində müsəlmanların məskunlaşmalarına yol verməməyi, heyvan və təsərrüfat materiallarını almaqda ermənilərə kömək göstərməyi” tələb etmişdi.

Azərbaycan hökuməti məhdud imkanlara baxmayaraq qəzalardakı erməni sakinlərinə yardım göstərirdi. 1919-cu il aprelində hökumət Nuxa qəzasında qaçqın adı ilə yaşayan erməni sakinlərə 1000 pud taxıl və 1000 manat pul köməyi göstərilmiş, Nuxa şəhərindəki erməni yetim uşaqlar evinin bütün xərclərini öz üzərinə götürmüşdü. Nuxa və Ərəş qəzalarında yaşayan ermənilərin hamısının guya qaçqın düşməsi haqqında müxtəlif erməni mənbələrinin yalan məlumatlarının əksinə olaraq bu qəzalardakı 60000 erməni əhalinin çoxu Azərbaycan dövlətində yaşamaq istəmədiyindən könüllü olaraq köçüb getsə də 25000 nəfəri hələ də öz yerlərində təhlükəsiz şəraitdə yaşamaqda davam edirdi. Bunu bu qəzalardan olan ermənilərin nümayəndəsi B.Balayan soyadlı şəxs də etiraf edirdi.

Deyirlər, tarix təkrar olunur. Bu gün olduğu kimi həmin dövrdə də bölgədə öz nüfuzlarını möhkəmlətmək üçün çalışan Amerika, Böyük Britaniya, Fransa və başqa dövlətlərin müxtəlif humanitar missiyalar adı altında fəaliyyət göstərən təşkilatları da Azərbaycanın qəzalarında “erməni qaçqınları” məsələsini qabartmağa çalışır, bundan öz ölkələrində anti-Azərbaycan təbliğatının qızışdırılmasında istifadə edirdilər. 1919-cu ilin mayında Amerikanın “Yaxın Şərqdə Yardım Komitəsi”nin Lisisian və Qrinlif soyadlı iki üzvü Nuxa və Ərəşdə ermənilərin vəziyyətini araşdırmaq üçün bölgədə olmuş və məruzə hazırlamışlar. Həmin məruzədə də etiraf olunur ki, bu qəzalarda ermənilərə heç kim təsir göstərmir, onların bütün hüquqları qorunur. Nuxa şəhərində hətta keşiş Saak Ter-Paqosyanın sədri olduğu milli şura fəaliyyət göstərirdi. Azərbaycan hökuməti və Nuxa əhalisi hətta müəyyən səbəblərdən şəhərə gəlmiş və qaçqın adına iddia edən erməni millətindən olan sakinlərə yardım göstərirdilər. Maraqlıdır ki, bu insanlar öz vətənlərinə – Ermənistana köçməkdən imtina edərək “düşmən türklər”lə birgə yaşamağı üstün tutmuşdular. Azərbaycanın Himayəçilik naziri Sultanovun məlumatına görə, şəhərdə sığınacaq tapmış ermənilərin sayı 240 kişi, 348 qadın və 463 uşaq olmaqla 1051 nəfər təşkil edirdi. 176 yetim erməni uşağını himayəçilik nazirliyi öz himayəsinə götürmüşdü. Bütün bu yardımlar o şəraitdə edilirdi ki, Ermənistanın nizami silahlı qüvvələri tərəfindən İrəvan quberniyasında və Zəngəzur qəzasında yerli azərbaycanlılara qarşı əsl genosid həyata keçirirdi. Öz soydaşlarına qarşı törədilən bu vəhşiliklərə rəğmən Azərbaycan hökuməti erməni sakinlərə yardım göstərməkdə davam edirdi.

Vartaşen kəndindəki vəziyyəti səciyyələndirən məruzəçi burada 600 evlik Qriqorian udinin (məruzəçi onları yanlış olaraq erməni adlandırır), 300 evlik udin-vraçinin (provoslav) və 300 evlik yəhudinin olduğunu bildirir. Məruzədə burada kütləvi talanların baş vermədiyi göstərilirdi. Vartaşendə provaslav udinlərin, yəhudilərin ziyan çəkmədikləri də xüsusi vurğulanırdı. Məruzədə Calut və Nic kəndlərində yaşayan udinlərin də vəziyyətinə toxunan müəllif onları da erməni əhali kimi qələmə verərək, Calutda 300 erməni evinin, 155 erməni qaçqının olduğunu, Nicdə isə 900 evdən 747-nin qaldığını, 82 tatar (azərbaycanlı) evinin olduğunu, burada 1400 “erməni qaçqının” qaldığını bildirirdi. Məruzəçilər Ermənistandan fərqli olaraq Nuxa qəzasının ermənilərinin ərzaq baxımından daha yaxşı vəziyyətdə olduqlarını, ərzağın bol və nisbətən ucuz olduğunu qeyd etməyi unutmamışlar?

Məruzənin ümumi ruhu, oradakı məlumatlar onları tərtib edənlərin Azərbaycan hökumətinə, ümumiyyətlə azərbaycanlı əhaliyə qərəzli, hətta düşmən münasibət bəslədiklərini təsdiq edirdi. Bu təkcə bölgənin tarixi, etnik mənzərəsinin təhrif edilməsi, bütün qeyri-müsəlmanların – yəhudi və udinlərin ermənilər kimi qələmə verilməsi ilə məhdudlaşmırdı. Yalnız ermənilərin problemlərinin qabardılması. azərbaycanlı əhalinin vəziyyətinə isə ümumiyyətlə toxunulmaması amerikalı nümayəndələrin hansı niyyətlər güddüyünü təsdiq edirdi. Baxmayaraq ki, Azərbaycan hökuməti, yerli hakimiyyət orqanları missiyanın normal fəaliyyəti üçün bütün şərait yaratmış, onların qəzada sərbəst hərəkətinə mane ola biləcək heç bir addım atılmamışdı.

Ermənistan hökuməti də Azərbaycan qəzalarında yaşayan ermənilərin vəziyyəti haqqında gerçəkliyi əks etdirməyən məlumatlar yayaraq, bundan Azərbaycan hökumətinə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Bunu Ermənistanın xarici işlər naziri G.Tiqranyanın Azərbaycan xarici işlər nazirinə göndərdiyi 23 may 1919-cu il tarixli notası da təsdiq edir. Notada Nuxa və Ərəş rayonunun dinc erməni əhalisinin guya sistematik olaraq zorakılıqlara və talanlara məruz qalması, 50 dağıdılmış kəndin 20 min erməni əhalisinin tam asılı vəziyyətdə yaşadığı, onların köçməsinin silahlı yolla qarşısının alındığı, ermənilərin zorla islamı qəbul etdirilməsi haqqında yalan məlumatlar öz əksini tapmışdı. Erməni tərəfi həyasızcasına erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan hökumətindən 6 bənddən ibarət tədbirlər görməyi tələb etmişdi. Ermənilərin şikayətinin yoxlanılması ilə bağlı Azərbaycan Daxili işlər naziri Gəncə qubernatoruna xüsusi sərəncam vermiş, Gəncə qubernatoru Nuxaya xüsusi komissiya göndərməyi qərara almışdı. Komissiya qəzanın ermənilər yaşayan kəndlərində, Nuxada olmuş, bütün məlumatları yoxlamış və onların əksəriyyətinin yalan olduğu üzə çıxarılmışdı.

Nuxa, Ərəş, Şamaxı, Göyçay qəzaları ermənilərinin “dözülməz” vəziyyəti haqqında yalan və saxta məlumatlar D.Davidxanyan soyadlı şəxsin Ermənistan himayəçilik nazirinə teleqramında da öz əksini tapmışdı. 1919-cu il avqust-sentyabr aylarında “Tiflisdə yaşayan Nuxa və Ərəş qəzaları ermənilərinin həmyerlilər təşkilatı” Cənubi Qafqazın ali komissarı polkovnik Haskelə növbəti dəfə müraciət edərək bu qəzaların erməni əhalisinin vəziyyəti barədə gerçəkliyi tamamilə təhrif edən məlumatlar çatdırmışdı. Məlumatda, bölgədə yaşayan ermənilərin 26700 nəfərinin qırıldığı, yalnız 27000-nin xilas olduğu iddia edilsə də, etiraf olunurdu ki, 10 min erməni qaçqın və yetim adı ilə Nuxa şəhərində və qəzanın kəndlərində yaşamaqda davam edirdi. Hətta Gəncədə belə bu qəzalardan olan 2000 erməni sakit yaşayırdı. Müraciətdə nə üçün bu qədər erməninin Ermənistana köçməkdən imtina edərək Azərbaycanda, “onları qırğına məruz qoyanlar” arasında yaşamaqda davam etmələri haqında bircə kəlmə belə deyilmirdi. Müraciət müəllifi də başqa erməni müəlliflər kimi bölgənin etnik mənzərəsini saxtalaşdırır, həyasızcasına Vartaşen, Nic və Calut kəndində yaşayan 11400-ə qədər udin və yəhudini erməniləşdirməkdən çəkinmirdi. Azərbaycan parlamentinin üzvü, portfelsiz nazir Hamaspur Azərbaycan Daxili işlər nazirinə məktubla müraciət edərək ondan “Bakıdan Azərbaycanın müxtəlif qəzalarına qayıdan erməni qaçqınların təhlükəsizliyini və qayıdışını təmin etmək üçün tədbirlər görməsini” xahiş etmişdi. Lakin erməni deputat onu da etiraf edirdi ki, “Ərəş, Nuxa, Şamaxı qəzalarından gəlmiş ermənilərin dediklərinə görə, müsəlman kəndlilər öz köhnə erməni qonşularına dözümlü və mülayim münasibət bəsləyirlər”.

Azərbaycan hakimiyyəti bölgədə yaşayan ermənilərin təhlükəsizliyinin təmin edilməsi, onların mülkiyyətinin, toxunulmazlığının qorunması üçün bütün tədbirləri görür, təsərrüfat fəaliyyəti üçün şərait yaradırdı. 1919-cu ilin yayında Azərbaycanda yaşayan ermənilərin və Ermənistan Respublikasında yaşayan müsəlmanların qarşılıqlı köçürülməsi məsələsi ortaya çıxdı. Şamaxı, Göyçay, Ərəş və Nuxa qəzalarında yaşayan bəzi ermənilər də buna isti münasibət bəsləyirdilər. Bu barədə Nuxa Erməni Milli Şurasının sədri Saak Ter-Paqosyanın Azərbaycan Cümhuriyyətinin hökumət naziri Hamaspura məktubunda da məlumat verilirdi. Bu məsələnin hökumətlər səviyyəsində həlli ilə bağlı danışıqlar gedirdi.

Lakin buna baxmayaraq, Ermənistan hökuməti birtərəfli qaydada Azərbaycandan getmiş ermənilərin Ermənistan Respublikasının ərazisindəki azərbaycanlıların kəndlərində yerləşdirməkdə, sonuncuları sıxışdırıb çıxarmaqda davam edirdi. Bu isə İrəvan quberniyasının türk-müsəlman əhalisini öz doğma yerlərindən kütləvi qovulması ilə nəticələnirdi. Ermənistan Respublikası ərazisində Göyçaydan, Nuxadan, Ərəşdən, eləcə də Azərbaycanın başqa qəzalarından gəlmiş ermənilərin yerli azərbaycanlılara qarşı təhrik edilməsi halları, özü də bu hərəkətlərin Ermənistan hökuməti tərəfindən təşkil edilməsi halları o qədər artmışdı ki, Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi Təkinski Azərbaycan Xarici İşlər Nazirliyinə şifrəli teleqram göndərərək Azərbaycanda yaşayan ermənilərin Ermənistana köçürülməsini müvəqqəti dayandırmağı xahiş etmişdi.

Azərbaycan hökumətinin milli siyasətdə hər hansı ayrı-seçkiliyə yol vermədiyni sübut edən faktlardan biri də vaxtilə onun ərazisini tərk etmiş ermənilərin kütləvi şəkildə öz əvvəlki yaşayış yerlərinə qayıtmaları idi. Azərbaycan Cümhuriyyətinin Qaçqınların işləri üzrə Mərkəzi Komissiyasının məlumatına görə, 1919-cu ilin oktyabrına qədər vaxtilə öz yerlərin tərk etmiş ermənilərdən Göyçay rayonuna qayıdanların sayı 4 min, Şamaxıya qayıdanların sayı 6 minə yaxın idi. Gəncə, Ərəş və Nuxa qəzalarına da ermənilərin qayıtdığı qeyd olunur, bununla bağlı konkret rəqəmlər göstərilirdi. Maraqlıdır ki, qəzalarda öz evlərini tərk etmiş ermənilərin çox hissəsi Bakı və Gəncə şəhərində yerləşmiş və onların əksəriyyəti Ermənistana köçməkdən imtina etmişdilər.

Haşiyə çıxaq ki, elə 90-cı illərin əvvəllərində və 2020–2023-cü illərdə Azərbaycanı tərk etmiş ermənilərin əksəriyyəti də “vətən təəssübkeşliyini” unudaraq Ermənistanda yox, xarici ölkələrdə yaşamağı üstün tutmuşlar. Adı çəkilən komissiya ermənilərin əvvəllər yaşadıqları yerlərə qayıtmaları və yerləşmələri üçün hətta plan da tərtib etmiş, bu zaman hətta ermənilərin öz təklifləri belə nəzərə alınmışdı. Bu addımlar Azərbaycan Cümhuriyyətinin milliyyətindən, dinindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olduğunun bariz nümunəsi idi.

Azərbaycan dövləti bu gün də AXC-nin humanist ənənələrinə sadiq qalaraq, etnik ayrı-seçkilik, intiqam hisslərindən uzaq siyasət yeritdiyini dəfələrlə bəyan etmişdir. Bunun üçün isə yeganə şərt onun qanunlarına riayət edilməsi və Qərbi Azərbaycandan depotrasiya olunmuş 300 minədək etnik azərbaycanlının Ermənistana – öz doğma yurd-yuvalarına qaytarılmasıdır.

***Kamran İSMAYILOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, dosent***

# Kral Kollecinin üzvü olan ilk azərbaycanlı

**Müsahibimiz Azərbaycanı Böyük Britaniyada layiqincə təmsil edən soydaşımız Fidan İsrafilbəylidir. Öncə həmyerlimizin tərcümeyi-halını öz dilindən eşidək:**

– Bakıda anadan olmuşam və 164 nömrəli orta məktəbdə təhsil almışam. Hələ məktəb illərindən ingilis dilini yaxşı öyrənmişəm. Sovet dövrü olduğu üçün məktəblərdə ingilis dili çox tədris edilmirdi, lakin bizim məktəb xüsusi statusa malik idi və bir neçə fənn ingilis dilində keçirilirdi.

1993-cü ildə Azərbaycan Tibb Universitetinə daxil olmağa qərar verdim. 1999-cu ildə universiteti bitirdim və mama-ginekologiyaya maraq göstərdim. Bu səbəbdən, internaturamı mama-ginekologiya ixtisası üzrə respublika xəstəxanasında 2000-ci ildə tamamladım.



Universitetin son illərində Böyük Britaniyada həkim kimi çalışa bilmək üçün PLAB imtahanlarına hazırlaşmağa başladım. PLAB imtahanları iki hissədən ibarət olub, Böyük Britaniyada tibb sahəsində işləmək imkanı verir. 2003-cü ildə PLAB imtahanlarını uğurla verdikdən sonra klinik təcrübə üçün Böyük Britaniyaya gəldim və Kolçesterdə, Britaniyanın ən qədim şəhərlərindən birində mama-ginekologiya şöbəsində işə başladım. O vaxtdan etibarən müxtəlif şəhər və qəsəbələrdə çalışmışam, son iş yerim isə Birmingem şəhəri oldu. Orada mama-ginekologiya üzrə təhsilimi davam etdirərək, 2018-ci ildə məsləhətçi – həkim oldum.

Beləliklə, mama-ginekologiya sahəsində ixtisaslaşmışam və uroginikologiyaya xüsusi marağım var. Azərbaycanda PhD işimi tamamladım və 2009-cu ildə bu işi uğurla müdafiə etdim. 2018-ci ildə isə Birmingem Universitetindən tibb elmləri doktoru dərəcəsini qazandım. Mən COTS (cerclage outcome by the type of suture material) adlı pilot tədqiqatını həyata keçirdim və bu araşdırma nəticəsində 2,5 milyon funt– sterlinq dəyərində qrant əldə edildi. Bu, NIHR tərəfindən maliyyələşdirilən "Stitch" adlı genişmiqyaslı tədqiqatın əsasını qoydu və bununla fəxr edirəm. Bir çox elmi məqalələrim dərc olunub və hazırda çoxmərkəzli, randomizə edilmiş "C-STICH 2" adlı daha böyük bir tədqiqatın baş tədqiqatçısıyam. İki övladım var.

**– Fidan xanım, yetərincə sanballı tərcümeyi-halınız var. İngiltərə kimi inkişaf etmiş Avropa ölkəsində tibb sahəsində kifayət qədər ciddi uğurlar qazanmısınız. Bəs necə oldu ki, həkimlik kimi ağır və dəqiqlik tələb edən sahəni seçdiniz?**

–Həkim olmağı və həyatımı tibb sahəsinə həsr etməyi seçməyim, əslində, heç də təəccüblü deyil. Ailəmizdə nəsillərdir davam edən bir həkimlik ənənəsi var. Bu yolda, təxminən, üç nəsil öncədən başlayaraq, xüsusilə anam tərəfdən ulu babam Mövsüm Qədirlini qeyd etmək istərdim. O, 1922-ci ildə Azərbaycan Respublikasının ilk Səhiyyə naziri və eyni zamanda, Azərbaycan Tibb İnstitutunun ilk rektoru olub. Azərbaycan Tibb İnstitutunun yaradılmasında böyük rol oynamış babamı, təəssüf ki, 1937-ci ildə repressiyaya məruz qalıb və haqqında güllələnmə qərarı çıxarılıb. Digər ulu babam isə professor Emin Əfəndiyev olub. Bu gün Bakıda mərkəzi xəstəxanalardan biri onun adını daşıyır. İstisu kurortunun təşkil edənlərdən biri də məhz Emin Əfəndiyev olmuşdur. O sanator-kurort təbabətinin inkişafına mühüm töhfələr vermişdir.

Əlbəttə, bütün bunlar mənim genetik kodlarımdır. Amma həyatımı tibbə həsr etməyimdə və ən fundamental qərarlarımda ən böyük təsir sahibi nənəm, professor Solmaz İsrafilbəyli olub. Ötən il dünyasını dəyişən nənəm Azərbaycanda çox tanınmış həkim idi. O, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda mama-ginekologiya kafedrasinin müdiri və bu sahədə görkəmli bir ginekoloq kimi nüfuz qazanıb. Ümumiyyətlə, mənim mama-ginekoloq olma qərarım, onun güclü xarakteri, sevgidolu yanaşması və ixtisasına olan hədsiz sevgisi sayəsində formalaşdı. Tələbə olarkən onunla birlikdə əməliyyatlara qatılmağa başlamışdım və bu sahəyə daha çox marağım da orada yaranmışdı.

**– İngiltərədə həkim işləmək bildiyim qədərilə çətindir və tələblər çoxdur. Bir azərbaycanlı xanım bunun öhdəsindən necə gələ bildi?**

– Xarici həkimlərin Böyük Britaniya sisteminə daxil olub tibb sahəsində çalışmağa başlaması hər zaman çətin olub. Lakin burada səhiyyə sistemi əsasən xarici həkimlərə güvənir. Hazırda yollar daha aydınlaşır və Azərbaycandan daha



çox həkimin Birləşmiş Krallıqda çalışmağa gəldiyini görmək məni sevindirir. Lakin iyirmi il əvvəl İngiltərəyə gəldiyim və Azərbaycan Respublikasından ilk dəfə GMC-yə (Səhiyyə Nazirliyinə bərabər bir qurum) qeydiyyatdan keçən həkim olduğum dövrdə bu işlər müşkül idi.

İlk növbədə, Birləşmiş Krallıqda həkim kimi işləyə biləcəyinizi sübut etmək üçün bir çox imtahanlardan keçməli idim. Sonra isə iş tapmaq məsələsi gəlirdi və istənilən ixtisas sahəsində iş tapmaq şanslı bir hal sayılırdı. İngiltərədə ənənəvi olaraq Hindistan və Pakistandan çox sayda həkim var və onlar bir-birini dəstəkləyərək doğru yolları göstərirlər. Mən İngiltərəyə gəldiyim vaxtda bu dəstəyim yox idi və bütün lazımi imtahanları keçsəm də, ilk işimi tapmaqda həqiqətən çətinlik çəkdim. Şansım onda gətirdi ki, Təbrizdən bir həkimlə tanış oldum və o, məni yerli xəstəxanada ginekologiya şöbəsində iki həftəlik müşahidəçi kimi çalışmağa kömək etdi. Xəstəxanadakı kollektiv işimi bəyəndi və mənə dərhal iş təklif etdilər. Beləliklə, iyirmi ildən çox müddətdə İngiltərədə mama-ginekologiya sahəsində çalışdım. Bu yolda klinik iyerarxiyanın zirvəsinə qalxmaq və sahəmdə məsləhətçi (consultant) olmaq üçün əlavə peşəkar imtahanlar verməli oldum. Bu əhəmiyyətli imtahanlardan biri isə Mama-Ginekoloqlar Kral Kollecinin üzvü olmaq idi və həmin titulu əldə edən ilk azərbaycanlı həkim olmaqdan qürur duyuram.

Ginekologiya sahəsində çalışmaq heç də asan deyildi, xüsusilə qadın olduğum üçün. Əvvəllər mamaçalar və tibb bacıları ilə bəzi anlaşılmazlıqlar yaşadım, lakin onların baxışlarına hörmət etməyi və bir komanda olaraq birlikdə çalışmağı öyrəndim. Burada komanda işi çox vacibdir. Mamaçalar müstəqil tibb işçiləridir və bu, Bakıda işlədiyim yerdən çox fərqlidir.

**– Deməli, bu qədər tələbkar sistem olmağına baxmayaraq, sizə güvənməkdə səhv etməyiblər…**

– Əlbəttə… Britaniya tibb sistemi mənim kimi xarici həkimlərə böyük ölçüdə güvənir, buna görə də bu baxımdan unikal deyildim. Ancaq mən "eqzotik" bir həkim sayılırdım, çünki mən yerli insanlar üçün tamamilə tanınmayan bir ölkədən gəlmişdim. Lakin artıq Azərbaycan çox inkişaf edib və beynəlxalq səviyyədə, xüsusilə Britaniyada yaxşı tanınır.

**– Fidan xanım, siz həm də tarixçi ailəsində böyümüsünüz. Ananız cumhuriyyət dövrümüzü tədqiq edən alimlərimizdən biridir. Bu, sizin formalaşmağınıza təsir göstəribmi?**

– Bəli, doğrudur. Anam tariximizi sevən və ona ömür boyu xidmət göstərən alimlərimizdəndir. Təsadüfi deyildir ki, o, 30 il AMEA-nın Tarix İnstitutunda Azərbaycan Xalq Cümhuriyyəti şöbəsinin müdiri kimi fəaliyyət göstərib.

Mən hələ erkən sovet dövrünə, xüsusən 1937-ci ildə Stalin repressiyalarına böyük maraq göstərirdim və bunun bir səbəbi var idi. O dövrdə ailəmiz böyük faciə ilə üzləşmişdi. Əvvəl qeyd etdiyim kimi, ulu babam Mövsüm Qədirli Stalin repressiyalarının qurbanı olmuş və qətlə yetirilmişdi. Onun həyatı ailəvi söhbətlərimizdə çox müzakirə olunurdu. Bizim hər bazar günü nahar ənənəmiz var idi, həmin vaxt babam Emin Əfəndiyev masanın başında oturardı, bütün ailə isə masanın ətrafına yığılardı. Nənəm Şamaxı mətbəxindən ləziz xörəklər hazırlayardı. Babamız isə bizə ailəmizin tarixi, xüsusilə 1937-ci illə bağlı – çətin dövr barədə danışardı. Uşaq vaxtı bu hekayələri dinləyirdim və həmin marağı saxlayaraq o dövrün tarixi barədə çoxlu mütaliə etdim. Əlbəttə, bu söhbətlər mənim düşüncəmdə, formalaşmağımda, şəcərəmə, kökümə bağlılığımı artırırdı. Bu biliklər həm də Azərbaycanın tarixi idi. Mən bunları öyrənməyə bilməzdim.

**– Haqqınızda çox müsbət fikirlər eşidirik. Siz orada həmvətənlərimizə təmənnasız kömək göstərirsiniz. Vətənpərvərsiniz, İngilis cəmiyyətində bizi layiqincə təmsil edirsiniz…**

– Xaricdə yaşayan bir azərbaycanlı kimi, mən də ölkəmə uzaqdan da olsa dəstək olmağa çalışıram. Bunu əsasən Azərbaycanın Birləşmiş Krallıqdakı diasporunun üzvü kimi edirəm. Diasporun ölkəmiz üçün gördüyü bütün layihələrə gücüm çatdığı qədər kömək etməyə çalışıram. Məsələn, İkinci Qarabağ müharibəsində qəhrəman əsgərlərimizə həm maddi, həm də mənəvi yardım göstərməyə çalışdıq. Ölkəmizin haqlı mübarizəsində təbliğat apararaq, Qarabağ müharibəsi ilə bağlı həqiqətləri burada yaşayan yerli insanlara izah etməyə çalışdıq. Müharibədən sonra da qazilərimizə gücümüz çatan qədər dəstək olmağa çalışırıq. Əlbəttə, məncə, hər bir azərbaycanlı qanı daşıyan şəxs bunu etməyə tələsməli, yaxasını kənara çəkməməlidir.

Bundan əlavə, Birləşmiş Krallığa yeni gələn gənc həmkarlarıma da dəstək olmağa çalışıram. Onların iş tapmasında və burada uyğunlaşmasında əlimdən gələni etməyə səy göstərirəm.

**– Siz həm də tibb sahəsində elmi tədqiqatlarla məşğul olan mütəxəssissiniz. Britaniyadakı təcrübəniz ilə yanaşaq, Azərbaycan səhiyyə sistemində nələrin olmasını arzu edərdiniz ?**

– Bu gün Azərbaycanda səhiyyə sistemi inkişaf etməkdədir. Yeni, müasir avadanlıqlar alınır. Əlbəttə, bu məni sevindirməyə bilməz. Amma öz sahəm olduğu üçün dəqiq deyə bilərəm ki, Mama-Ginekoloqlar Cəmiyyətini bərpa etməyi tövsiyə edərdim. Nənəm, professor Solmaz İsfrailbəyli uzun illər bu cəmiyyətin rəhbəri olub. Daha əvvəl qeyd etdiyim kimi, Birləşmiş Krallıqda mama – ginekoloqlar üçün Kral Kolleci tənzimləyici qurum olaraq qalır. Fikrimcə, Azərbaycan Mama-Ginekoloqlar Cəmiyyəti də bu sahədə qayğı standartlarını inkişaf etdirən bir tənzimləyici qurum ola bilər və bu, ilk addım olardı. Hazırda əksər həkimlər, xüsusilə özəl xəstəxanalarda işləyənlər, özləri üçün ən uyğun olanı və ya gəlir gətirə biləcək addımları atmağa meyillidirlər.

Bundan əlavə, tibb sahəsində aparılan tədqiqatlar üçün standartların yaradılması ilə bağlı ideyalarım var. 2009-cu ildə Azərbaycanda PhD dərəcəsini tamamladım və 2018-ci ildə İngiltərədə geniş bir tədqiqat apararaq Birmingem Universitetindən tibb elmləri doktoru dərəcəsini aldım. Mama-ginekologiya sahəsində üç il davam edən bir tədqiqat aparmalı və dissertasiya yazaraq müdafiə etməli idim. İngiltərədəki tədqiqat təcrübəm, Bakıda etdiyim araşdırmadan tamamilə fərqli idi. Gələcəkdə tibbi tədqiqatlar üzrə standartların beynəlxalq səviyyəyə uyğunlaşdırılmasını istərdim.

Hər bir tibb sahəsinin və ümumilikdə, tibbin uğuru hər bir ölkədə standartlaşdırılmış nəticələrə görə qiymətləndirilir. Adətən, bu nəticələrdən 7-si əsas götürülür. Məsələn, ölüm nisbəti, gözlənilən yaşı, xidmətin effektivliyi və s.

Mama-ginekologiya sahəsində əsas standartlaşdırılmış nəticələrdən biri ana və perinatal ölüm nisbətidir. Təəssüf ki, Azərbaycanda ana ölümü hələ də yüksəkdir və bu göstərici üzrə ölkə hələ də üçüncü dünya ölkələri siyahısındadır. Və Amerika Birləşmiş Ştatları da o qrupdadır. Qadınlar hələ də doğuş zamanı, əsas səbəbi doğuşdan sonrakı qanaxma olmaqla, həyatlarını itirirlər və bu, çox kədərlidir.

Amma bunu da deməliyəm ki, Bakıya səfər zamanı müxtəlif konfranslarda və kurslarda iştirak edərkən, yerli ginekoloqların təhsil və bilik səviyyəsinin hətta 10 il əvvəlkindən çox daha yaxşı olduğunu görməkdən məmnunam. Onlar daha çox öyrənməyə can atırlar, bir qismi isə xaricdə təlim keçir və müəyyən bacarıqlara yiyələnir. Verdikləri tibbi xidmətin səviyyəsi çox vaxt beynəlxalq standartlara uyğundur. Artıq müasir infrastrukturla təmin olunmuş daha çox sayda xəstəxanalar mövcuddur.



Buna baxmayaraq, vahidlik, sahə üzrə tənzimləyici qurumlar yoxdur. Məsələn, Birləşmiş Krallıqda hər bir doğum şöbəsi RCOG, NICE və Səhiyyə Nazirliyi tərəfindən nəşr olunan rəhbərlik və standartlara uyğun fəaliyyət göstərir. Onlar hamısı elmi sübutlara əsaslanır və biz onlara ciddi şəkildə əməl etməliyik. Əgər kənara çıxsaq, bunu əsaslandırmağımız tələb olunur. Təcrübəmiz bu standartlar vasitəsilə ciddi şəkildə tənzimlənir və bunun nəticəsində perinatal və xüsusilə ana ölümü nisbəti çox aşağıdır. Digər maraqlı məqam isə odur ki, Birləşmiş Krallıqda, məsələn, uşağın dünyaya gətirilməsi və ya ginekoloji əməliyyatın harada aparılmasının əhəmiyyəti yoxdur: bu, Londonda, Birmingemdə və ya Şimaldakı kiçik bir şəhərdə də ola bilər. Baxım standartı hər yerdə eynidir, lakin fərq tədqiqat fondu əldə etmək və mürəkkəb hallar üzrə idarəetmə baxımından ortaya çıxır ki, bu cür hallar, adətən, üçüncü səviyyəli mərkəzlərə yönəldilir (universitet xəstəxanaları).

**– İstərdik Böyük Britaniyanın səhiyyə sistemi barədə söhbət açasınız. Dünya səhiyyə sistemində yaşadığınız ölkənin yerini və rolunu necə qiymətləndirirsiniz?**

– Bu sualın, əslində, obyektiv və subyektiv cavabları mövcuddur. Obyektiv şəkildə qiymətləndirmək üçün geriyə dönüb aparılan tədqiqatlara baxmaq lazımdır. Qlobal standartlara görə, NHS (Milli Səhiyyə Xidməti) yüksək səviyyədə xidmət göstərir. Birləşmiş Krallığın səhiyyə sistemi 2024 Dünya Sağlamlıq İnnovasiya İndeksində ümumi reytinq üzrə 18-ci sırada qərarlaşıb. 2013-cü ildə keçirilən bir sorğuda bu xidmət britaniyalıları ən çox qürurlandıran amillər sırasında birinci yerdə göstərilmişdi. NHS daim xidmətlərini yaxşılaşdırmağa çalışır.

Ümumiyyətlə, NHS Birləşmiş Krallığın hər bir regionunda səhiyyə xərclərini standartlaşdırır. Bir çox xidmət, o cümlədən xəstəxanada müalicə alan xəstələr üçün təyin olunan dərmanlar pulsuzdur. Bundan əlavə olaraq səhiyyə sistemi sosial təminat sistemi ilə sıx əlaqəlidir. Burada əsas məqsəd yalnız xəstəni müalicə etmək deyil, eyni zamanda, onun sonrakı reabilitasiya mərhələsində dəstək göstərməkdir. Zərurət yarandıqda, xəstənin qocalar evinə və ya onkoloji xəstələr üçün baxım evinə yerləşdirilməsini təmin etmək, həm tibbi, həm də sosial xidmətləri təşkil etmək önəmlidir.

Bir həkim olaraq mənim müşahidələrim isə belədir: burada tibb fakültələri yüksək səviyyədədir və eyni zamanda, rezident həkimlərin təhsili də xüsusi diqqətlə aparılır. Bütün bunların nəticəsində xəstələrə keyfiyyətli xidmət göstərilə bilir. NHS-in zəif tərəfi kimi isə xəstələrin tibbi xidmət almaq üçün uzun gözləmə müddətləri ilə üzləşdiyini qeyd edə bilərəm.

*Müsahibəni qələmə aldı:*
***Anar TURAN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 256 (30660) 21 noyabr 2024-cü il, cümə axşamı

TƏQDİMAT

# “Nəsimi” operasının ilk tamaşası

**Dünən Heydər Əliyev Sarayında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının tamaşaya qoyduğu “Nəsimi” operasının təqdimatı oldu. Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin dərin fəlsəfəsini, azad ruhunu və humanist dəyərlərini özündə yaşadan bu əsəri tamaşaçılar böyük maraqla qarşıladılar.**



...Səhnədə zınqırovlu dəvələrin hərəkət etdiyi karvan görünür. Nəsimi doğmaları ilə vidalaşıb Təbrizə yollanır. Şairin **“Bulmuşam həqqi, ənəlhəq söylərəm, Həq mənəm, həq məndədir, həq söylərəm”** fəlsəfəsi, şər qüvvələrlə mübarizə fəryadı, nakam arzuları musiqi ilə müşayiət olunur. Səhnədə Təbrizin səsli-küylü, dolanbac küçələri, bazar ab-havası, şah sarayı, dahi şairin zindan həyatı, həyat və yaradıcılıq yolu, müəllimi Fəzlullah Nəimiyə olan etiqadı, məhəbbəti canlanır. Nəsiminin söz aləmi musiqi ilə vəhdətdə dinləyiciləri məftun edir. Sanki, üsyankar şair əsrlərin dərinliyindən günümüzə qayıdıb. Operanı dinlədikcə zamanın gərdişinə sözün gücü ilə qalib gələn böyük bir şairin taleyini görürük.

Operanın musiqisi Xalq artisti, professor Siyavuş Kərimiyə, librettosu akademik Rafael Hüseynova məxsusdur. Azərbaycan mədəniyyətinə yeni bir nəfəs gətirən əsərin məzmununun əsas qayəsi Nəsimi irsini gələcək nəsillərə ötürmək və dünyaya çatdırmaqdır.

Tamaşada İmadəddin Nəsimi obrazını Əməkdar artist Ramil Qasımov canlandırdı. Xalq artistləri Teyyub Aslanov (Fəzlullah Nəimi), Əməkdar artistlər İlkin Əhmədov (Əbdülqadir Marağayi), Anton Ferştandt (Əmir Teymurun vəziri), Cahangir Qurbanov (Məlikşüarə) rollarını ifa etdilər. Əsərdə baş verən hadisələri Xalq artisti Nurəddin Mehdixanlı (Zəvvar) səsləndirir.

Tamaşanın musiqi rəhbəri və quruluşçu dirijoru – Əməkdar artist Əyyub Quliyev, quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, quruluşçu xoreoqrafı Əməkdar artist Yuriy Lobaçev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu rəssamı Əməkdar artist Ramil Qasımov, işıq üzrə rəssamı isə Rafael Həsənovdur.

**Operanın müəllifləri XQ-ya qısa müsahibə verdilər:**



**Rafael Hüseynov:**

– Nəsiminin həyat fəlsəfəsinə, keçdiyi mübarizəli ömür yoluna həsr olunmuş çoxlu elmi əsərlər var. Bunula yanaşı, müəyyən bədii əsərlər də yaranmışdır. Belə əsərlərin çox olması bizim üçün olduqca əhəmiyyətlidir. Çünki bu cür əsərlər Nəsimini xalqa daha yaxın edir. Hələ XIII əsrdən Nəsimi irsi bir çox alimlər və yazıçılar tərəfindən araşdırılıb öyrənilir. Lakin onun şeirlərinin mürəkkəb və fəlsəfi dildə yazılması insanlara imkan vermirdi ki, onu daha yaxından tanısınlar. İsa Hüseynovun yazdığı ssenari əsasında Həsən Seyidbəylinin çəkdiyi gözəl film Nəsimini xalqa sanki yenidən qaytardı.

Düşünürəm ki, Səyavuş Kərimi ilə ərsəyə gətirdiyimiz bu opera təkcə Azərbaycanda deyil, Yaxın Orta Şərqdə də Nəsimi dünyasına, fəlsəfəsinə maraq göstərən insanlar üçün də çox maraqlı olacaq. 2019-cu ildə bu əsər üzərində işlər gedirdi. Əsərin ideya müəllifi dəyərli opera ifaçısı Ramil Qasımovdur. Bir gün o, məndən xahiş etdi ki, Nəsimi operası yaradaq və sözlərini də mən yazım. 15-20 dəqiqəlik kompozisiya olsun və ifa etsin.

Onun sözünü yerə salmayıb librettonu yazdım. Səyavuş Kərimi isə musiqini yazmağa başladı. Sonra Ramil məndən xahiş etdi ki, səhnədə tək oxumayım. Bir xanım da mənimlə duet oxusun. Beləliklə, Nəsiminin sevdiyi qızın surətini də bura əlavə etdik. Lakin tale elə gətirdi ki, biz bu operanı Nəsimi ilində təhvil verə bilmədik. Bu operanın hər bir parçasını müzakirə etmişik. Dinləmişik. Düşünürəm ki, Azərbaycan operasının tarixində dəyərli hadisə kimi qalacaq.

**Səyavuş Kərimi:**

– Bu gün Rəfael Hüseynovun librettosuna yazdığım operanın ilk tamaşasına yığışmışıq. Çox həyacanlıyam. Böyük mütəfəkkir Nəsiminin həyatında baş vermiş hadisələri, bütün həyatını bir əsərə sığışdırmaq mümkün deyil. Çalışmışıq ki, Nəsiminin həyat və yaradıcılıq yoluna az da olsa, işıq sala bilək. Operanı çox istedadlı musiqiçilər ifa edirlər. Əsas rolu canlandıran ifaçı isə çox istedadlı gənc Ramil Qasımovdur. Arzu edirəm ki, bu operanın ömrü uzun olsun.

**Fidan SALMANOVA,**
**Elşən AĞALAROV (foto)**
**XQ**

## İdman xəbərləri

### MOK-da İSSA nümayəndə heyəti ilə görüş

**Milli Olimpiya Komitəsində (MOK) İslam Həmrəyliyi İdman Assosiasiyasının (İSSA) nümayəndə heyəti ilə görüş keçirilib.**



MOK-un mətbuat xidmətindən verilən məlumata görə, görüşdə İSSA-nın baş katibi Nasser Ayman Mayali, strategiya və proqramlar direktoru Mazen Diab və millət vəkili, MOK-un İcraiyyə Komitəsinin üzvü, İSSA-nın “Qadın və İdmanda Gender Bərabərliyi” komitəsinin rəhbəri Könül Nurullayeva müxtəlif mövzularda fikir mübadiləsi apardılar.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idman sahəsində görülən işlər və qazanılan uğurlar barədə danışıb. O, 2017-ci ildə ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi etdiyini xatırladıb.

Nasser Ayman Mayali gələn il Ər-Riyadda keçiriləcək VI İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı məlumat verərək yarışların uğurla təşkil olunacağına inandığını bildirib.

Görüş zamanı İslam Həmrəyliyi İdman Assosiasyası ilə qarşılıqlı əlaqələr müzakirə edilib.

### “Qarabağ”–“Lion” oyununa 13 min bilet satılıb

**UEFA Avropa Liqasının əsas mərhələsində Bakıda “Qarabağ” və Fransanın “Lion” klubu arasında keçiriləcək V tur oyununa indiyədək 13 min bilet satılıb.**




Bu barədə Azərbaycan çempionunun mətbuat xidmətindən məlumat verilib.

Biletlərin qiyməti müvafiq olaraq 5, 20, 30, 40, 75 və 150 manat təşkil edir. VVIP C və VVIP D sektorlara biletlərin qiyməti isə 300 manatdır.

Qeyd edək ki, noyabrın 28-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək görüş saat 21:45-də başlayacaq.

***L.QURBANOVA***
***XQ***

## XQ-nin fotoekranı

# Gülün iki aşiqi varmış...



## Sağlamlıq

# Normal təzyiq pəhrizi

**Rusiyada 30 illik təzyiq xəstəsi dərmanlarla təzyiqi sala bilmədiyindən sovet dövründəki həkimlərin ürək, böyrək xəstələri üçün təyin etdiyi duzsuz, 7 və 10 nömrəli pəhrizlərlə sağalıb. O müalicə üsulunu belə təsvir edib:**

“Təzyiqi tam müalicə etmək üçün möcüzə tablet yoxdur. Nə qədər çox dərman qəbul ediriksə, bir o qədər orqanların ömrü qısalır. Mən təzyiq dərmanı ilə yanaşı, ürək-damar üçün tabletlər qəbul edirdim. Dəfələrlə həkim “pəhriz saxla”– desə də, konkret necə qidalanmağı demir, mən də yemə-yimdən qalmırdım. Son 1 ildə dərmanla da təzyiqim düşmürdü. Günlərlə başım gicəllənir, ürəyim bulanırdı.



Mən duzsuz qidalanmağa keçdim. Buna alışmaq ilk günlər çətin olsa da, getdikcə toyuq, ət, salatlar duzsuz da dadlı gəlirdi. Şorbaları ədviyyat, quru və təzə göyərti ilə dadlandırdım. Menyuya paxlalar, yarmalar daxil etdim. 3 gündən sonra ilk təsir hiss olundu: axşama kimi ayaqlarım şişmədi, başımdakı ağrı və təzyiq itdi. İnsan zamanla yüksək təzyiqə elə uyğunlaşır ki, onu hiss etmir. Bəzən 160–180 təzyiqlə adama elə gəlir ki, hər şey normaldır.

Bu qidalanma ilə bir ay sonra mən demək olar, çox dərmanlardan imtina etdim, əmi bir təzyiq dərmanım qaldı, bədənim yüngülləşdi, enerjim artdı. İndi təzyiqim 140-dan yuxarı qalxmır, bir az yüksələn kimi dərhal hiss edirəm. Bu, o zaman baş verir ki, mən ya qonaq gedib, ya da, restoranda, kafedə yeyib pəhrizimi pozuram”.

***Z.HÜSEYNLİ***
***XQ***

## Hava

# Yağmursuz, çiskinli və dumanlı son bahar



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin səhər və axşam bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 9-11°, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin gecə və səhər bəzi bəzi şərq rayonlarında az çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 13-18° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2656
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00